# QURANDA VİCDANIN ƏHƏMİYYƏTİ

HARUN YƏHYA
(ADNAN OKTAR)

HARUN YƏHYA

# Quranda vicdanın əhəmiyyəti

*"Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər."*

NƏML SURƏSİ, 14

— 15 fəsil —

# Mündəricat


01 Oxucuya 004

02 Yazıçı və əsərləri haqqında 006

03 Giriş 009

04 Allahın hər insana ilhamı: vicdan 010

05 Allahın varlığının dəlilləri vicdanla görülə bilər 012

06 Vicdan və Quran 019

07 Vicdan və Quran insana həyatının həqiqi məqsədini göstərir 022

08 Vicdan və Quran axirətə qəti olaraq iman etməyi əmr edər 024

09 Hər an vicdana tabe olaraq Quran əxlaqını yaşamaq 031

10 Vicdanlı bir insanın Allah ilə yaxınlığı necə olur? 041

11 Vicdanın qarşısındakı mənfi güclər: nəfs və şeytan 046

12 Vicdanlı insanların dünyada yaşadıqları ortam və Cənnət 070

13 Vicdanına tabe olmayan kəslərin yaşadıqları ortam və Cəhənnəm 074

14 Qurandan vicdan və vicdansızlıq nümunələri 078

15 Vicdansızlıqları ilə tarixə düşmüş insanlar 087

16 Nəticə 099

17 Təkamül yalanı 102

FƏSİL

# Oxucuya

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan

və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL 02

# Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət,

gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

FƏSİL

# Giriş



Bu kitabda, hər zaman ədaləti, gözəl əxlaqı, təvazökar olmağı, dürüstlüyü, səmimiyyəti, qısacası hər şeyin ən doğrusunu bildirən “səs”dən bəhs edəcəyik. Bu səs, bəlkə fərqində deyilsiniz, amma daim sizinlə birlikdədir, hara getsəniz sizinlə gəlir. “Kimə aiddir bu səs” deyə düşünə bilərsiniz. Bu səs əslində sizə aiddir, sizin içinizdə; vicdanınızın səsidir ...

Vicdan kəlməsini hər kəs çox yaxşı bilir və çox tez-tez istifadə edir. Lakin əsl mənasının nə demək olduğu, həqiqətən vicdanına tabe olan insanın nələr etdiyi, digər insanlardan nə fərqinin olduğu ümumi olaraq bilinməz. Vicdan cəmiyyətdə bilinən mənasıyla məhdudlaşdırılır. Cəmiyyətdəki yayılmış anlayışa görə, yerə zibil atmayanlar, dilənçiyə pul verənlər, küçə heyvanlarını qoruyub bəsləyənlər vicdanlı insanlara nümunədir. Ancaq vicdanın, cəmiyyətdə geniş olaraq istifadə edilən bu mənasından çox üstün mənası və əhəmiyyəti vardır. Bu kitabın məqsədi, Quranda nümunələri verilən əsl vicdanı tanıtmaq və vicdanlı insanın necə düşündüyünə, vicdanı ilə necə fikirə və anlayışa sahib olduğuna və vicdanın insanların ölümdən sonrakı həyatları üçün nə qədər əhəmiyyətli olduğuna diqqət çəkməkdir. Bunun üçün isə, vicdanınızın səsini tanımağınızı və onu düşüncələrinizdəki digər səs və təlqinlərdən ayıra bilmənizi təmin edəcək məlumatlar veriləcəkdir. Həmçinin vicdanınızın sizə nələr düşündürəcəyi və etdirəcəyi mərhələ-mərhələ izah ediləcək və vicdanına tabe olan insanın necə yüksək əxlaqa sahib olacağı bildirəcəkdir. Bu kitabın məqsədi yalnız vicdanla əlaqədar məlumat vermək deyil, insanların vicdanlarına səslənərək onları hərəkətə keçirmək, gücləndirmək və bundan sonrakı həyatlarını vicdanlarına görə yaşamağa təşviq etməkdir. Və vicdanlarına tabe olmadıqları zaman necə zərərlə qarşılaşacaqlarını da göstərir.

FƏSİL

# Allahın hər insana ilhamı: vicdan



Vicdan, hər insana gözəl olan rəftarı və düşüncəni söyləyən, insanın sağlam mühakimə etməsini, doğrunu və yanlışı bir-birindən ayırd edə bilməsini təmin edən mənəvi xüsusiyyətdir.

Vicdanın əhəmiyyətli bir xüsusiyyəti bütün insanlarda ortaq olmasıdır. Yəni insanın vicdanına görə doğru olan, eyni şərtlər olduğu müddətcə digər insanların vicdanları üçün də keçərlidir. Vicdanlar heç bir zaman zidd düşməz. Bunun səbəbi isə vicdanın mənbəyidir; vicdan Allahın ilhamıdır. Allah, hər insana vicdanı vasitəsi ilə Özünün razı olacağı ən doğru və ən gözəl rəftarları bildirir.

Vicdanın Allahın ilhamı olduğu Quranın Şəms surəsində belə bildirilir:

> *And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır.*
>
> **(Şəms surəsi, 7-10)**

Yuxarıdakı ayələrdə Allah nəfsə fücuru (günaha və üsyan etməyə çalışmaq, fasiq olmaq, yalan söyləmək, baş qaldırmaq, haqdan üz çevirmək, nizamı pozmaq, əxlaqi çöküntü, təqvanın ziddi) və eyni zamanda ondan çəkinməyi ilham etdiyini bildiriir. Elə insanı pisliklərdən çəkindirən və doğrunu göstərən vicdanıdır.

Vicdanın ən əhəmiyyətli xüsusiyyətlərindən biri isə insanın öz-özünə doğrunu tapmasına köməkçi olmasıdır. Sonrakı hissələrdə bunun necə baş verəcəyindən bəhs edəcəyik. Vicdan, kimsə göstərməsə də insana doğrunu göstərəcək, ancaq əhəmiyyətli olan insanın vicdanına üz tutması, onun nə dediyini dinləməsi və nöqsansız olaraq söylədiklərini tətbiq etməkdir. Bu səbəblə vicdan dinin təməl ünsürüdür deyə bilərik.

Hər şeydən əvvəl bunu unutmamaq lazımdır: Hər insan şüur sahibi olduğu andan etibarən Allahın ona ilham etdiyi vicdanının söylədiklərindən məsuldur. Ətrafındakı

hadisələri dərk etməyə başlayan, mühakimə qabiliyyəti qazanan hər insan artıq vicdanını duyacaq, nəfsi ilə vicdanını ayırd edə biləcək qabiliyyətə və vicdanına uya biləcək iradəyə sahib olmuş deməkdir. Artıq bundan sonra qarşılaşdığı hadisələr əsnasında seçdiyi yoldan hesab günü sorğu-sual olunacaqdır; vicdanına tabe olarsa, Allahın sonsuz cənnətinə layiq görüləcək, nəfsinə tabe olarsa, "qapıları kilidlənmiş" sonsuz atəşlə qarşılaşacaqdır.

5. FƏSİL

# Allahın varlığının dəlilləri vicdanla görülə bilər



Vicdanına tabe olan insanın ilk olaraq edəcəyi şey, ətrafında gördüklərini sorğulamaq və araşdırmaq olacaq. Və idrak qabiliyyəti inkişaf etmiş insan görəcək ki, qüsursuz kainatda, hər şeyiylə tam olaraq yaradılmış dünyada yaşayır.

Hər kəs doğulduğu andan etibarən yaşadığı mühiti və şəraiti düşünsün. Bütün təfərrüatları incə-incə düşünülüb hazırlanmış dünyada yaşayırıq. Sadəcə öz bədənindəki sistemlər belə insanı təəccübə salacaq qədər qüsursuzdur. Hal-hazırda bu kitabı oxuyan hər kəsin ürəyi heç dayanmadan döyünür, dərisi özünü yeniləyir, ağciyərləri qanı təmizləyir, böyrəkləri qanı süzür, hüceyrələrində saniyədə milyonlarla zülal həyatlarının davam edə bilməsi üçün sintezlənir. Və insan, daxilində baş verən bunlar kimi daha minlərlə fəaliyyətdən xəbərsiz yaşayır və bəlkə də bunların bəzilərinin necə reallaşdığını belə bilmir.

Bu qədərlə də bitmir; yaşadığımız planetin milyonlarla kilometr uzaqlığında lazımlı istilik, işıq və enerjini təmin edən Günəş var. Amma Günəş ilə dünya arasındakı məsafə o qədər möhtəşəm nizamlanmış ki, bu enerji qaynağı planetimizi nə yandırıb yox edir, nə də soyuqdan dondurur.

Sonra səmaya baxırıq. Dünyanın hər tərəfini əhatə edən hava kütləsinin estetik görünməsi ilə bərabər insanları və bütün canlı aləmi xarici təhlükələrdən qoruduğunu öyrənirik. Əgər planetimizi əhatə edən bu atmosfer olmasa, dünya üzərində tək bir canlı belə var ola bilməyəcəkdi.

Bunların hər birini bir-bir düşünən insan əlbəttə ki, özünün və içində yaşadığı kainatın necə meydana gəldiyini və varlığını necə davam etdirdiyini sorğulayacaqdır. Bunu araşdırdığında isə qarşısına iki alternativ çıxacaq: Yaradılış və təkamül.

Bu alternativlərdən ikincisi bütün kainatın, planetlərin, ulduzların və bütün canlıların təsadüflər nəticəsində öz-özünə meydana gəldiyini sizə söyləyəcək. Maddənin ən kiçik vahidi olan atomların sərbəst haldaykən, təsadüflər nəticəsində bir yerə gəldiklərini, hüceyrəni, insanı, atları, kəpənəkləri, təbiəti, ulduzları, qısacası sizin hər an görərək

heyrətə düşdüyünüz son dərəcə qüsursuz və kompleks strukturları və sistemləri meydana gətirdiklərini iddia edəcək.

Sizə təqdim edilən digər alternativ isə bütün bu gördüklərinizin üstün ağıl sahibi, hər şeyə güc yetirən Yaradıcı tərəfindən var edildiyini, heç birinin təsadüflərlə meydana gələ bilməyəcəyini, ətrafınızda gördüyünüz bütün sistemlərin üstün güc sahibi Yaradıcının əsəri olduğunu söyləyəcək. O Yaradıcı bənzərsiz güc sahibi Allahdır.

Bu mərhələdə vicdanınıza üz tutaraq qərar verməlisiniz. Saysız təfərrüat ehtiva edən, möhtəşəm sistemlərin təsadüflərlə meydana gəlməsi və yenə öz-özünə bu qədər qüsursuzluq içində işləməsi mümkündürmü?

Vicdanından istifadə hər insan bu suala cavab verə bilər və kainatdakı hər şeyin Yaradıcısı olduğunu və bu Yaradıcının çox üstün ağıla, çox üstün gücə sahib olduğunu və hər şeyə qadir olduğunu qavraya bilər. Çünki ətrafındakı hər şeydə Allahın dəlilləri açıq şəkildə görülür. Kainatda və canlılarda var olan nizam və mükəmməl uyğunlaşma yaradılış həqiqətinin dəlillərindəndir. Bu, son dərəcə açıq, aydın və müzakirəsiz həqiqətdir. Yalnız yaradılmışlar arasındakı böyük uyğunluğu görmək belə vicdanın, bunların bir-birlərindən müstəqil olaraq təsadüflərlə yaranmayacaqlarını, hamısının tək Yaradıcımız olan Allahın əsəri olduğunu görməsi üçün yetərli olacaq.

Ancaq, vicdanından istifadə etməyən biri eyni anlayışa sahib ola bilməz. Çünki bu qavrayış ağılla qazanılır və ağıl ancaq vicdana uyulduğunda ortaya çıxan mənəvi xüsusiyyətdir.Vicdana uyğun olaraq edilən hər rəftar ağılın meydana gəlməsini və inkişafını təmin edər. Lakin burada "ağılın tərifi" diqqət edilməli olan əhəmiyyətli nöqtədir. Ağıl, gündəlik həyatda istifadə edilən mənasından, yəni zəkadan fərqli anlayışdır. İnsan nə qədər ağıllı olursa olsun, məlumatı, mədəniyyəti, nə qədər çox olursa olsun, vicdanından istifadə etmirsə "ağılsız" olacaq və bir çox həqiqəti görə bilməyəcək, gördüklərini də qavramayacaqdır.

Zəka ilə vicdanın qazandırdığı ağıl arasındakı fərqi belə örnəklə aydınlaşdıra bilərik: Bir alim, hüceyrə ilə əlaqədar illərcə çox dərin və ətraflı tədqiqatlar apara bilər. Bu mövzuda dünyanın ən məlumatlı insanı da ola bilər. Ancaq əgər ağıl və vicdandan məhrumdursa, bu adam yalnız hüceyrə ilə əlaqədar məlumatlara sahib olacaq, yəni bu məlumatları yalnız "daşıyacaq". Bu məlumatların istiqamətində nəticə çıxara bilməyəcək.

Halbuki vicdan və ağıl sahibi insan, hüceyrədəki möcüzəvi xüsusiyyətləri, təfərrüatlarındakı mükəmməllikləri görərək, bu qədər kompleks quruluşun ancaq və ancaq Yaradanı, üstün ağıl sahibi nizamlayanı olduğunu anlayar. İnsan vicdanla

düşünməyə davam edərsə bu nəticəyə çatacaq: Hüceyrəni bu mükəmməllikdə yaradan güc, digər bütün canlı və cansız varlıqların da Yaradıcısı olmalıdır.

Quranda, vicdanını dinləyərək bu üsulla Allahı tapan hz. İbrahim nümunə verilir:

> *Gecənin qaranlığı onu bürüdükdə o, ulduz görüb: "Bu mənim Rəbbimdir!" – dedi. O batdıqda isə: "Mən batanları sevmirəm!" – dedi. Doğan ayı gördükdə: "Bu mənim Rəbbimdir!" – dedi. O batdıqda isə: "Əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən azmış adamlardan olardım" – dedi. Doğan günəşi gördükdə: "Bu mənim Rəbbimdir, bu daha böyükdür!" – dedi. O batdıqda isə dedi: "Ey qövmüm! Həqiqətən, mən sizin Allaha şərik qoşduqlarınızdan uzağam! Doğrudan da mən, hənif olaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm".*
>
> **(Ənam surəsi, 76-79)**

Yuxarıdakı ayələrdə hz. İbrahimin ağıl yoluyla Allahı necə tapdığı görülür. Vicdanı ilə, ətrafında gördüyü hər şeyin ancaq yaradılmış varlıq olduqlarını, Yaradanın isə onlardan çox daha üstün varlıq olduğunu anlamışdır. Vicdanına üz tutan hər kəs, ona izah edən biri olmasa belə bu həqiqəti görə biləcəkdir. Ehtiraslarını, hərisliyini qarışdırmadan səmimi olaraq, yalnız vicdanından istifadə edərək düşünən hər kəs Allahın açıq-aşkar varlığını və Ucalığını qavraya bilər.

## Vicdanları Allahı bildiyi halda inkar edənlərə zəmanəmizdən nümunə: Təkamülçülər

Bir insan həqiqətlər açıq-aşkar qarşısındaykən, bu həqiqətləri görmək istəməzsə, hətta bu həqiqətləri yoxmuş kimi davranmağa çalışarsa, bu insan, zəkasına baxmayaraq pis vəziyyətə düşəcək. Vicdanında doğrunu bilən adamın bunu qəbul etməməsinin səbəbi, ümumiyyətlə bu həqiqətin maraqlarına zidd düşməsidir. Çünki insanın Allahın varlığını qəbul etməsi, özündən çox üstün, itaət etməli olduğu, möhtac olduğu, məsul olduğu varlığı qəbul etməsi deməkdir çünki.

Vicdanın bağlı olmasının, zəkaya və biliyə baxmayaraq insanı necə vəziyyətlərə sala biləcəyinə dair yaxın zamanımızdan hər kəsin tanıdığı nümunə verək: Francis Crick, 1950-ci illərdə DNT-nin quruluşunu kəşf edən iki elm adamından biridir. Bu, şübhəsiz ki, elm tarixi üçün çox əhəmiyyətli ixtiradır; çox uzun tədqiqatlar, böyük bilik təcrübəsi və

təbii zəka tələb edirdi. Necə ki, bu "alim" apardığı tədqiqatlardan ötrü Nobel mükafatı qazanmışdı.

Francis Crick, hüceyrə ilə əlaqədar işləri əsnasında hüceyrənin quruluşuna, içindəki gizli plana heyran qalmışdır. Qatı təkamülçü olmasına baxmayaraq, DNT-nin möcüzəvi quruluşuna şahid olduqdan sonra yazdığı əsərində elmi həqiqəti belə ifadə etmişdir: "Bu gün sahib olduğumuz məlumatlar əsasında, dürüst adamın edə biləcəyi tək şərh həyatın möcüzə əsəri olaraq ortaya çıxmasıdır."

Təkamülə və bu səbəbdən həyatın təsadüflər nəticəsində meydana gəldiyinə inanan Crick, hüceyrədəki təfərrüatları görüncə yuxarıdakı sözləri söyləmiş və hüceyrənin var olmasının təsadüflərlə mümkün olmadığını, bunun ancaq möcüzə ola biləcəyini ifadə etmişdir. Halbuki təkamülçülər təsadüfdən başqa şərhə inanmazlar, çünki bu onların Allahın varlığını qəbul etmələrini tələb edir.

Hüceyrədəki mükəmməlliyi və qüsursuzluğu yaxından görmək Crickə o qədər təsir etmişdir ki, ideologiyasına zidd olmasına baxmayaraq bunu etiraf etmək məcburiyyətində qalmışdır. Ancaq Crick, vicdanına uzun müddət tabe olmamış və Allahın varlığını qəbul edə bilməyəcəyini, bu səbəblə üstün ağıl tələb edən və təsadüflərlə açıqlana bilməyən bu prosesi Allahın deyil "yadplanetlilərin" yaratdığını iddia etmişdir. Yəni Crickə görə həyatı yaradan Allah deyil, yadplanetlilərdir. Yadplanetlilər dünyaya ilk DNT-ni gətirərək həyatı başlatmışlar! Məhz vicdanı həbs etmək, təzyiq altına alaraq səsini kəsmək, hər nə qədər ağıllı və ya mədəni də olsa adamı bu vəziyyətə gətirir. Bu Nobel mükafatlı "elm adamı", bu qədər üstün quruluşu meydana gətirə biləcək yadplanetlinin necə yaradıldığını belə düşünə bilməyəcək qədər dayaz düşüncəyə malikdir.

Allahın varlığının dəlilləri hər kəs üçün çox açıq və görülə biləndir. Bütün kainata hakim olan nizamın Yaradıcısının Allah olduğu çox açıq həqiqətdir. Allahın varlığını inkar edənlərin bir qismi, həqiqətən iman gətirmədikləri üçün deyil, bəzi dünyəvi mənfəətlər səbəbiylə Allahı inkar edirlər. Vicdanında hər kəs Allahın varlığını, sonsuz gücünü bilir. Ancaq Allah var deyən və Allahın gücünü gərəyi kimi qavrayan insan, Ona qarşı məsul olacağını, Onun əmrlərinə tabe olmalı olduğunu və Onun üçün yaşamalı olduğunu da bilir. Bütün bunları bilməsinə baxmayaraq inkarı seçən kimsə isə, bu böyük həqiqəti qəbul etmək maraqlarına və içindəki təkəbbür hissinə uyğun olmadığı üçün inkar edər.

Quranda bu vəziyyətdəki insanların tərifi, Nəml surəsində belə keçir:

*Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!*

**(Nəml surəsi, 14)**

Quranda İbrahim Peyğəmbər ilə qövmü arasında keçən hadisələr bu mövzuda əhəmiyyətli nümunədir. hz. İbrahimin qövmü bütlərə tapınır. Burada xatırladılmalı olan əhəmiyyətli nöqtə var: Quranda "bütlər", insanların Allahdan başqa qəbul etdikləri hər cür güc üçün təmsili olaraq istifadə edilən anlayışdır. Bunun üçün yalnız heykəldən bütlərə tapan toplulluqları düşünmək səhv olar. Məsələn, təkamülçülərin etdiyi kimi atomları, zamanı və təsadüfləri həyatı təşkil edən güclər olaraq görmək, atomları, zamanı və təsadüfləri ilah etmək deməkdir. Halbuki nə zaman, nə də təsadüflər həyatı yaratmağa qadir deyillər. Ancaq və ancaq Allah belə gücə sahib ola bilər. Bəhsi keçən hekayədə izah edildiyinə görə, hz. İbrahim qövmünə, ibadət etdikləri bütlərin heç bir şeyə güc yetirə bilməyən varlıqlar olduqlarını göstərmək üçün heykəlləri qırmışdır. Quranda bu hadisə belə bildirilir:

*"İbrahim demişdi: "Xeyr, sizin Rəbbiniz, yaratdığı göylərin də, yerin də Rəbbidir. Mən də buna şahidlik edənlərdənəm. Allaha and olsun ki, siz geriyə dönüb getdikdən sonra bütlərinizə bir kələk gələcəyəm!" Nəhayət İbrahim bütləri sındırıb qırıq-qırıq edərək yalnız onların ən irisini saxladı ki, bəlkə, ona müraciət edələr. Onlar dedilər: "Məbudlarımızı kim bu kökə salıb? Şübhəsiz ki, o, zalımlardandır!" Bəziləri: "İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik" – dedilər. Digərləri də: "Onu camaatın gözü qabağına gətirin ki, şahidlik etsinlər" – dedilər. Onlar dedilər: "Məbudlarımızı sənmi bu kökə saldın, ey İbrahim?" İbrahim dedi: "Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun"*

**(Ənbiya surəsi, 56-63)**

Tapındıqları bütlərinin özlərinə cavab verə bilməyəcəyini, nəinki hər hansı şeyi yaratmağı, özlərini belə müdafiə etməkdən aciz heykəllər olduğunu bilən inkar edənlər vicdanlarında doğrunu görürlər:

> *Onlar öz-özlərinə müraciətlə: "Həqiqətən də, siz zalımlarsınız" – dedilər*
>
> **(Ənbiya surəsi, 64)**

Ancaq vicdanlarına tabe olmaları uzun çəkməz. Daha əvvəl də ifadə edildiyi kimi təkəbbür və zülmləri səbəbiylə vicdanla gördükləri həqiqəti inkar edərlər:

> *Sonra yenə öz bildikləri batil əqidələrinə qayıdıb dedilər: "Axı sən bilirsən ki, bunlar danışmırlar". İbrahim dedi: "Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən bütlərəmi tapınırsınız? Tfu sizə də, Allahdan başqa tapındıqlarınıza da! Doğurdandamı, siz dərk etmirsiniz?"*
>
> **(Ənbiya surəsi, 65-67)**

Vicdanlarının ortaya çıxarılması inkar edənləri dəhşətə salar və vicdanlarının qəbul etdiyinə bütün gücləriylə dirənərlər. Həqiqəti qəbul etməmək üçün, həqiqəti özlərinə açıqlayan şəxslərə qarşı şiddətli nifrət bəsləyir, azğın inanclarını qurtarmaq üçün elçiləri öldürməyi belə gözə alırlar:

> *Onlar dedilər: "Əgər ondan əvəz çıxmaq istəyirsinizsə, onu yandırın ki, məbudlarınıza kömək edəsiniz".*
>
> **(Ənbiya surəsi, 68)**

Bu vəziyyət yalnız müəyyən təbəqə üçün deyil, cəmiyyət içində bir çox nəfər üçün keçərlidir. Bir insan hörmətli alim ola bilər, çox mədəni, çox zəngin və ya çox ağıllı ola bilər. Hətta zəkasıyla bir çox şey meydana gətirə bilər, ixtiralar edə bilər. Çox müvəffəqiyyətli iş adamı və ya sənətçi ola bilər. Ancaq bu insan bütün bunları edərkən, vicdanından istifadə edərək, özünü yaradan Allahı düşünüb, Onun gücünü və sənətini tərifləyəcəyi, Onun özünə bunları görmə, anlama imkanı verdiyi üçün Ona şükür edəcəyi yerdə, zəkası və kəşfləri ilə, qazandığı pul ilə öyünüb qürurlanar. Və bu etdiklərinin heç birinin öldükdən sonra özünə fayda verməyəcəyini də düşünməz.

Halbuki unutmamalıdır ki, keçmişdə yaşamış, öz dövründə bir çox əhəmiyyətli ixtiralar etmiş, böyük dövlətləri idarə etmiş və ya dünyanın ən zəngini olmuş kəslərin çoxunun

adı belə hal-hazırda bilinmir. Adları bilinsə belə ölmüş biri üçün, bunun mənası yoxdur. O insanlar, Allahın gücünü unutduqları üçün öldükdən sonra, dünyada etdikləri işlər özlərinə heç bir fayda verməyəcək. Belə kəslər özlərinə Allahın verdiyi məlumatla, nemətlərlə Allaha tərəf dönəcəkləri yerinə bunlarla doğru yoldan azanlardır. Bu, onların ürəklərinin möhürlü olmasından, yəni vicdanlarını bağlamalarından qaynaqlanır. Allah Quranda öz mənfəət və ehtiraslarına uyan və sahib olduqları xüsusiyyətlər səbəbiylə azan bu kəsləri belə bildirmişdir:

> *Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız? Onlar dedilər: "Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır". Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar.*
>
> **(Casiyə surəsi, 23-24)**

Ayələrdə də görüldüyü kimi, vicdanından uzaqlaşıb nəfslərinə uyan və sahib olduqları xüsusiyyətlər səbəbiylə azan bu kəslər "karlar və korlar" olaraq adlandırılmışlar. Qəlblərinin möhürlü olması, anlayışlarının olmadığını, yəni ağıllarından istifadə edə bilmədiklərini, doğrunu səhvdən ayıra bilmədiklərini bildirir. Içinə düşdükləri bu vəziyyətin tək səbəbi isə, vicdanlarından istifadə etməmələridir.

16 FƏSİL

# Vicdan və Quran



Bu hissəyə qədər, vicdan sahibi insanın özünə heç bir şey öyrədilməsə də Allahın varlığını necə tapa biləcəyindən bəhs etdik. Vicdanı ilə Yaradıcının olduğunu anlayan insan yenə vicdanından istifadə edərək düşünməyə davam edərsə bu nəticəyə gələcək: Allah bu qədər qüsursuz kainat yaradır və insana da bunu anlayacaq şüur verirsə, yaratdığı insanı özbaşına buraxmayacaq. Mütləq yaratdığı bu ağıllı varlıqlarla əlaqə qurmuş, özünü tanıtmış olmalıdır. Bundan da başqa hər şeyi yaradan Allah, bunları mütləq bir məqsəd üçün yaratmışdır və bu məqsədini də onlara bildirmişdir.

Vicdanından istifadə edən adam, özünü və bütün kainatı yaradan Allahı tanımaq üçün böyük istək duyar. Hətta həyatının tək məqsədi bu olar. Özünü yoxdan var edən, "heç" və ya "heçlik" ikən ona həyat verən Allaha möhtac olduğunu, bütün gücün Onun olduğunu başa düşər.

Həmçinin Allahın hər şeyi bir məqsəd üçün yaratdığını fərq edər. Hər şeyin bir vəzifəsi vardır. Səma planeti qoruyan tavan kimidir. Hüceyrələr canlılığı meydana gətirmək üçün yaradılmışlar. Yağış bütün dünyaya bərəkət gətirir. Günəş bütün dünyanın istilik və işıq qaynağıdır. Hətta o qədər əhəmiyyətli bir məqsədlə yaradılmışdır ki, o olmasa həyat olmaz. Qısacası insan, burada saydığımız və saymadığımız hər şeyin xüsusi bir məqsədlə var edildiyini görə bilər. O zaman "mənim yaradılış məqsədim nədir?" deyə öz-özündən soruşar. Bundan əlavə, "belə mükəmməl, qüsursuz planlanmış dünyada yaradılıb, qısa müddət sonra öləcəksən, mütləq burada mövcud olma məqsədim olmalı, bu qədər qısa ömür üçün bu qədər təfərrüatın bir mənası olmalı" deyə düşünər. Və bu suallarına cavab axtarar.

Allahı tanımaq, Onun özündən nələr istədiyini, yaratmasındakı məqsədi öyrənmək üçün insanlardan duyduğu məlumatlarla kifayətlənməz. İnsanların verdiyi məlumatların yetərli olmayacağını və ya səhv ola biləcəyini vicdanı ilə anlayar. Hər şeydən əvvəl hər kəsin söylədiyi bir-biriylə əsassızdır, ziddiyyətlərlə doludur. Allaha yaxınlaşmaq üçün ən etibarlı mənbənin Allahın vəhy etdiyi kitab olduğunu düşünər. Bunun nəticəsində isə Allahın ən son göndərdiyi və qorunmuş kitabı olan Quranı özünə rəhbər edər.

## Quranı “tərk edilmiş kitab”

## sayanlar vicdanlarına tabe olmayanlardır

Yuxarıda da bəhs etdiyimiz kimi, vicdanından istifadə edən biri asanlıqla özünə Quranı rəhbər etməli olduğunu anlayacaq. Ancaq ətrafınızdakı insanların əksəriyyətinə baxın. Neçə adam Quranla maraqlanıb oxumuşdur?

Belə düşünmək lazımdır: Allah insanlara kitab göndərir və insanlara bu kitabdan məsul olduqlarını, öldükdən sonra bu kitabın içində yazılanlara əməl edib-etmədiklərinə görə hesaba çəkiləcəklərini və nəticəyə görə cənnətə və ya cəhənnəmə girəcəklərini bildirir. İnsanlar bu həqiqəti vicdanlarına üz tutaraq anlamasalar belə birindən eşidər və bunu hər kəs bilər. Amma buna baxmayaraq Quranı oxumurlar. Məsul olduqları kitabın içində nələr yazdığı ilə belə maraqlanmırlar.

O zaman belə nümunə verək: Bir adama iş yerindən və ya məktəbindən məktub gəlsə və üzərində içində yazılanların karyerası və ya təhsili baxımından çox əhəmiyyətli olduğunu yazsa ... Və bu məktubu oxuyub ertəsi günə qədər içində yazılanları əskiksiz olaraq etməsi bildirilsə, bu məktubu nə edər? Heç içinə baxmadan divaramı asar, siyirtməsindəmi saxlayar və ya oxuduqdan sonra kənara qoyub içində yazılanları görməzlikdənmi gələr? Yoxsa bu xəbər və məktub özünə çatar-çatmaz böyük həyəcan və diqqətlə hər sətirini oxuyar, hər yazılanı anında əskiksiz olaraq tətbiqmi edər?

Ağılı və sağlam düşüncəsi bu mesajı oxumasını söyləyəcək. Quran da insanın dünya həyatında alacağı ən əhəmiyyətli mesajdır; insana birbaşa onu Yaradandan gələn haqq sözdür. Ancaq insanların böyük əksəriyyəti içlərində olduqları qəflətdən ötrü bu qədər əhəmiyyətli kitabı, Allahın insanlara mesajını açıb oxumazlar belə.

Necə ki, Quranda insanların Allahın endirdiyi kitabı tərk etdikləri bu ayələrlə bildirilir:

> *Peyğəmbər: “Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!” – deyəcək.*
>
> **(Furqan surəsi, 30)**

> *Onlara Allah tərəfindən özlərində olanı təsdiqləyən bir elçi gəldikdə Kitab verilənlərdən bir dəstə guya həqiqəti bilmirmiş kimi Allahın Kitabına arxa çevirdilər.*
>
> **(Bəqərə surəsi, 101)**

Yuxarıdakı ayədə, “guya bilmirmiş kimi” ifadəsi istifadə edilərək, insanların bildikləri halda Allahın Kitabını görməzlikdən gəldikləri vurğulanır. Hər kəs vicdanında Quranı oxumalı və tətbiqi etməli olduğunu bilir, ancaq əksəriyyət bu həqiqəti görməzlikdən gəlir. Bu isə insanların vicdanlarına tabe olmamalarından qaynaqlanır.

FƏSİL 07

# Vicdan və Quran insana həyatının həqiqi məqsədini göstərir



Əvvəlki hissədə də ifadə etdiyimiz kimi, vicdanı ilə düşünən insan həyatının məqsədini maraqlanaraq edəcək və cavabını araşdırarkən Allahın vəhyi olan Qurana yönələcəkdir. Quranı əlinə alan biri üçün çox əhəmiyyətli nöqtə vardır: Quranı oxuyarkən də vicdanın daim oyanıq olması, hər ayənin böyük səmimiyyətlə oxunaraq həyata keçirilməsi və yaşanması lazımdır.

Quranı oxuyan adam əvvəlcə yaradılış məqsədinə də cavab tapacaq. Bu məqsəd Quranda belə bildirilir:

> *Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm. Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir..*
>
> **(Zəriyət surəsi, 56-58)**

İnsanın dünya üzərində keçirəcəyi həyatın məqsədi isə, Allahı razı edəcək yaxşı və gözəl davranışlar etməkdir. Və Allah, insanı bu məqsədlə sınayır:

> *Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır.*
>
> **(Mülk surəsi, 2)**

> *Biz yer üzündə olan bütün şeyləri ona bəzək etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək.*
>
> **(Kəhf surəsi, 7)**

**İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik. Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun. (İnsan surəsi, 2-3)**

Bu ayələri görən insan, Allahın həyatı insanları sınamaq üçün yaratdığını anlayar. Dərhal o günə qədərki həyatını və ətrafındakı digər insanların yaşadıqları həyatı gözündə canlandırar. Ətrafındakı insanların çoxu dünya həyatına istiqamətli qaçış və səy içərisindədir; çox təfərrüatlı planları var, amma bu planların hamısı dünya üçündür; gedəcəyi məktəb, sahib olacağı peşə, evliliyi, uşaq sahibi olması, necə evdə oturacağı, hansı marka avtomobil alacağı, maaşına nə zaman, nə qədər artım gələcəyi, yeni ili harada keçirəcəyi, doğum günündə nə hədiyyə alacağı, pensiya zamanı, gedəcəyi tətil və s. Hər kəsin ağlında həmişə bu növdə planlar və hədəflər var. Amma maraqlıdır ki, kimsə dünyada mövcudluğunun əsl məqsədini düşünmür. Vicdanlı insan bunlara şahid olduğunda, Allah insanlara əsl məqsədlərini bildirmişkən onların bunu görməzlikdən gəlmələrinin böyük qəflət olduğunu düşünər.

İnsanı yaradan, ona can verən və onu yaşatmağa davam edən Allahdır. Və Allah insanın yaradılış məqsədini çox açıq şəkildə bildirmişdir: “Allaha qul olmaq”. İnsanı xoşbəxt edəcək olan tək şey də, yaradılış məqsədinə uyğun olaraq Allaha boyun əymək, hər şeyini Ona həsr edib yalnız Allahın razılığını qazanmaqdır. Amma insanlar bu həqiqəti heç bilmirmiş və sanki bu dünyaya yalnız bu dünya həyatını yaşamağa gəlmiş kimi, həyatlarını böyük qəflət və ehtirasla davam etdirirlər. Vicdanıyla düşünən insan isə, insanların böyük əksəriyyətinin bu əhəmiyyətli həqiqətə qarşı təhlükəli laqeydlik yaşadığını görər. Beləcə ətrafındakıların özü üçün meyar ola bilməyəcəyini, “amma insanların əksəriyyəti belə edir” deyərək insanlara uymasının Allahın Kitabına uymasını əngəlləyəcəyini qavrayar və özünə rəhbər olaraq Quranı təyin edər. (Bax. “İnsanların əksəriyyəti belə edir” məntiqi hissəsi)

FƏSİL 18

# Vicdan və Quran axirətə qəti olaraq iman etməyi əmr edər



İndiyə qədər bəhs etdiyimiz bütün mərhələlərdən sonra, dünyaya gəliş məqsədinin sınanmaq olduğunu anlayan insan belə düşünəcək: "Elə isə ölüm son deyil. Əgər imtahan varsa, bu imtahanın nəticəsi də var. Amma dünya həyatında elə nəticələndirmə yoxdur. Yer üzündə gəlib keçmiş bütün insanların arasında zalımlar, əxlaqsızlar, qatillər var idi. Bunların yanında, Allahın elçiləri kimi çox yüksək vicdana və əxlaqa sahib, həyatını Allah üçün yaşamağa həsr etmiş insanlar da var idi. Eyni zamanda zalımların zülmündən zərər görən yazıq və zəif buraxılmış insanlar var idi və bu insanlar hələ də var. Keçmişdəkilərin hər biri öldü; yaxşı olan da, pis olan da eyni şəkildə öldülər və eyni şəkildə torpağın altına basdırıldılar. Bu gün onların sümük qalıqlarından başqa heç bir şey yoxdur. Sonsuz ədalət sahibi Allah dünya hayatını bu cür nəticələndirib buraxmaz."

Qısacası vicdanı ona, Allahın sonsuz vicdanının hər kəsə hər etdiyinin qarşılığını əksiksiz olaraq verəcəyini söyləyəcək. Bu hesablaşma dünyada tam mənasıyla olmadığına görə, demək ki, bunun təxirə salındığı yer vardır.

Vicdanıyla bunları düşünən insan, Quranda bunun da cavabını tapacaq. Allah Quranda bu hesablaşmanı ölümdən sonrakı zamana təxirə saldığını və hər kəsin dünya həyatında etdiklərinin qarşılığını öldükdən sonra əksiksiz olaraq alacağını bildirir:

> *Hamınızın dönüşü Onadır. Bu, Allahın haqq olan vədidir. O, məxluqu ilk dəfə yaradır, sonra onu Qiyamət günü yenidən dirildir ki, saleh əməllər edənləri ədalətlə mükafatlandırsın. Kafirlərə gəlincə, küfr etdiklərinə görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır..*
>
> **(Yunis surəsi, 4)**

> *Şübhəsiz ki, Rəbbin onların hər birinə əməllərinin əvəzini tam verəcəkdir. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır.*
>
> **(Hud surəsi, 111)**

Vicdanıyla Qurana üz tutan kəs, insanların heç birinin zənn etdikləri kimi özbaşına olmadıqlarını, hər etdiklərini Allahın bildiyini və hər yaxşılığın və pisliyin qarşılığının görüləcəyini başa düşər. Allah, Quranda hesab gününü və hər kəsin hesabı görüldükdən sonrakı həqiqi həyatlarını da bildirir.

Bu nöqtədə, vicdanından istifadə edən adam Quran ayələrinin istiqamətində çox əhəmiyyətli həqiqətin daha fərqinə varar. Dünya həyatı keçici sınaq məkanıdır, əsl həyat isə ölümdən sonra başlayan axirət, yəni cənnət və cəhənnəmdir. Hər kəs dünya həyatındakı rəftarına görə ölümündən sonra Allahın təyin etdiyi gündə hesaba çəkiləcək və dünya həyatını Allahın istədiyi şəkildə yaşayanlar sonsuza qədər insan üçün ola biləcək ən gözəl həyat yaşayacaqlar. Digərləri isə, yenə sonsuza qədər ən şiddətli əzab və sıxıntıların olduğu həyatı Allahın yaratdığı cəhənnəmdə yaşayacaqlar.

## Ölüm mələklərinin və cəhənnəm atəşinin görüldüyü andakı vicdan həqiqi vicdandır

Burada izah edilənlərin çox diqqətli və fikiri toplayaraq oxunmasını tövsiyə edirik. Çünki burada izah ediləcək olanlar, məlumat çatdırmaqdan çox insanın bəlkə də ilk dəfə olaraq vicdanını necə hərəkətə keçirə biləcəyini, əsl vicdanın nə olduğunu anlamasını təmin edəcək düşüncə üsulları və həqiqətlərdir.

Yuxarıda danışdığımız kimi, əsl həyatın ölümdən sonra başlayacağı və hər kəsin bu sonsuz həyatında dünyadakı rəftarına görə ortamla qarşılaşacağı Quranda xəbər verilən həqiqətdir. Lakin fayda verməyəcək işlərlə məşğul olub vaxtlarını keçirənlər, şablon yaşanan, düşünülməyən həyatın içində vicdanın səsinə əməl etmək, insanların maraqlarına uygun olmaz. Hər kəs dünya həyatı üçün özünə mənfəət təmin edəcək planların arxasındadır. Bu planların içində ölüm və sonrası heç yoxdur. Halbuki ölüm bu planlaşdırılan hadisələrin hər birindən çox daha qəti həqiqətdir. Amma insanlar ölümü heç hesaba almazlar. Sanki heç ölməyəcəkmiş kimi həyat sürməyə çalışarlar.

Bəs insanların çox böyük hissəsinin bu əhəmiyyətli həqiqəti görməzlikdən gələrək yaşamalarının səbəbi nədir?

Bunun cavabını belə verə bilərik: Hər kəs düşünsün; ölümü həyatı boyunca neçə dəfə düşündü? Heç bir gün öləcəyini, bədəninin torpağın altına gömüləcəyini, üzərinə torpaq atan yaxınlarının, sevdiklərinin onu torpağa gömdükdən sonra məzarının başından ayrılıb gündəlik işlərinə davam edəcəklərini, sahib olduğu hər şeyin ölümüylə birlikdə onun üçün yox olacağını düşündümü? Ölümün necə reallaşdığını heç ağlında canlandırdımı? Bədəni torpağın altında çürüyəcək, amma ruhu nələr yaşayacaq?

İnsan ruha sahibdir və ruh yox olmaz. İnsan öldükdən sonra ruhu üçün yeni həyat başlayacaq, ancaq onu necə həyatın gözlədiyini görəsən heç düşündümü? İnsanların böyük əksəriyyəti kimi özü də bunları bəlkə heç düşünməmiş ola bilər. Çünki bunları düşünmək insanları dəhşətə salır. Mümkün qədər bu həqiqətlərdən qaçmağa çalışırlar. Mövzusu açıldığında dərhal mövzunu bağlayarlar; hətta bir neçə klassik zarafat ilə üzərlərindəki təsirini dağıtmağa çalışarlar.

Yaxşı, bəs niyə insanların demək olar ki, hamısı bir gün qarşılaşacağı qəti olan bu həqiqətdən bu qədər şiddətlə qaçmağa çalışır? Düşünməmək bu hadisənin reallaşmasını əngəlləyə bilərmi?

Əlbəttə ki, yox. İnsanların ölümü və axirəti düşünməkdən bu qədər qaçmalarının səbəbi budur: Ölümü və axirəti düşünmək insanın vicdanını hərəkətə keçirər və Allaha qarşı məsul olduğunu, ölümlə birlikdə etdiklərinin hesabını verəcəyini xatırladar. Bu vəziyyətdə, o ana qədər edilən hər şey əhəmiyyətini itirər. İnsan özü üçün əsl əhəmiyyətli olan mövzuların fərqinə varar. Bir gün öləcəyini düşündüyündə, bu günə qədər dünya həyatında etdiyi şeylərin nə əhəmiyyəti qalar ki? Bəlkə ilk anda bunu tam olaraq qavraması çətin ola bilər, ancaq ölümün başına gələcəyi anı ətraflı düşünmək insana bütün həqiqətləri görməsi üçün yardımçı olacaq.

Bu vəziyyəti öz üzərinizdə də düşünün: Hər şeydən əvvəl, ölüm sizə heç gözləmədiyiniz bir anda gələcək. Yəni böyük ehtimalla heç hazırlıq etmə imkanınız olmayacaq. O anın hal-hazırda olmaması üçün də heç bir səbəb yoxdur. Buna bənzər anınızda birdən ölümlə qarşılaşacaqsınız.

Ölümün necə reallaşdığını indiyə qədər heç görməmişsiniz. Sizin indiyə qədər gördükləriniz, insanların bədənlərinin ölümüydü, amma bir də ölüm zamanı ruhun yaşadıqları vardır. İnsan, öz ölümü xaricində, ölümün bu üzünə qətiyyən şahid ola bilməz. Bəli, insanlar yalnız bədənin ölümünü görürlər. Bir insan öldüyü anda, xəstə

yatağında hüzur içində can vermiş kimi görünə bilər və ya döyüşdə güllələnərək, yaxud yol qəzasında can verərək ölmüş kimi də görünə bilər. Ancaq ruhunun ölümü, daha doğrusu ruhun ölüm əsnasında yaşadıqları, kənardan görünəndən çox fərqlidir.

Ölən əgər mömin adamdırsa, onun ruhu yumşaq şəkildə çəkilib alınar və iki mələklə birlikdə sonsuz gözəl həyatına başlamaqla müjdələnər. Bu adam nə qorxar, nə də kədərə qapılar. O artıq sonsuza qədər xoşbəxtlik və hüzur içində yaşayacağının təsvir edilə bilməz sevincini yaşayar. Bu həqiqət Quranda belə bildirilmişdir:

> *O kəslər ki, tər-təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!"*
>
> **(Nəhl surəsi, 32)**

> *Ən böyük dəhşət onları kədərləndirməyəcək. Mələklər onları qarşılayıb: "Bu sizə vəd olunmuş gününüzdür!" – deyəcəklər.*
>
> **(Ənbiya surəsi, 103)**

Dünya həyatını Allahın razılığına görə yaşamamış biri üçün isə bədəni necə ölürsə ölsün, ruhunun yaşadıqları əzab dolu həyatının başlanğıcı xüsusiyyətində olacaq. Allah bu insanlara qarşılaşacaqları çətin günü belə xatırladır:

> *Bəs mələklər onların üzlərinə və arxalarına vura-vura canlarını alanda halları necə olacaq?*
>
> **(Məhəmməd surəsi, 27)**

Məhz bu səbəblərlə ölüm anını insanın zehnində canlandırması, yüz faiz səmimi və vicdanlı davranmasına səbəb olacaq. Qəti olaraq yaşayacağınız bu böyük hadisəni diqqətli düşünün: Məsələn, avtomobil sürərkən və ya hər zaman etdiyiniz işlərdən birini edərkən, bir anda qarşınızdakı görüntü dəyişə bilər və iki ölüm mələyi ilə qarşılaşa bilərsiniz.

Ölüm mələkləri dünya həyatında Allahın razılığına görə yaşamamış, ölümü və axirəti unutmuş şəxslərə çox qorxunc üzlə görünə bilərlər. (Ən doğrusunu Allah bilir) Quranda

izah edildiyinə görə əllərini canını almağa gəldikləri adama doğru uzadıb onu özlərinə çəkərək alçaldıcı, sonsuz və geri dönüşü olmayan əzabı bildirirlər. Bu əsnada, yuxarıdakı ayədə bildirildiyi kimi insanın üzünə və küräyinə vuraraq canını alarlar. Ruhun bədəndən çıxarılması böyük ağrıya səbəb olur. Və o anda insan nələr olacağını başa düşür. Qiyamət surəsində bu hadisə belə təsvir edilir:

> *O gün neçə-neçə üzlər də tutulub qaralacaq, və yəqin edəcək ki, onlara müsibət artıq üz vermişdir. Xeyr, o ruh körpücük sümüklərinə yetişəcəyi zaman; "Ovsunu kim oxuyacaq?" – deyiləcəkdir. Can verən adam dünya həyatından ayrıldığını yəqin edəcəyi, və ayaq ayağa dolaşacağı zaman – o gün hər kəs Rəbbinin hüzuruna gətiriləcəkdir. O kafir nə Quranı təsdiq etdi, nə də namaz qıldı. Haqqı da yalan saydı və üz döndərdi*
>
> **(Qiyamət surəsi, 24-32)**

Ölüm anını siz də mütləq yaşayacaqsınız. Ölüm anınızın bu an olduğunu düşünün. Sizin üçün nələr əhəmiyyət qazanar, nələrin heç bir mənası qalmazdı? Nələri etmiş olmaqdan və ya etməmiş olmaqdan ötrü peşmanlıq hiss edərdiniz? Kimlərin sözünü dinləmiş olmağı arzulayardınız? Ya da kiminlə heç tanış olmamış olmağı istəyərdiniz? Məsələn, işinizlə əlaqədar təfərrüatlar sizi nə qədər maraqlandırardı? Və ya dəvətə gedərkən geyəcəyiniz paltarın, insanların sizin zərifliyinizə, ya da gözəlliyinizlə əlaqədar düşüncələrinin axirət həqiqəti yanında nə əhəmiyyəti qala bilərdi?

Bu suallara səmimi cavab verən kəslər vicdanlarının nə dediyini ortaya çıxara bilərlər. Əgər insan həyatı boyunca Allahın razılığını hədəfləmədisə və Allahın razılığını qazanmaq üçün var gücüylə çalışmadısa, ölüm anında duyduğu qorxunun yanında yaşayacağı ən böyük hiss, düzəlişi mümkün olmayan peşmanlıq olacaqdır. İnsanın ağlından həmişə "kaş bu adamı dinləməsəydim, kaş ki, namaz qılsaydım, kaş ki, Allah üçün yaşasaydım" kimi "kaş ki" lər və peşmanlıq ifadələri keçəcək.

Bu vaxt ölüm anının təsirinin şiddəti daha da artacaq, çünki bu iki mələk insanı sürüyərək, alçaldaraq cəhənnəmə doğru apararlar. Cəhənnəmə girmədən əvvəl hər kəs bir-bir sorğu-sual olunur və hər kəs niyə cəhənnəmə girdiyini bir daha görür. Bu, insana şiddətli sıxıntı, dəhşət və qorxu yaşadar. Çünki həyatı boyunca etdiyi və düşündüyü hər şey özünə bir-bir göstərilir. Kimsənin bilmədiyini zənn etdiyi düşüncələri, özünün belə unutduğu bir çox hadisə o gün qarşısına çıxar:

> *O gün insanlar əməllərinin onlara göstərilməsi üçün dəstə-dəstə gələcəklər. Zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır. Zərrə qədər pislik edən də əvəzini alacaqdır.*
>
> **(Zəlzələ surəsi, 6-8)**

Bütün dünya həyatınız bu şəkildə qarşınıza çıxarıldığında nələrin sizə peşmanlıq yaşadacağını düşünün. Nələr üçün "kaş ki, etməsəydim" və ya "kaş ki, etsəydim" deyirsiniz? O günkü gecikmiş peşmanlıq ayədə belə bildirilir:

> *O gün, gerçək bir gündür. Kim istəsə öz Rəbbi yanında sığınacaq tapar! Həqiqətən, Biz sizi yaxın əzab barədə xəbərdar etdik. O gün insan öz əlləri ilə nələr etdiyini görəcək, kafir isə deyəcəkdir: "Kaş mən torpaq olaydım!"*
>
> **(Nəbə surəsi, 39-40)**

Hətta insanlar dünya həyatında etdikləri əməllərə görə öz-özlərinə qarşı böyük qəzəb və nifrət hiss edəcəklər. Ancaq Allahın onlara qarşı duyduğu qəzəb və kin daha böyük olacaq:

> *Kafirlərə belə xitab olunacaq: "Siz imana dəvət olunarkən küfrünüzdə israr etdiyiniz zaman Allahın sizə olan nifrəti indi sizin özünüzə olan nifrətinizdən daha böyük idi".*
>
> **(Mümin surəsi, 10)**

Quranda o günkü peşmanlığın və xatırlamanın fayda verməyəcəyi bildirilir. O an gəldiyində hər şey bitmişdir; keçmişdə edilənləri düzəltmək mümkün deyil. Cəhənnəmin qapıları sonsuza qədər insanın üzərinə bağlanacaqdır:

> *Və o gün Cəhənnəm gətiriləcək. O gün insan günahlarını xatırlayacaqdır. Lakin bu xatırlamanın ona nə faydası? O: "Kaş axirət həyatım üçün əvvəlcədən hazırlıq görəydim!" – deyəcəkdir. O gün heç kəs Allahın verdiyi əzab kimi əzab verə bilməz və heç kəs Onun buxovladığı kimi buxovlaya bilməz*
>
> **(Fəcr surəsi, 23-26)**

İnsanların hamısı, ən azğın olanı belə, ölüm anında və hesab zamanı vicdanının bütün dediklərini açıqlığı ilə görə biləcək, ancaq geri dönüş mümkün olmadığı üçün vicdanına uyaraq vəziyyətini düzəldə bilməyəcəkdir. Bu kitabın məqsədi də, hələ geri dönüş imkanı varkən insanlara vicdanlarını göstərmək və keçmişi düzəldə biləcəkləri və axirətdə peşman olmayacaqları həyata dəvət etməkdir.

Burada izah edilənlər vicdanınızın səsini bütün çılpaqlığı ilə heç bir şey qatmadan nəfsinizdəki digər mənfi səs və təlqinləri qarışdırmadan ortaya çıxara bilmək baxımından çox əhəmiyyətlidir. Çünki daim vicdanına tabe olan biriylə vicdanına tabe olmayan insan arasındakı fərq, vicdanlı insanların Allaha və axirətə olan imanlarının gücüdür. Vicdanlı insan hər an cəhənnəmin yanında hesaba çəkilirmiş kimi davranar. Allah ayəsində bəzi elçilərini nümunə verərək onların daima axirəti xatırladıqlarını belə bildirir:

> *Qüdrət və bəsirət sahibi olan qullarımız İbrahimi, İshaqı və Yəqubu da yada sal! Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik.*
>
> **(Sad surəsi, 45-46)**

FƏSİL 9

# Hər an vicdana tabe olaraq Quran əxlaqını yaşamaq



Allahın və axirətin varlığının fərqini anlayan insanın tək məqsədi Allahı məmnun etmək və sonsuz həyatında cənnətdə yaşaya bilmək olacaq. Vicdanını və ağlını istifadə edən insan üçün bunun xaricində hədəf təyin etmək qeyri-mümkündür. Amma insanların bir qismi dinin, həyatın kiçik bir hissəsini əhatə edən inanc olduğunu zənn edərlər. Onlara görə din müəyyən günlərdə xatırlanar, ibadətlər xaricində də dinlə əlaqədar mövzu yoxdur. Halbuki Quranda insanın ibadətləri ilə birlikdə bütün həyatının da Allah üçün olacağı bildirilir:

> *De ki: "Şübhəsiz ki, mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allaha məxsusdur."*
>
> **(Ənam surəsi, 162)**

Bunun mənası budur; insan hər davranışında, hər çıxışında, hər qərarında, qısacası həyatının hər anında Allahın özündən razı olub-olmayacağını düşünməli, əgər Allahın razı olmayacağına qənaət gətirsə, o rəftardan tamamilə imtina etməlidir.

Əslində hər kəs vicdanına üz tutsa həyatının tək məqsədinin Allah üçün yaşamaq olduğunu anlayacaq. Dünyada yaşadığı həyatdan hesaba çəkiləcək və nəticəsində sonsuz həyatını keçirəcəyi məkan təyin olunacaqinsan üçün başqa variant mümkün deyil. Bundan əlavə, nankor olmayan, düşünən, həqiqətləri dərk etmə qabiliyyətinə sahib hər insan əlbəttə ki, özünü yoxdan var edən, özünə heç ikən həyat verən və sonsuz cənnətdə yaşamaq imkanı verən Rəbbimizi məmnun etməkdən daha əhəmiyyətli bir şey görməz.

Bütün həyatını Allah üçün yaşamağa qərar verən insan, Allahı necə məmnun etmək üçün yenə vicdanına üz tutur. Quranda Allah qadağalarını və əmrlərini bildirmişdir. Hər şeydən əvvəl vicdanından istifadə edən biri bu əmrlərə və qadağalara qəti olaraq əməl edər. Haram və halal, Quranda oxuduğu hər hökmü ən dəqiq şəkliylə tətbiq edər. Quranda bildirilən əxlaq xüsusiyyətlərini özünə nümunə götürər. Bunu edərkən də son

dərəcə səmimidir. Quranda hər yazılanı anlayışının və imkanlarının əlverişli olduğu ölçüdə, əlindən gələnin ən çoxunu yerinə yetirər.

Buna belə nümunə verə bilərik: Quranı oxuyan insan Allahın insanlara bəzi ibadətləri əmr etdiyini görəcək. Bu ibadətlərdən biri də 5 vaxt namazdır:

> *Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin. Artıq "təhlükəsizliyə qovuşsanız" namaz qılın. Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir.*
>
> **(Nisa surəsi, 103)**

Bu ayəni oxuyan insana vicdanı artıq namaz qılmasını əmr edəcəkdir. Hətta hal-hazırda bu kitabı oxuyanlara da namazın fərz olduğu xatırladılmış oldu. İnsan bundan sonra vicdanının və Quranın əmr etdiyini yerinə yetirə bilər və ya hər cür bəhanələrlə Quranın hökmlərini yerinə yetirməkdən boyun qaçıra bilər. Ancaq əsla unutmamalıdır ki, namaz qılmamaq üçün hər nə bəhanə taparsa tapsın, bu bəhanə axirətdə keçərli olmayacaq.

Mömin qadının təyin edici xüsusiyyəti Allahın Quranda əmr etdiyi üzrə geyimində təsəttür ölçülərinə diqqət etməsi və başını örtməsidir. Çünki təsəttür və baş örtüsü Allahın müsəlman qadınlara fərz qıldığı "fərz-i ayn" hökmündə ibadətdir. Müsəlman qadınlar hər dövrdə bu ibadəti böyük bir dəqiqlik və şövqlə tətbiq etmişlər. Örtünməylə əlaqədar ayələrin nazil olunduğu zamandakı mömin qadınlar vicdanlarına uyaraq bu ibadəti dərhal yerinə yetirmişlər:

"Şeybə qızı Safiyə izah edir və deyir ki: Biz hz. Aişənin yanında ikən bir qisim xanımlar qureyşli qadınların vəziyyətini və fəzilətlərini izah etmişdilər. Bundan sonra hz. Aişə buyurdu ki; "Şübhəsiz ki, qureyşli qadınların üstünlüyü vardır. Amma Allaha and içirəm ki, mən Ənsarın qadınlarından daha çox Allahın Kitabını təsdiq edən və Qurana inanan fəzilətli kəslər görmədim. "Nur surəsindəki" baş örtüklərini yaxalarının üstünə qoysunlar "ayə-i kəriməsi nazil olduğunda ərləri onların yanlarına getdilər və özlərinə Allah (c.c)-nin bu mövzuda nazil buyurduğu ayəni oxudular. Hər bir kişi qadınına, qızına, bacısına və yaxınlarına bu ayəni oxuyurdu. İçlərində hər xanım baş örtüsünü yaxası üzərinə qoydu. Allahın endirdiyi kitabındakı hökmünə inandıqlarından və təsdiq etdiklərindən libaslarına büründülər ... "(İbn-i Kesir, Hadislerle Kuran-ı Kerim Tefsiri, cild:11, səh. 5880)

Yenə təsəttürlə əlaqədar ayələr endiyi dövrdə müsəlman qadınların gözəl rəftarlarıyla əlaqədar olaraq bunlar rəvayət edilir:

Hz. Aişə (rədiyallahu ənh)-dən rəvayət edilmişdir: “Baş örtüklərini yaxalarının üstünə qoysunlar” ayəsini nazil edincə mantolarını cıraraq onunla örtünmüşlərdir. “( İbn-i Kesir, Hadislerle Kuran-ı Kerim Tefsiri, cild:11, səh. 5880)

Bir başqa ayədə isə Allah insanlara hər vəziyyətdə və şərtdə ədalətli davranmalarını bildirir:

> *Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! Əgər siz yalan danışsanız və ya həqiqəti deməkdən boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır..*
>
> **(Nisa surəsi, 135)**

Bir insanın maraqlarına zidd olsa belə Allahın əmrlərini dəqiqliklə yerinə yetirməsi, ancaq vicdanının səsini dinləməsiylə mümkün olar. Yuxarıdakı ayədə diqqət çəkilən insanın qarşısına çıxa biləcək vəziyyətləri düşünək. İnsan hər hansı vəziyyətdə ədalətlə şahidlik etdiyində, yaxını günahkar mövqedə qala bilər. Amma ölümdən sonra hesab verəcəyini düşünən biri, belə bir vəziyyətdə dərhal vicdanını dinləyər və Quranın hökmünü yerinə yetirər. Çünki dünyadakı heç bir mənfəət, axirətdəki qazancından daha üstün deyil.

Allah ədalətli davranmaqla əlaqədar olaraq başqa ayədə də belə bildirir:

> *Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.*
>
> **(Maidə surəsi, 8)**

Bir insanın bu ayəni yerinə yetirə bilməsi üçün, ən qəzəbli anda belə hirsini boğub, ədalətli qərar verməsi lazımdır. Qarşısındakı insan heç sevmədiyi, hətta əxlaqından ötrü kin duyduğu, bir çox rəftarıyla və ya sözü ilə onu qəzəbləndirən biri ola bilər. Ancaq hər

kim olursa olsun, hər kəsə qarşı ədalətli olmaq Allahın əmridir. Və hər insan həyatı boyunca Allahın bu əmrinə tabe olmaqla məsuldur.

Başqa nümunə, Allahın insanlara zənn etməyi və dedi-qodudan uzaq olmağı əmr etməsidir:

> *Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir.*
>
> **(Hucurat surəsi, 12)**

Yuxarıdakı ayə ilə Allah insanları bəzi pis əxlaq xüsusiyyətlərindən çəkindirir. Ayədə sayılan üç rəftar da əslində bir-birləriylə əlaqəlidir. Bir insanın arxasından danışan biri, onsuz da onun haqqında bəzi pis zənlər də bəsləyir deməkdir. Eyni şəkildə digərinin gizli istiqamətlərini araşdıran adam yenə müxtəlif zənləri üzərinə belə davranış etmiş olur. Bunlar cəmiyyətdə çox geniş və qəbul görmüş davranışlardır. Ancaq qəti olaraq vicdana ziddir.

Bunun yaxşı meyarı, insanın özünü belə vəziyyətdə düşünməsidir. Heç bir insan özü haqqında dedi-qodu edilməsini, özünün gizli istiqamətlərinin, qüsurlarının araşdırılmasını, ətrafındakıların özüylə əlaqədar səhv və pis zənlərdə olmalarını, bir şeyi etmədiyi halda başqalarının etdiyini düşünmələrini əsla istəməz. Belə vəziyyəti hiss etdiyində böyük haqsızlığa uğradığını düşünəcək, özünü etibarsız, narahat hiss edəcək. Bir insana bunları etmək, onu belə mühitdə yaşatmaq isə əlbəttə ki, vicdansızlıqdır. Bir insanın özünə edilməsini istəmədiyi şeyi başqasına qəti olaraq tətbiq etməməsi onun vicdanının göstəricisidir. Allah bu səbəblə, bu rəftarları "ölü qardaşının ətini yeməyə" bənzətmişdir. Bu, nə qədər diksindiricidirsə, dedi-qodu, zənn və səhvləri axtarmaq kimi rəftarlar da o qədər nifrət vericidir. Həmçinin Allah bu və bənzəri rəftarlar edənləri cəhənnəmlə təhdid edir:

> *Hər bir qeybət edənin, tənə vuranın vay halına!*
>
> **(Hüməzə surəsi, 1)**

*Xeyr! O, mütləq Hutəməyə atılacaqdır. Sən haradan biləsən ki, Hutəmə nədir? Bu, Allahın qaladığı Oddur.*

**(Hüməzə surəsi, 4-6)**

Qısqanclıq, kin, paxıllıq kimi Quran əxlaqına zidd rəftarlar nəticəsində yayılan dedi-qodu, gizli istiqamətləri araşdırma və zənn edərək birini ittiham etmək, hər nə qədər cəmiyyət tərəfindən pis baxılmasa da qətiyyən vicdana uyğun rəftarlar deyil. Allahın belə rəftarlara verəcəyi qarşılıq düşünüldüyündə bir an belə edilməməsi və hətta edən kəslərin əngəllənməsi, Quran əxlaqına ən uyğun davranış forması olacaq.

Quranın və dinin ruhunu və anlayışını qavrayan insanın hər rəftarı və düşüncəsi dinin nəzərdə tutduğu əxlaqa görə müəyyən edilir. Digər ifadə ilə bu əxlaqı yaşayan insan, hər an vicdanlı davranacaq və düşünəcək. Hər şeydən əvvəl ölümü və axirəti heç bir zaman unutmayacaq, unutmadığı üçün hər rəftarı axirətə istiqamətli olacaq. Belə üstün biri axirəti həm özü, həm də dostları üçün düşünəcək; bir tərəfdən öz axirət yurdunu hazırlayarkən, bir tərəfdən də sevdiyi dostarının və ya digər insanların da axirəti üçün əlindən gələni edəcək.

Haqqında bəhs etdiyimiz insanların üzərində, həqiqətin fərqində olmanın gətirdiyi diqqət var. Adi kimi görünən hadisələrdə belə dünyaya istiqamətli deyil, axirətə istiqamətli şərhlər edərlər. Məsələn, çox gözəl və qəşəng geyinmiş yoldaşını gördüyündə, ağlına dərhal onun da bir gün öləcəyi, axirətdə hesab verəcəyi gələr. Allahın, onu qarşısına axirətdə ən gözəl halıyla çıxarması üçün dua edər. Yoldaşını dünyaya bağlayacaq məsləhətlər verməkdən şiddətlə çəkinər. Əksinə ona Allahı, cənnəti və cəhənnəmi xatırladar. Onun dünyada və axirətdəki yaxşılığı və rahatlığı üçün dua edər. Vicdanlı insan yoldaşına sevgisini, onun axirəti üçün səy göstərərək, onu pisliklərdən çəkindirib yaxşılıqları əmr edərək göstərər.

Vicdanına uyan, daim Allahın razılığını axtaran insanın ilk baxışda digər kəslərdən fərqi yoxmuş kimi görünə bilər. O da məktəbə və ya işə gedər, ticarətlə məşğul olar, əylənər. Ancaq hər etdiyində Allahın razılığını axtarar. Bir ayədə Allah belə bildirir:

> *O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.*
>
> **(Nur surəsi, 37)**

“Bir insan, etdiyi adi, gündəlik işlər əsnasında Allahın razılığını necə axtarar, Allahı hər an necə zikr edər?” deyə düşünülə bilər. Əvvəlcə qeyd etmək lazımdır ki, vicdanına əməl edən biri üçün ibadətləri və Allahın əmrləri hər şeydən daha çox vacibdir. Hər an Allahın özünü izlədiyini bilir və bir an belə bunu unutmaz. Etdiyi ticarətdə və alverdə dünyaya istiqamətli maraqlarını deyil, axirətdəki maraqlarını qoruyar. Dürüstlükdə əsla güzəştə getməz, axirətdə hesabını verə bilməyəcəyi, utanacağı heç bir rəftara rəğbət etməz. Bütün qazancını itirəcəyini bilsə belə ölçüdə, çəkidə və ya hesablarında haqsızlıq etməz. Hər mövzuda son dərəcə etibarlı olar. İmkanı olduğu halda borcunu ödəməkdə çətinlik yaratmaz. Və ya özünə borcu olan adam əgər çətinlik içindədirsə, Quranın da tövsiyəsinə uyaraq alacağından imtina edə bilər. Quranda bu mövzu ilə əlaqədar tövsiyə belədir:

> *Əgər borclu olan adam ağır şərait içindədirsə, onun vəziyyəti düzələnə qədər ona möhlət verin. Bilin ki, borcu bağışlamaq sizin üçün daha xeyirlidir.*
>
> **(Bəqərə surəsi, 280)**

Mömin, ruzini və zənginliyi verəcək olan tək gücün Allah olduğunu əsla ağlından çıxarmaz. Əldə etdiyi gəlirlə lovğalanıb azğınlaşmaz, əksinə Allahın hər verdiyi nemətə şükür edər.

Yuxarıda göstərilənlər Qurandan bəzi nümunələrdir. İnsanın gündəlik həyatı əsnasında qarşılaşdığı və Qurandan həll tapa biləcəyi, doğrunu öyrənə biləcəyi daha bir çox hadisə var. Dini yaşamaq istəyən hər insan, vicdanından bu istiqamətdə istifadə edərək Quranı oxumalı və oxuduqlarını yenə vicdanından istifadə edərək tətbiq edər.

## Vicdan, Allahın ən çox məmnun qalacağı rəftarı axtarar

Vicdanlı insan Allahın razılığını axtarmaqda çox diqqətli davranar. Hər zaman “Allahı ən çox necə razı edərəm” deyə düşünər. Heç bir rəftarında başqa insanların razılığını,

onların gözündəki mövqeyini güdməz. Qatqısız olaraq Allaha yönələr.

İnsanlardan bəziləri isə dini, vicdanlarından istifadə edərək deyil, atalarından gördükləri şəkildə ənənə və vərdiş olaraq yaşayarlar. İbadətləri yerinə yetirərlər, əzbərlədikləri bəzi şeyləri tətbiq edər və bunlarla kifayətlənərlər. Halbuki, vicdanı tam olaraq istifadə etmədən din əxlaqını yaşamaq mümkün deyil. Bəhs etdiyimiz insanlar yalnız yaşadıqları ətraf mühitə zidd düşməmək üçün və ya elə alışdıqları üçün "dinə uyğun" görülən həyat şəkli seçmişlər. Bu səbəblə, bu kəslər dində "Allah üçün ən çox nə edərəm" deyil, "ən az nə etsəm insanları dindar olduğuma inandıraram" məntiqindədirlər.

Vicdanlı insan isə hər ibadəti, hər rəftarı ən gözəl şəkliylə necə tətbiq edəcəyini düşünür. Hesab günündə heç bir rəftarının, heç bir sözünün özü üçün risk meydana gətirməsinə icazə verməmək üçün gücünün və ağlının yetdiyindən çoxunu axtarar. Çünki etdiyinin qarşılığını axirətdə alacağını bilir. Necə ki, Allah bu mövzuda insanları xəbərdar edir:

> *Namaz qılın, zəkat verin! Qabaqcadan özünüz üçün nə xeyir hazırlasanız onun əvəzini Allahın yanında tapacaqsanız. Şübhəsiz ki, Allah nə etdiklərinizi görür.*
>
> **(Bəqərə surəsi, 110)**

Bir insanın etdiyi hər işdə ən gözəlini, edə biləcəyinin ən çoxunu axtarmasına Quranda nümunə, möminlər arasında "sözün ən gözəli" dən istifadə edilməsi əmridir:

**Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. (İsra surəsi, 53)**

Allahın bu əmrini bilən biri sözün ən gözəlini vicdanına üz tutaraq tapacaq. Danışıqlarında "nə olursa olsun" deyib ilk ağlına gələni söyləyib keçməz. Əksinə, ən gözəl, ən təsiredici söhbətləri edər, qarşısındakı kəsləri incitməmək, onların sevinclərini qaçırmamağa diqqət göstərər. Allahın ən razı olacağı danışığı seçər və bunda vicdanından açar olaraq istifadə edər.

Bir başqa ayədə də Allah, dinə bağlılıqları baxımından insanları üç qrupa ayırmışdır:

> *Sonra Kitabı bəndələrimizdən seçdiklərimizə miras etdik. Artıq onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Məhz, böyük lütf də budur.*
>
> **(Fatir surəsi, 32)**

Ayədə də bildirildiyi kimi, insanlardan bir qismi din əxlaqını onsuz da heç yaşamazlar. Bir hissəsi isə vicdanlarından tam olaraq istifadə etmədikləri üçün orta yol tutarlar. Yəni vicdanlarının hər əmr etdiyini deyil, yalnız bir qisminə tabe olarlar. Maraqlarına zidd düşdüyü nöqtələrdə vicdanlarına əməl etməyə bilərlər. Məsələn, vaxtlarının və imkanlarının hamısını din üçün istifadə etmək yerinə yalnız bir qismini istifadə edərlər. Dinin və gözəl əxlaqın insanlar arasında yayılması mövzusunda ciddi səy göstərməzlər. Yerinə yetirdikləri bəzi ibadətləri, halal və haramlara diqqət etməyi önə sürərək, özlərini əxlaqi baxımdan da yetərli görərlər. Halbuki vicdana uyğun olan, halal və məşru olan rəftarlar içərisində əxlaqi cəhətdən də ən doğru, ən gözəl olanı seçib tətbiq etməkdir. Necə ki, Allah Quranda sözün ən gözəlinə tabe olanlardan təriflə bəhs etmişdir:

> *O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allahın doğru yola yönəltdiyi şəxslərdir. Ağıl sahibləri də məhz onlardır.*
>
> **(Zumər surəsi, 18)**

Üçüncü qrup isə xeyirlərdə yarışanlardır ki, bu kəslər vicdanlarının əmrlərinin ən çoxunu tətbiq edərlər. Hətta ən çox savabı qazanma yarışındadırlar. Hər cür xidmətdə, hər xeyir işində önə atılarlar. Heç bir işdə başqalarının etməsini gözləməzlər, əksinə özləri ön plana çıxaraq namizəd olarlar. Edə biləcəkləri daha yaxşı işlər varkən və ya daha çoxunu edə biləcək ikən, daha az olanı seçməyi vicdanları qəbul etməz.

Mümkün olan ən yaxşısını seçmək mövzusunda digər nümunə də Nisa surəsində verilir. Bu surədə Allah, əmanət edilən şeylərin, o mövzuda layiq olan yəni səlahiyyət və qabiliyyət sahibi kəslərə verilməsini əmr edir:

> *Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir.*
>
> **(Nisa surəsi, 58)**

Əmanət ediləcək şey vəzifə, məsuliyyət və ya qorunmalı olan qiymətli əşya ola bilər. Belə vəziyyətdə, məsələn, bəhs edilən əmanət əgər əşya isə onu, diqqəti ən açıq, ən dürüst və ən ağlı başında adama vermək bu ayənin ən doğru şəkildə tətbiq olunması deməkdir. Bir vəzifə və ya məsuliyyət verərkən də eyni şəkildə bu mövzuda ən məlumatlı, ən təcrübəli, qısacası bu məsuliyyəti ən yaxşı şəkildə yerinə yetirə biləcək adam seçilməlidir. Daha az bacarıqlı və ya daha az məlumatlı birinin seçilməsindən böyük ehtimalla nəfsani mənfəət güdülmüş deməkdir. Bir adamın etibarlılığından çox, o adamın qan bağı baxımından yaxınlığı, ya da gələcəkdə qarşılıq olaraq başqa mənfəətlər təmin etməsi kimi hesablar edilmiş ola bilər. Ki ümumiyyətlə cəmiyyətdə yayılmış olan anlayış budur. Mənfəət əlaqələri birinci dərəcədən əhəmiyyətli olur. Halbuki hər mövzuda ən yaxşısını, ən doğrusunu axtarmaq Quran əxlaqının gərəyidir.

Görüldüyü kimi vicdan, yalnız Allahı tanımanı, Onun varlığını qəbul etməyi deyil, eyni zamanda Onu razı edəcək işlər görməyi və bu işlərdə də çox diqqətli olmağı tələb edir. İnsanların böyük əksəriyyəti isə Allahın varlığına inanmağın yetərli olduğunu zənn edər. Qurandakı bəzi ayələrdə bu kəslər belə bildirilir:

> *De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?" O sizin Haqq Rəbbiniz olan Allahdır. Haqdan sonra zəlalətdən başqa nə ola bilər? Siz necə də haqdan döndərilirsiniz!*
>
> **(Yunis surəsi, 31-32)**

Yuxarıdakı ayələrdə də görüldüyü kimi, bu kəslər Allahın varlığına inanır, hətta Allahın onlara ruzi verdiyini, özlərini yaradan və öldürən olduğunu, hər şeyin yaradıcısı və sahibi olduğunu da qəbul edərlər. Vicdanlarından ancaq bu qədər anlayış üçün istifadə edər və bunu dindarlıqları üçün yetərli görərlər. Halbuki vicdanından sonuna qədər

istifadə edən biri, Allahın ucalığını qavraya bildiyi üçün Ona qarşı hörmət dolu qorxu hiss edər. Bu digər bilinən qorxulardan fərqli qorxudur; Allahın razılığını itirmə qorxusudur. Bundan qorxu duyan insanın bütün həyatı yalnız Rəbbimizin razılığını qazanmağa çalışaraq keçər. Allaha yaxınlaşmada özünə sərhəd tanımaz. Necə ki, Allah Quranda hz. İbrahimi nümunə göstərərək belə demişdir:

> *Yaxşı işlər görərək Allaha təslim olan və hənif olaraq İbrahim dininin ardınca gedən şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi sevimli dost tutmuşdur.*
>
> **(Nisa surəsi, 125)**

Məhz yüz faiz vicdanla hərəkət edən insan da, insan ağlının Allahı qavrayıb anlaya biləcəyi ən üst səviyyəyə çatana və Allahın yaxın dostu olana qədər səy göstərər. Ancaq heç bir zaman ən üstün dostluğu və yaxınlığı təmin etdiyindən əmin ola bilməyəcəyi üçün, ölənə qədər bu səyi və istəyi davam edər.

Yaxşı, “Allaha yaxınlıq”, “Allahla dost olmaq” necə olur? deyə düşünə bilərik. Məhz bunun açarı da vicdanımızdır.

FƏSİL

# Vicdanlı bir insanın Allah ilə yaxınlığı necə olur?



Bir insana həyatındakı ən əhəmiyyətli şeyin nə olduğunu soruşsan buna nə cavab verər? Əhəmiyyətli olan evidirmi, ailəsi, yoxsa işidirmi? Ya da bunların xaricində bəzi idealları ola bilərmi?

Ancaq cavabı hər nə olursa olsun unutmamalıdır ki, onun üçün ən əhəmiyyətli olan şeydən çox daha əhəmiyyətli və bəlkə də unutduğu mövzu var ...

Bir insanın həyatındakı ən əhəmiyyətli mövzu, özünü yaradan və sahib olduğu hər şeyi verən Allahı tanımaq və Ona yaxın olmaq üçün səy göstərməkdir. Ancaq insanların böyük bir qismi bu həqiqəti görməzlikdən gələrək yaşayarlar. Önünüzə çıxan ilk adama, hətta qarşılaşdığınız hər kəsə həyatlarındakı ən əhəmiyyətli və vacib gördükləri mövzuları soruşun. Alacağınız cavablar əksəriyyətlə dünya həyatı ilə əlaqəli olacaq.

Halbuki vicdanından istifadə edən biri, Allah ilə yaxınlığın əhəmiyyətini dərhal fərq edər və Allaha yaxınlaşmaq üçün yollar axtarar. Çünki Quranda bu əmr edilir:

> *Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşmaq üçün vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız.*
>
> **(Maidə surəsi, 35)**

## Vicdan Allaha yaxın olmağın vacib olduğunu necə anlayar?

Ətrafınıza baxın. Hər şey insanın ehtiyacına uyğun olaraq yaradılmışdır. Bədəninizə baxın; sizin heç bir müdaxiləniz olmadan qüsursuz şəkildə işləyir. Nə ürək döyünməyi unudar, nə də sinirlər beyinə zəruri olan mesajları lazım olduğu zamanlarda çatdırmaqda gecikər. Bəslənə bilməyiniz və bu səbəbdən yaşaya bilməyiniz üçün lazımlı bütün qidalar təbii olaraq dünyada mövcuddur. Ehtiyacınız olan oksigen atmosferdə tam lazım olan miqdarda var. Rahatca, heç düşünmədən hərəkət etməyinizi təmin edən əzələ

və skelet sisteminə sahibsiniz. İstədiyinizi rahatca tutub, istədiyiniz yerə gedə və ya qaça bilirsiniz. Üstəlik sadəcə həyatda qalmağınızı təmin edən funksiyalara da sahib deyilsiniz, həmçinin çox müxtəlif zövqlər hiss edə bilirsiniz. Bunun üçün lazım olan şüur da sizə verilmişdir. Yeməklərin dadları, gördüyünüz mənzərənin gözəlliyi, seyr etdiyiniz filmin mövzusu, dostunuzun söhbəti sizi məmnun edə bilir. Və bunları sizin üçün var edən üstün güc sahibi Yaradıcı var. Sizi yoxdan, heç ikən var etmişdir. Əgər O istəməsəydi, siz heç olaraq qalacaqdınız, heç var olmayacaqdınız. Amma Allah dilədi və sizi insan surətində yaratdı.

Burada Allahın insanlara verdiyi nemətlərdən yalnız bir neçəsinə toxuna bildik. Allahın insanlara verdiyi nemətlərin hamısını burada yazmaq istəsək, “Əgər Allahın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz ...” (Nəhl surəsi, 18) ayəsində bildirildiyi kimi, buna güc yetirə bilmərik. Bundan əlavə, Allah dünya həyatında Öz yoluna tabe olanlara, insan üçün ola biləcək ən gözəl qarşılığı vəd etmişdir: Sonsuza qədər qalacağı və canının istədiyi hər şeyə sahib ola biləcəyi cənnət.

Bütün bunlar qarşılığında sizə düşən çox əhəmiyyətli məsuliyyət, əlbəttə bütün bu verdiklərinə qarşılıq Allaha şükür etməkdir. Bir ayədə belə deyilir:

> *Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxartdı, sizə qulaq, göz və ürək verdi ki, bəlkə şükür edəsiniz.*
>
> **(Nəhl surəsi, 78)**

Həyatınız boyunca sizə verilən bütün nemətlər də yenə Allahdandır. Bu səbəblə, Allahdan başqa ilah yoxdur.

> *Allah insanlara mərhəmətindən nəyi nəsib edərsə, heç kəs onun qarşısını ala bilməz. Onun göndərmədiyi bir şeyi də Ondan başqa heç kəs verə bilməz. O, Qüdrətlidir, Müdrikdir. Ey insanlar! Allahın sizə verdiyi lütfünü bir xatırlayın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı? Ondan başqa heç bir məbud yoxdur. Siz necə də haqdan döndərilirsiniz!*
>
> **(Fatir surəsi, 2-3)**

Bir insanın yaşamasının, var olmasının, həyat sürməsinin yeganə səbəbi Allahın diləməsidir. Bu həqiqətin fərqində olan biri üçün əlbəttə ki, ən əhəmiyyətli varlıq Allah, ən əhəmiyyətli mövzu da Ona yaxınlaşmaq olacaq. Ancaq insanlar dünya həyatının sehrinə və təfərrüatlarına özlərini alüdə edərək bu həqiqəti heç düşünməzlər. Etdikləri əlbəttə böyük nankorluqdur. Çünki bu qədər əhəmiyyətli gerçəyi düşünməyən insan, yaxınlarının və ya ətrafındakı insanların özü üçün nə düşündüyünə çox əhəmiyyət verər. İnsanların gözünə girmək üçün hər şeyi edər, təqdirlərini qazanmaq üçün ciddi səy göstərər və bunun üçün müxtəlif yollar düşünər. Amma özünü yoxdan var edən Rəbbimizin məmnun etmənin yolları nələrdir, nə etsə Allahın sevgisini qazanar, düşünməz.

Bu arada insan bilməlidir ki, Allahın razılığını qazanmaq yalnız məsuliyyət deyil, eyni zamanda insana xoşbəxtlik və hüzur verəcək yeganə yoldur. Allahı unudub başqa insanların razılığını axtaranlar, ya da oxşar boş hədəflərə qapılanlar, əsla məmnun olmazlar və xoşbəxt ola bilməzlər. Halbuki, Allahın razılığı, bir insanın qəlbinin özüylə məmnun olacağı ən böyük sevinc və xoşbəxtlikdir. Çünki Qurandakı ifadə ilə, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapar:

> *... Tövbə edib Ona üz tutan kimsəni isə doğru yola yönəldir". Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.*
>
> **(Rad surəsi, 27-28)**

İnsanların Allahdan uzaq yaşamalarının səbəbi həm bu sirri bilməmələri, həm də dünya həyatının həqiqi məqsədini və axirətin varlığını unutmalarıdır. Halbuki, Allahın və cəhənnəmin varlığından əmin olan biri Allahı heç bir zaman unuda bilməz. Hər kəs düşünsün: Cəhənnəm atəşinin yaxınlığında dünya həyatından sorğuya çəkilən hansı insan, Allahdan başqa varlığı düşünə bilər? Belə anda Allahdan başqa varlığın məmnuniyyəti güdülərmi? O vəziyyətdəki insan başqasının sevgisini və dostluğunu axtararmı? Bu vəziyyətdə tanıdığı hər hansı birinin fikri və ya özünə yaxınlığı onun üçün əhəmiyyət daşıyarmı?

Cəhənnəm atəşini görən kəslər üçün dünyada sahib olduqları mülkün və ya tanıdıqları insanların heç bir əhəmiyyətinin qalmadığı aşağıdakı ayələrdə belə bildirilir:

*Dost dostunun halını xəbər almayacaq. Halbuki onlar bir-birini görəcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyər – öz oğullarını, həyat yoldaşını və qardaşını, ona sığınacaq vermiş nəslini və yer üzündə olanların hamısını – təki bu onu xilas etsin. Xeyr! Bu, alovu şölələnən Oddur .*

**(Məaric surəsi, 10-15)**

Qurandan öyrəndiyimiz və vicdanımızla anladığımız kimi, insanın həyatının hamısı Allah üçün yaşanmalıdır. "İnsan bütün həyatını necə Allah üçün yaşayar?" deyə düşünürsünüzsə; məhz bunun da açarı vicdandır. Əgər bütün həyatınızı Allahı razı edəcək şəkildə davam etdirmək istəyirsinizsə, bunun üçün Quranın hökmlərinə uymağınız və hadisələr qarşısında da daima vicdanınızı dinləmək kifayətdir. Kiçik-böyük qarşılaşdığınız hər hadisədə vicdanınızın səsinə uymağınız, əslində Allahın razılığına uymağınız deməkdir. Bu səbəbdən içinizdəki xeyir səsini dinləməklə, hər hərəkətinizdə Allahı məmnun etmiş olarsınız.

Ancaq burada diqqət edilməli olan son dərəcə əhəmiyyətli nöqtə var: Allahı razı etmək üçün səy göstərməyən insanlar da bəzən ətraflarına və ya özlərinə görə gözəl görünən davranışlar edə bilərlər. Məsələn, xarakter olaraq insanları incitməyən, incə düşüncəli insanlar ola bilərlər. Lakin əgər işlədikləri xeyiri Allahın məmnuniyyəti üçün istəmirlərsə, etdikləri işlərin Allah Qatında keçərliliyi olmaya bilər. Çünki bu kəslər vicdanlarına əməl etdikləri üçün deyil, öz bəzi maraqları üçün yaxşılıq edirlər. Bu mənfəət, "xeyirxah" insan olaraq bilinməyin verəcəyi razılıq hissi, ya da sadəcə romantik məmnuniyyət də ola bilər.

Qısacası, insan etdiyi işdən çox, vicdana tabe olma mövzusundakı niyyətindən məsuldur. Əgər bütün həyatının "Allah üçün" olmasını istəyirsə, niyyətini dəyişdirməsi zəruridir. Məsələn, incə düşüncəli davranarkən insanların gözünə girməyi, onlardan təqdir gözləməyi deyil, Allahın məmnun olmasını axtarmalıdır. Bu daima Allahı düşünməsini, Ona yönəlməsini, Ona dua edərək hər şeyi Ondan istəməsini təmin edər. Allah daima Özünə yönələn belə qullarını Quranda belə tərifləmişdir:

*Onların dediklərinə səbir et və qüdrətli qulumuz Davudu yadına sal! O, daim Allaha üz tutardı.*

**(Sad surəsi, 17)**

Həmçinin Allah Quranda Özünə yaxınlığa səbəb olacaq bəzi yolları belə bildirir:

> *Xeyirxah işlərdə öndə gedənlər, Cənnətdə də öndədirlər! Onlar Allaha yaxın olanlardır.*
>
> **(Vaqiə surəsi, 10-11)**

> *Bədəvilərdən eləsi də vardır ki, Allaha və Axirət gününə inanır, xərclədiyini Allah yanında yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vasitə sayır. Həqiqətən də, bu, onlar üçün yaxınlaşmağa bir vasitədir. Allah onları Öz mərhəmətinə qovuşduracaqdır. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.*
>
> **(Tövbə surəsi, 99)**

Allah üçün edilən vicdanlı hər rəftar Allaha yaxınlaşmağa vəsilədir. Unutmamaq lazımdır ki, Allah Özünə yaxın olanları cənnətlə müjdələyir:

> *Amma əgər o, Allaha yaxın olanlardandırsa, onda rəhmətə, gözəl ruziyə və Nəim bağına yetişər. Əgər o, sağ tərəf sahiblərindəndirsə, ona: "Sağ tərəf sahiblərindən sənə salam olsun!" – deyiləcəkdir.*
>
> **(Vaqiə surəsi, 88-91)**

FƏSİL

# Vicdanın qarşısındakı mənfi güclər: nəfs və şeytan

Vicdanın qarşısında yer alan mənfi güclərdən bəhs etməzdən əvvəl, vicdanın Allahın ilhamı olduğunu açıqlayan Şəms surəsindəki ayələri təkrar xatırlatmaq istəyirik:



> *And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. Onu günaha batıran isə ziyana uğramışdır.*
>
> **(Şəms surəsi, 7-10)**

Bu ayələrdə Allah nəfsə fücuru və eyni zamanda ondan çəkinməyi, yəni vicdanı ilham etdiyini bildirir. "Fücur" sözü məna olaraq "günaha və üsyana qalxmaq, fasiq olmaq, yalan söyləmək, baş qaldırmaq, haqdan üz çevirmək, nizamı pozmaq, əxlaqi çöküntü, təqvanın ziddi" deməkdir. Yəni fücur olaraq adlandırılan anlayış, insan nəfsinin mənfi xüsusiyyətlərinin hamısını əhatə edir. Nəfsimizdə iki ayrı xüsusiyyət var: pisliklərin qaynağı fücur və eyni zamanda pisliklərdən çəkindirən vicdan.

Bu mövzunu daha yaxşı başa düşə bilmək üçün nəfsin nə olduğunun da bilinməsi faydalı olacaq. "Nəfs" Quranda tez-tez istifadə edilən ərəb dilində termindir. Dilimizdə tam qarşılığı yoxdur, ancaq "mənlik" sözü ilə ifadə oluna bilər. Quranda istifadə edilən mənaları isə belədir; "Bir şeyin zatı, özü, ruh, öz varlığı, qəlb, şəhvət, arzu və qəzəbın başlanğıc yeri, yatağı, vicdan, insanda əmredici güc". Burada, nəfsin əvvəlcə üzərində duracağımız xüsusiyyəti, insanda əmredici güc olmasıdır. Yəni insana hərəkəti etdirən, qərar verdirən mənəvi güc, nəfsdir. Nəfsin bu istiqaməti Quranın bir çox ayəsində bildirilir. Bu ayələrdə insanların əxlaqsızlıqlarından, pisliklərindən bəhs edilərkən bu rəftarlarının qaynağı olaraq nəfsləri göstərilir.

Bu nümunələrdən biri hz. Yusifin qardaşları ilə əlaqədardır. Hz. Yusifə qarşı duyduqları qısqanclıqlarından ötrü onu təsirsiz hala gətirmək üçün hərəkət edən qardaşlarına

ataları hz. Yaqub belə demişdir:

> *... "Xeyr" dedi. Sizi öz nəfsiniz bu işə vadar etmişdir ...*
>
> **(Yusif surəsi, 18)**

Yuxarıdakı ayədə nəfsin insanları aldada biləcəyi və əslində çirkin olan şeyi gözəl göstərə biləcəyi bildirilir.

Yenə nəfsin təsirinin vurğulandığı başqa hadisə Taha surəsində izah edilir. Hz. Musanın qövmündən olan Samiri, hz. Musa qısa müddətə yanlarından ayrıldığında, bütün qövmü azdırmış və onlardan yığdığı qızıllarla buzov heykəli düzəltmişdi. Hz. Musa geri dönüb Samirini hesaba çəkdiyində isə Samirinin cavabı belə olmuşdur:

> *O dedi: "Mən onların görmədiklərini gördüm. Mən o elçinin ləpirindən (Cəbrayılın atının ayağı dəydiyi yerdən) bir ovuc torpaq götürdüm və onu bəzək əşyalarının üstünə atdım. Nəfsim məni buna sövq etdi".*
>
> **(Taha surəsi, 96)**

Quranda bəhsi keçən başqa hadisə də hz. Adəmin iki oğlu arasında baş vermişdi. Hz. Adəmin iki oğlundan biri qısqanclığı səbəbiylə qardaşını öldürür və sonra peşmanlıq duyur. Ayədə, bu cinayəti törədən hz. Adəmin oğlu üçün Allah belə bildirir: "... Nəfsi onu qardaşını öldürməyə vadar etdi ...". (Maidə surəsi, 30) Adam öldürmək və belə qərar vermək əslində insanın yaradılışı ilə əsla uyğun gəlməz. Heç kim belə bir şeyi istəməz və bunu etməyi asan görməz. Ancaq nəfsdəki xüsusiyyət bunu asanlaşdırır və bəzi insanlara bunu cazibədar göstərir. Oğurluq, əxlaqsızlıq, yalançılıq, qısqanclıq, təkəbbür kimi xüsusiyyətlər üçün də eyni vəziyyət keçərlidir.

Diqqət yetirilsə, yuxarıda göstərilən ayələrdə nəfsin mənfi təlqinindən bəhs edilir. Hz. Adəmin oğlu, hz. Yusifin qardaşları və Samiri fərqli cinayətlər işləmişlər. Bu hadisələrdə ortaq olan nöqtə isə hər bir rəftarın nəfslərindən qaynaqlanmasıdır. Nəfsləri bu pis rəftarları asan və gözəl göstərmiş və ya onları aldatmış və pisliyə sövq etmişdir.

Yaxşı, nəfsin bu gücü haradan qaynaqlanır? Cavab aydındır: Şəms surəsindəki ayədə bildirildiyi kimi nəfsə fücur, yəni bütün bu pisliklər ilham edilir.

Bu nöqtədə ağıla belə sual gələ bilər: "Madam insanların nəfsi bu şəkildə pisliyə açıq olaraq yaradılmışdır, elə isə hər insandan pislik və əxlaqsızlıq gözləmək lazım deyilmi?"

Burada nəfsin digər xüsusiyyətini daha xatırlamaq lazım olacaq; nəfsdəki tək güc bu mənfi ilham deyil. Şəms surəsindəki ayələr təkrar oxunsa, nəfsə pisliklərlə yanaşı bu pisliklərdən çəkinmənin də ilham edildiyi görüləcək. Yəni mənfi güclərlə yanaşı müsbət güclər də nəfsdə hazır var. Bunun mənası budur: Hər insanın nəfsində həm pislikləri, əxlaqsızlıqları əmr edən, bunları asan və gözəl göstərən güc vardır, həm də bütün bunlardan çəkinməyi, yaxşı və gözəl olanı seçməyi əmr edən müsbət güc vardır. Məhz bu müsbət güc vicdandır. Və insanları bir-birlərindən ayıran xüsusiyyət insanların vicdanlarına və ya nəfslərindəki mənfi xüsusiyyətlərə uyaraq həyat sürmələridir.

## Şeytan və vicdan

Şeytan, bir çox insan üçün mistik anlayışdır. Bu səbəblə, insanların üzərində necə təsiri olduğu, gündəlik həyatda necə rol oynadığı nəzərə alınmır. Ancaq insanlar bu mövzuda yanılırlar.

Bu kitabda şeytan mövzusunu ətraflı olaraq araşdırmayacağıq, yalnız vicdana qarşı mənfi güc olan şeytanın bəzi xüsusiyyətlərinə toxunacağıq. Amma yalnız bu qədəri belə, şeytanın mistik və xəyali varlıq deyil, insanı hər an müşahidə edən və səhvə sürükləməyə cəhd göstərən mənfi güc olduğunun fərq edilməsini təmin edəcək. (Bu mövzuyla əlaqədar daha ətraflı məlumat almaq istəyənlər Harun Yəhyanın "İnsanın açıq-aşkar düşməni: Şeytan" adlı kitabına müraciət edə bilərlər.)

Şeytan, Allaha qarşı çıxmış və hz. Adəmin qarşısında səcdə etməmişdir. Qısqanclığı və qüruruna görə özündən alçaq gördüyü insanları Allahın yolundan azdırmağa qərar vermişdir. Quranda şeytanın qəlblərə hiyləgərcə vəsvəsələr verməsindən, insanları Allahın və axirətin varlığından şübhə etdirməyə çalışmasından, dünya həyatını insanlara bəzəkli və cazibədar göstərməsindən bəhs edilir. Əslində şeytan, nəfsdə də var olan və vicdanın qarşısında olan mənfi qüvvələrin təmsilçisidir. Qısacası, insana vicdanı daima doğrunu söyləyərkən şeytan həmişə səhv olanı söyləyər. Ancaq bunu çox açıq şəkildə etməz. Heç hiss etdirmədən istifadə etdiyi yollar vardır. Məsələn, insana "Sən onsuz da yaxşı insansan. Müsəlmanam da deyirsən. Əgər cənnət varsa, sən onsuz da oraya gedəcəksən." təlqinini edər. Halbuki bu adam bəlkə nə namaz qılırdı, nə də Allahın digər hökmlərinə əməl edirdi. Və şeytan bu insanı bəzəkli sözləri ilə axirətin varlığından şübhəyə salar. Açıq-aşkar inkar etdirməz, amma müsəlmanlıq adı altında inkara yaxın həyat yaşatdırar. Ən əhəmiyyətlisi insan bunun şeytanın onu cəhənnəmə sürükləmək

üçün qurduğu qəsdli plan olduğunu anlamadan öz düşüncələri olduğunu zənn edər. Burada unudulmamalı olan budur: Vicdan insana hər zaman həqiqi dini yaşamasını söyləyəcək. Ancaq şeytanın söylədikləri onlara asan gəldiyi üçün insanların bir çoxu vicdanlarının söylədiklərinə baxmayaraq şeytanın dediklərinə tabe olarlar.

Vicdanın dünyada davam edən imtahan içərisindəki əhəmiyyəti burada qarşımıza çıxır. Hər qarşılaşılan hadisədə həm vicdan, həm də maraqların, ehtirasların, pisliklərin qaynağı olan şeytan dövrəyə girər. Hər ikisi də insanı öz yoluna çağırır. Bu iki səsi ayırd edə bilənlər və vicdanlarına tabe olanlar, Allahın razılığını qazanarlar.

Bu nöqtədə bilinməli lazım olan çox zəruri nöqtə daha var: Şeytan ölənə qədər, hətta bütün insanları cəhənnəmə aparana qədər onlardan əl çəkməyəcək. Əvvəlcə bunu qəti olaraq ağıldan çıxarmamaq lazımdır. Amma bunu da unutmamaq lazımdır ki, vicdanı da insanı ölənə qədər buraxmayacaq və axirətdə cənnətə girə bilməsi üçün lazımlı olan hər rəftarı ona söyləyəcək.

Bütün bunlara baxmayaraq vicdanına uymayaraq, nəfsinə uyan insan isə şeytanın dostu olmuşdur. Çünki o Allahın deyil şeytanın yolunu seçmişdir. Bu kəslərlə əlaqədar Allah bu hökmü verir:

> *Kim Mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar.*
>
> **(Zuxruf surəsi, 36)**

Şeytanın özünə uyanlara necə yaxınlaşacağını və şeytanın və tərəfdaşlarının sonu isə yenə Quranda belə bildirilir:

> *İblis dedi: "Sən məni yoldan çıxartdığına görə mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən". Allah buyurdu: "Oradan mənfur və qovulmuş halda çıx! Onlardan hər kəs sənin ardınca getsə, əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam.*
>
> **(Əraf surəsi, 16-18)**

## Şeytanın vicdanlı insanlar üzərində heç bir təsiri yoxdur

Yuxarıdakı izahatlardan şeytanın çəkinilməli olan əhəmiyyətli güc olduğu qənaətinə gəlinmiş ola bilər. Ancaq qəti olaraq bilinməlidir ki; həmçinin şeytanın gücü son dərəcə zəifdir. Allah ayədə şeytanın bu vəziyyətini belə bildirir:

> *Möminlər Allah yolunda, kafirlər isə tağut yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir.*
>
> **(Nisa surəsi, 76)**

Şeytana insanları təsir etmə imkanı, Allaha iman edənlərlə, şübhədə olanların ayırd edə bilməsi üçün verilmişdir. Hər şeydən əvvəl şeytan özünə aid müstəqil gücü olan, Allahın diləməsi xaricində bu gücünü istifadə edə biləcək varlıq deyil. Şeytan Allahın insanı sınamaq üçün istifadə etdiyi mənfi gücdür. Allah, qullarını sınamaq və kimlərin vicdanlarına uyduğunu göstərmək üçün şeytanı və ona uyan nəfsi yaratmışdır. Şeytanın da fərqində olduğu həqiqət vardır ki, səmimi və vicdanlı insanlara qarşı çox gücsüz və zəifdir. Onları heç bir zaman təsiri altına ala bilməz. Onlara qarşı heç bir hiyləsi təsirli olmaz. Bu vəziyyət Quranda bir çox ayədə xəbər verilmişdir:

> *Şübhəsiz ki, şeytanın, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir.*
>
> **(Nəhl surəsi, 99-100)**

**Allah buyurdu: "Çıx get! Onlardan kim sənə uysa, tam bir əvəz kimi cəzanız Cəhənnəm olacaqdır. Onlardan gücün çatdığı kimsələri səsinlə günaha təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər. Əslində, Mənim ixlaslı qullarım üzərində sənin hökmranlığın olmayacaqdır. Qoruyan olaraq Rəbbin yetər". (İsra surəsi, 63-65)**

## Vicdana uymaq ən asan yoldur

Bu nöqtədə bunu da xatırlatmaq lazımdır: Vicdan və nəfs arasındakı seçim əslində insan üçün heç çətin deyil. Çünki Allah insanı vicdanının səsinə uymaqdan zövq alacaq

şəkildə yaratmışdır. Buna görə Qurana tabe olmaq və din əxlaqına görə yaşamaq da insanların təbiətinə uyğundur. Aşağıdakı ayədə Allah bu həqiqəti belə xəbər verir:

> *Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir.*
>
> **(Rum surəsi, 30)**

Və Allah vicdanlara bu fitrətə uyğun rəftar və düşüncələri ilham edər. Bu səbəblə, hər insanın vicdanı əslində Allahı məmnun etmək istəyər. Buna görə insanın vicdanına uyğun olmayan şeyləri etməsi çətin və əzab verici işdir. Vicdana tabe olmadan edilən şeylərdə qəlb sıxıntısı, narahatlıq və ya gərginlik meydana gələr. Qəlbin rahatlaması isə, ancaq Allahın xatırlanması və Onun razılığının axtarılması ilə olar.



Vicdana uymağın asanlığı Quranda bir çox ayədə bildirilir. Həmçinin Allah Öz razılığına uyan kəslər üçün xüsusilə asanlıq təmin edəcəyini söyləyir:

> *... Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir...*
>
> **(Bəqərə surəsi, 185)**

> *... Kim Allahdan qorxsa (Allah) onun işini asanlaşdırar.*
>
> **(Təhrim surəsi, 4)**

> *İman gətirib yaxşı iş görən kimsəyə isə ən gözəl mükafat veriləcəkdir. Biz ona əmrimizdən asan olanı buyuracağıq".*
>
> **(Kəhf surəsi, 88)**

> *Səni ən asan olana müvəffəq edərik.*
>
> **(Əla surəsi, 8)**

Allah səmimi qullarına, çətinlik kimi görünən hadisələrin ardından da asanlıq təmin edəcəyini xəbər verir:

> *... Allah heç kəsin üzərinə Özünün ona verdiyi nemətdən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir.*
>
> **(Talaq surəsi, 7)**

**Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir. (İnşirah surəsi, 5-6)**

İNSANLAR VİCDANLARI DOĞRUNU QƏBUL ETDİYİ HALDA NİYƏ VİCDANLARININ ƏMR ETDİKLƏRİNƏ UYMAZLAR?

Bir insanın vicdanına uymamasının təməlində Allaha və axirətə imanının zəif olması dayanır. İman zəifliyinin gətirdiyi bir çox əxlaqi pozğunluq var və bunlar bir insanın vicdanına uymasında əngəlləyici rol oynayarlar. Bəli, haqqa qarşı müqavimət göstərən bu kəslərin vicdanları da əslində doğrunu, dini, Allahın varlığını bilir. Ancaq aşağıda ətraflı araşdıracağımız səbəblərdən ötrü bu kəslər doğru olduğunu bildikləri şeylərə tabe olmazlar. Allah Quranda bir çox ayədə insanların doğru gördükləri və vicdanları qəbul etdiyi halda bilə-bilə inkar etdiklərini bildirir.

Məsələn, Allahın vəhyi olan Tövratı bilərək dəyişdirən yəhudilər haqqında belə deyilir:

> *... Halbuki onlardan bir zümrə var idi ki, Allahın Sözünü eşidib anladıqdan sonra, bilə-bilə onu təhrif edirdilər.*
>
> **(Bəqərə surəsi, 75)**

> *Kitab əhlindən bir çoxu həqiqəti bildikdən sonra da, paxıllıqları üzündən sizi, siz iman gətirdikdən sonra kafirliyə qaytarmaq istəyərlər. ...*
>
> **(Bəqərə surəsi, 109)**

> *Kitab verdiyimiz şəxslər onu (Peyğəmbəri və yaxud Kəbənin qiblə olduğunu) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Həqiqətən də, onlardan bir dəstə haqqı bilə-bilə gizlədir.*
>
> **(Bəqərə surəsi, 146)**

Yaxşı, nədir insanları bu qədər müqavimət göstərməyə, doğrulara qarşı laqeydləşməyə təhrik edən səbəblər?

## Təkkəbbürlərindən ötrü vicdanlarına uymayanlar

"Allahın dəlilləri ancaq vicdanla görülür" hissəsində təkamülçü elm adamlarını nümunə verərək, Allahın varlığının dəlillərini gözləriylə görmələrinə baxmayaraq Onu inkar etdiklərindən bəhs etmişdik. Bu mövzuyla əlaqədar belə nümunə daha vermək istəyirik: Məşhur İngilis zooloqu və təkamülçüsü D.M.S.Vatson özünün və digər məsləkdaşlarının təkamülü səbəb qəbul etdiklərini belə açıqlamışdır:

Təkamül nəzəriyyəsinin geniş qəbul edilən nəzəriyyə olmasının səbəbi bu nəzəriyyəni isbat edəcək kifayət qədər dəlil olması deyil, ancaq digər alternativin yəni fövqəltəbii yaradılışın tamamilə qəbul edilə bilməz olmasıdır. (DMS Watson, "Adaptation", Nature, sayı 124, s. 233)

Vatsonun "fövqəltəbii yaradılış" sözüylə nəzərdə tutduğu, Allahın yaratmasıdır. Haqqında danışdığımız alim görüldüyü kimi bunu "qəbul edilə bilməz" görür. Niyə? Elm elə söylədiyi üçünmü? Xeyr, əksinə, elm yaradılışın doğruluğunu isbat edir. Vatsonun bunu qəbul edilə bilməz saymasının tək səbəbi, Allahın varlığını inkar etmək üçün özünü şərtləndirmiş olmasıdır. Digər bütün təkamülçülər də bu vəziyyətdədirlər.

Quranda, bu kimi insanların vəziyyəti belə açıqlanır:

> *Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!*
>
> **(Nəml surəsi, 14)**

Məhz burada üzərində duracağımız mövzu da, bu kəslərin hansı səbəblə vicdanlarına baxmayaraq Allahı inkar etdikləridir. Yuxarıdakı ayələrdə bildirildiyi kimi, bunun səbəblərindən biri təkəbbürlənmələridir, yəni qürurlarıdır.

Qürur və təkəbbürün səbəbi "eqoizm" dir. Eqoizm termini "mən" mənasını verən "ene" sözündən törəmişdir. İnsanın özünü və ətrafındakı varlıqların hamısını Allahdan müstəqil görməsi, bütün rəftarının və anlayışının bu baxış aspektinə görə olması eqoizmdir. Şübhəsiz insan özünü Allahdan müstəqil gördüyü zaman bütün sahib olduğu xüsusiyyətləri də özünün olduğunu zənn edər. Halbuki sahib olduğu imkanlar, zənginlik, bədəni, yaxını olaraq gördüyü insanların hamısı, ağılı, biliyi Allaha aiddir. Allah dilədiyi zaman sahib olduğu hər şeyi o adamdan ala bilər. İnsan gözləmədiyi anda bütün var-dövlətini itirə bilər. Sağlam insan ikən bir anda sağlamlığına zərər gələrək başqalarına möhtac insan halına gələ bilər. Bir ayədə sahib olduqlarını özünün zənn edən adama verilən cavab belə bildirilmişdir:

> *Qarun dedi: "Bu mənə ancaq məndə olan biliyə görə verilmişdir". Məgər o bilmirdi ki, Allah ondan əvvəlki nəsillərdən, ondan daha qüvvətli və daha çox var-dövlət yığan kəsləri məhv etmişdir? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmaz (üzlərindən tanınarlar).*
>
> **(Qəsas surəsi, 78)**

Məhz eqoizm insanın bunları görməsini əngəlləyər. Eqoist insan, hər şeyi öz gücüylə etdiyini zənn edər. Acizliyini və Allaha möhtac olduğunu düşünməz. Özünü Allahdan müstəqil varlıq olaraq gördüyü üçün Ona qarşı məsuliyyət hiss etməz. Heç kimə hesab vermək məcburiyyətində olmadığını da düşünərək təkəbbürlənər.

Vicdanı Allahın varlığını bildiyi halda, təkəbbür hissinə görə bunu qəbul etməz. Çünki Allahın varlığını qəbul etməsi demək, özündən üstün bir varlığın hakimiyyətini, bu səbəbdən də yalnız Ona ibadət etməli, boyun əyməli olduğunu qəbul etməsi deməkdir.

Belə olduqda heç bir şeyin özündən olmadığını və hər mövzuda Allaha möhtac olduğunu da təsdiq etmiş olacaq.

Ancaq burada buna diqqət etmək lazımdır; indiyə qədər deyilənlərin hər biri hər insanın nəfsində ola biləcək olan təhlükələrdir. İnsanın burada verilən nümunələri üçüncü şəxslər üzərində düşünməsi, “özünə aid etməməsi” böyük səhv olar. Məsələn, “vicdanları qəbul etdiyi halda inkar etmə”yi yalnız təkamülçülərə aid xüsusiyyət zənn etmək böyük səhvdir. Çünki təkamülçülərin yaradılışı qəbul etməmək üçün elmi belə göz ardı etmələri, təkkəbbürün yalnız şəklidir. Bəzi insanlar isə, Allahın varlığını qəbul etdiklərini söylədikləri halda Onun əmrlərinə tabe olmazlar. Ya da öz fikirlərinin, dəyər mühakimələrinin, Allahın insanlara endirdiyi yol göstəricidən daha doğru olduğunu zənn edərlər. Bu da təkəbbürün başqa istiqamətidir. Qısacası, eqoizm bəzi insanlarda daha diqqətə çarpan, bəzilərində daha gizli ola bilər. Ancaq kiçik də olsa, böyük də olsa təməlində eyni məntiq durar; Allahın gücünü, ucalığını və Onun qarşısında öz acizliyini qavraya bilməmiş olmaq.

## İradəsiz olduqları üçün vicdanlarına uymayanlar

İnsanlar arasında zəif xarakterli olanlar sayca həddindən artıq çoxdur. Bu zəif xarakterli kəslərin tək məqsədləri, dərin düşünmədikləri və ağıllarından istifadə etməyə ehtiyac görmədikləri üçün sadəcə nəfslərinin ehtiyac, zövq və ehtiraslarını ödəməkdir. Belə ki, çox nadir insan şəxsiyyətini inkişaf etdirməyi, dərin zehni bacarığa sahib olmağı özünə hədəf edər. Çox insan, ətrafında davam etdirilən həyat standartı nədirsə, onu eynilə tətbiq edər; özündə və ya ətrafında yenilik etmə, gözəllik və mükəmməllik axtarışı ehtiyacını hiss etməz.

Dinin nəzərdə tutduğu gözəl əxlaqı göstərmək, Allahın məmnuniyyətinə uyğun yaşamaq isə ciddi səy və iradə tələb edir. Vicdanına tabe olan insan daim “daha yaxşı nə edə bilərəm” deyə düşünər və bunu həyatının hər anında tətbiq edər. “Möminlərə qarşı daha təvazökar, daha mülayim, daha sevgi dolu, daha düşkün, daha qayğıkeş necə ola bilərəm?”, “Allahın dinini insanlara izah etmək, onları gözəl əxlaqa, səmimiyyətə və dürüstlüyə çağırmaq üçün daha çox nə edə bilərəm?”, “İnsanların qəlbini dinə və gözəl əxlaqa necə isindirə bilərəm?”,”Allaha daha çox necə yaxınlaşa bilərəm?”,”Allahı inkar edənləri bu azğın və dar fikirlərindən daşındırmağın yolları nələrdir?” kimi, heç dayanmadan düşündüyü bir çox yüksək hədəfi var.

Ancaq bunları sadəcə düşünmək əlbəttə yetərli deyil. Əsl əhəmiyyətli olan vicdanı olanın bu doğruları iradəsindən istifadə edərək əskiksiz olaraq tətbiq etməsidir. Lakin

rahatlığını sevən, heç bir zaman fədakarlıq etməyən, yalnız öz mənfəətlərini düşünən, ətrafındakıların və yaşadığı cəmiyyətin içində olduğu vəziyyətlə maraqlanmayan biri üçün bunları tətbiq etmək qeyri-mümkündür. Belə kəslər bəhsi keçən böyük idealları həmişə başqalarına yükləyərlər. İradələri yalnız həyatla əlaqədar funksiyalarını yerinə yetirməyə və ehtiyaclarını qarşılamağa kifayətdir. Zəif iradəli insanlar da təbii olaraq vicdanlarına uyğun davranamazlar, çünki dini yaşamaq daha əvvəl də ifadə etdiyimiz kimi, ciddi səy, güclü iradə tələb edir. Necə ki, Allah Quranda "ciddi səy"in məqbulluğunu belə bildirir:

**Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar. (İsra surəsi, 19)**

## Qətiyyətli olmadıqları üçün vicdanlarına uymayanlar

Vicdana uymaq eyni zamanda sarsılmaz qətiyyət tələb edir. Həyatı boyunca vicdanına uymaya qəti qərar verməmiş biri, bir neçə sınaqdan sonra, fədakarlıq etdiyi üçün mənfəətinin zədələndiyini, layiq olduğu qarşılığı ala bilmədiyini düşünərək ruhdan düşə bilər. Bu səbəblə vicdanına uymaq çətin gələr və bundan vaz keçər.

Vicdana uymaq təbii ki, özü bəzi fədakarlıqları gətirəcək. Məsələn, insanın ac olduğu, ehtiyac içində olduğu halda oğurluq etməməsi, ehtiyacını qarşılayacaq qanuni yollara üz tutması vicdanı sayəsində olur. Bu çətin görünən şərtlər altında insanın əsla Allahın xoş görməyəcəyi rəftara yönəlməməsi, ilk baxışda nəfsi itki olaraq görülə bilər. Ancaq vicdanlı adam bunun sayəsində bir neçə günlük mənfəəti üçün, axirətdəki sonsuz mənfəətini gözardı etməmiş və Allahın razı olacağı şəkildə davranmış olar. Və sonsuz qazanc təmin edər.

Burada əhəmiyyətli olan başqa nöqtə, vicdanlı rəftarın Allah üçün göstərildiyinin şüurunda olmaqdır. Əgər insan "vicdanlı rəftar" sandığı şeyləri insanlardan qarşılıq gözləyərək edirsə, həqiqətən də çox zaman zərərə uğrayar. Amma qarşılığı Allahdan gözlənilən vicdanlı rəftar həqiqi vicdandır və insana mütləq qazanc təmin edər. Quranda, bu nümunə ilə mömin əxlaqı belə izah edilir:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!" (İnsan surəsi, 8-10)**

Ayələrdə görüldüyü kimi, dini yaşamaq müəyyən fədakarlıqları tələb edir. Və bunlar hər zaman nəfsin istəklərinə uyğun olmaya bilər. Amma yuxarıdakı ayələrdə möminlərin ifadə etdiyi kimi, Allah qorxusu olan hər insan bu fədakarlıqları heç çəkinmədən yerinə yetirər. Amma Allah qorxusu olmayan cəmiyyətlərdə bu cür fədakarlıqlar tətbiq olunmadığı üçün, həmişə bəla, sıxıntı, gərginlik hakimdir. Məhz vicdan bunu əngəlləyər. Allah qorxusu ilə qətiyyət göstərərək vicdanına tabe olan kəslər, son dərəcə etibarlı, hüzurlu cəmiyyətlər meydana gətirərlər. Üstəlik bu, yalnız dünyada aldıqları qarşılıqdır. Allah nəfslərindəki ehtiraslara baxmayaraq, fədakarlıq göstərən insanlara axirətdə sonsuz gözəlliklər müjdələmişdir. Yuxarıdakı fədakar mömin rəftarını izah edən ayələrdən sonra gələn ayələr belədir:

**Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər; onlara səbir etdiklərinə görə Cənnəti bəxş edər və orada geyəcəkləri ipəklə mükafatlandırar. Onlar orada taxtlar üzərində mütəkkələrə dirsəklənəcək və orada nə günəş, nə də şaxta görməyəcəklər. Cənnət ağaclarının kölgələri özləri onlara yaxınlaşacaq, meyvələri də tam onların ixtiyarına veriləcək. Onların ətrafına təamlarla dolu gümüşdən hazırlanmış qablar və büllur qədəhlər dolandırılacaq. Gümüşdən olan elə büllur qədəhlər ki, xidmətçilər onları cənnətdəkilərin içmək istədikləri həcmdə hazırlamışlar. Orada onlara zəncəfil qatılmış şərab badəsi içirdiləcək. Bu elə bir bulaqdandır ki, o, Cənnətdə Səlsəbil adlanır. Onların ətrafında həmişə gənc olan xidmətçi cavanlar dolanacaqlar. Onları gördükdə səpələnmiş mirvari dənələri olduqlarını sanarsan. Cənnətdə hara baxsan nemət və əzəmətli səltənət nişanəsi görərsən. Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların qoluna gümüş bilərziklər bağlanacaq. Onların Rəbbi onlara tərtəmiz şərab içirdəcəkdir. Onlara deyiləcəkdir: "Həqiqətən, bu sizə bir hədiyyədir və səyiniz təşəkkürə layiqdir" (İnsan surəsi, 11-22)**

Həmçinin əhəmiyyətlə ifadə etmək lazımdır ki, Allah Öz rizası üçün qətiyyət göstərən qullarına kömək edəcəyini və işlərini asanlaşdıracağını xəbər vermişdir. Allah ayələrdə bu asanlığı belə bildirir:

> *Kim haqqını verir və Allahdan qorxursa, və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik.*
>
> **(Leyl surəsi, 5-7)**

Həmçinin Allah Quranda qətiyyəti bəyəndiyi əxlaq olaraq bildirir. Kəhf surəsində izah edilən mömin gənclərin əhəmiyyətli xüsusiyyəti, Allahın "onların qəlbinə qüvvət verdik..." olmasıdır. (Kəhf surəsi, 14) Bir başqa ayədə, Allahın elçisini və möminləri "təqva sözünü vacib buyurdu" xəbər verilir. (Fəth surəsi, 26) Başqa ayələrdə də din əxlaqını yaşamaqda qətiyyət göstərmək əmr edilir. Bir ayədə belə deyilir:

> *O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?!*
>
> **(Məryəm surəsi, 65)**

## Özlərini yetərli gördükləri üçün vicdanlarına uymayanlar

İnsanların vicdanlarını təsirsiz hala gətirmək üçün istifadə etdikləri ən əhəmiyyətli faktorlardan biri, özlərini hər mövzuda yetərli görmələridir. Məsələn, din mövzusu soruşulduğunda, dərhal hər kəs özünün təmiz ürəkli olduğunu, heç kimə zərərinin toxunmadığını, dini hisslərinin çox güclü olduğunu söyləyəcək. Halbuki bunlar özünü aldatmaqdan başqa məna daşımaz. Əhəmiyyətli olan Allaha ibadət etmək və Onun istədiyi kimi yaşamaqdır. İnsan bunu etmədiyi müddətcə etdiyi başqa hər şey mənasız, boş və zərərlidir. Etdikləri pislikləri gözəl sanan bu kimi kəslərdən ayədə belə söz edilir:

> *Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, doğru yolla gedən kimsə eyni ola bilərmi? Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir....*
>
> **(Fatir surəsi, 8)**

Bir insanın etdiklərini gözəl və cazibədar görməsinin səbəbi, özünü səhvsiz, nöqsansız, mükəmməl insan kimi görməsidir. Özünün təmiz ürəkli, yaxşı niyyətli və s. olduğunu irəli sürərək Allah qatında yaxşı qul olaraq qəbul edildiyini iddia edənlər, bu vəziyyətdədirlər. Halbuki, həqiqət iddia etdiklərindən çox fərqlidir. Bir ayədə, insanın özünü yetərli görməsinin birbaşa azmasının ən böyük səbəbi olduğu belə bildirilir:

> *Xeyr; həqiqətən insan, azar. Özünü müstağni gördüyündən.*
>
> **(Ələq surəsi, 6-7)**

Müstağni sözünün mənası lüğətdə “yetərli görən, dolğun” olaraq ifadə edilir. Quranda istifadə edildiyi mənası isə, birinin Allaha yaxınlığını, Allah və axirət qorxusunu, əxlaqını, dindarlığını yetərli görməsi və bu səbəbdən daha yaxşısının axtarışına girməməsi şəklindədir. İnsanların çoxu, bu səbəblə Allahın yolundan azar.

Halbuki insanlar hər nə qədər özlərini yetərli görsələr də, əslində vicdanlarında nə qədər əksik olduqlarını, Allahı razı etmək üçün nələri etmədiklərini çox yaxşı bilirlər. Hətta bundan ötrü, ölüm, axirət, qiyamət kimi mövzulardan bəhs etmək istəməzlər. Biri mövzunu açdığında isə dərhal mövzunu bağlamağa və “keflərini qaçırmamağa” çalışırlar. Keflərinin qaçmasının səbəbi, ölümü, cənnəti və cəhənnəmi bilmələrinə baxmayaraq vicdanlarına tabe olmamaları və bu səbəblə çəkdikləri daxili sıxıntıdır.

Vicdanını dinləyən insanın isə özünü yetərli görməsi mümkün deyil. Əksinə həmişə, hər mövzuda daha yaxşısını axtarar, daha çoxunu etməyə çalışar. Çünki vicdanı insana həmişə hesab gününü xatırladır. Öldükdən sonra Allaha dünya həyatı ilə əlaqədar hesab verəcəyini düşünən insan da heç bir zaman etdiklərini yetərli görməz; Yaradıcısı olan Allahın özünə əmr etdiklərini böyük dəqiqliklə tətbiq edər. Quranda Allahın rizası və axirət üçün ciddi səy göstərənlər haqqında belə deyilir:

**Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və Allahın rəhmətindən qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq. Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar. (İsra surəsi, 18-19)**

Şübhəsiz daha əvvəl də üzərində dayandığımız kimi, ancaq vicdana tabe olunduğu təqdirdə Allah yolunda ciddi səy göstərilər. Cahillik anlayışında isə cəmiyyətin ümumisinə görə “orta” əxlaq göstərmək kifayətdir. Bir çox insan adam öldürmə, oğurluq kimi cinayətlər işləmədiyi müddətcə əxlaqının və dindarlığının yetərli olduğunu zənn edər. Ancaq etmədiyi, təxirə saldığı, gözardı etdiyi yüzlərlə əxlaq xüsusiyyəti və ibadət olduğunu düşünməz. Haram olduğu halda dedi-qodu edər, namaz qılmaz, Allahın istədiyi gözəl əxlaqın yaşanması üçün heç bir səy göstərməz, Allahı anmaz ya da çox az anar, özünə verdiyi nemətlər üçün şükür etməz, hətta bunların hamısını öz əməyiylə qazandığını düşünərək qürurlanar, sərf etmədikdə ədalətsiz davrana bilər, yalan söyləyə bilər. Bütün bunlara baxmayaraq özünü yetərli görməsi və axirətdəki hesabdan qorxmaması, vicdansızlığının dəlilidir.

Quranda nümunələri verilən peyğəmbərlər və möminlər isə yüksək vicdanın ən gözəl nümunələrini nümayiş etdirirlər. Dualarında, özlərini yetərli görməyib Allahdan özləri

üçün daha çoxunu istədikləri açıq şəkildə görülür. Məsələn, hz. Yusif Allaha "... Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!" (Yusif surəsi, 101) deyə dua edir. Peyğəmbər olmasına baxmayaraq axirətdən qorxu və ümidlə söz edir. Ancaq cahil insanlar cənnətə gedəcəklərindən əmin olaraq danışarlar. Halbuki özlərini yetərli görüb Allaha qarşı təkəbbürlənən bu insanlar, axirətdə heç gözləmədikləri mühitlə qarşılaşacaq və ziyana uğrayacaqlar:

> *Sonra kimsə deməsin ki: "Allaha qarşı etdiyim etinasızlıqlara görə vay mənim halıma! Həqiqətən, mən dinə və dində olanlara rişxənd edənlərdən idim!" Yaxud deməsin: "Əgər Allah məni doğru yola yönəltsəydi, mən mütləq müttəqilərdən olardım!" Həm də əzabı gördüyü zaman deməsin: "Kaş ki, bir də dünyaya qayıdaydım, yaxşı işlər görənlərdən olardım!" Xeyr! Ayələrim sənə gəlmişdi, sən isə onları yalan saydın, təkəbbür göstərdin və kafirlərdən oldun". Sən Qiyamət günü Allaha qarşı yalan uyduranların üzlərini qapqara görəcəksən. Məgər Cəhənnəmdə təkəbbürlülər üçün yer yoxdur?*
>
> **(Zumər surəsi, 56-60)**

## Vicdana uymamaq üçün irəli sürülən bəhanələr

> *Əslində, insan öz əleyhinə şahidlik edəcəkdir; üzrlü olub-olmadığı bütün halları ortaya qoysa da.*
>
> **(Qiyamət surəsi, 14-15)**

Yuxarıdakı ayələrdə də bildirildiyi kimi, hər insan vicdanla daim doğrunu bilir, ancaq bu doğruları yerinə yetirməmək üçün həmişə bəhanələr irəli sürər. Buna görə də həmişə özünə görə səbəbsiz sıxıntı içindədir. Çünki saxtakarlığı, əxlaqsızlığı, yalançılığı, eqoizmi, qısqanclığı, səhv davranışlar etdiklərini bilə-bilə etmək insanın əslində vicdanının qaldıra bilməyəcəyi yükdür. Ancaq şeytan içlərindəki doğru səsə qulaqlarını tıxayan insanlara, çirkin davranışlar etmələri üçün müxtəlif yollar göstərər. Doğru olanı tətbiq edərək ağıl və ruh cəhətdən rahat həyat yaşamaq varkən, bu kəslər vicdanlarını örtərək çətin olanı seçərlər.

Əlbəttə bu insanlar ayələrdə bildirildiyi kimi "şeytanın addımlarını izləyərkən" doğru yolda olduqlarını iddia edir, etdikləri dinə uyğun olmayan davranışlar üçün bəzi

bəhanələr irəli sürərlər. İnsanların vicdanlarına uymamaq üçün istifadə etdikləri bəhs etdiyimiz bəhanələrdən bəziləri bunlardır:

> *"Mənim qəlbim təmizdir, bundan bir şey olmaz" məntiqi*

İnsanların bir çoxunun özlərinə görə din anlayışları vardır. Bunun səbəbi isə insanların yenə vicdanlarına tabe olmamaq üçün formalaşdırdığı müdafiə etmə mexanizmidir. Bir insan vicdan ilə doğrunun nə olduğunu bilir, amma nəfsi bir tərəfdən də onu səhv olan istiqamətə çəkər. Məsələn, səhv rəftarı etməyə qərar verməkdə çətinlik çəkdiyi zaman dərhal nəfsi dövrəyə girər və müxtəlif bəhanələr irəli sürər. İnsan nəfsini dinləyərək özünü "guya" rahatlaşdırar və çox incə hesablar etməsinin lazım olmadığına, etdiyi şeyin çox bəsit olduğuna, bundan bir şey olmayacağına, ürəyinin onsuz da təmiz olduğuna, adam öldürmədikdən, oğurluq və fırıldaqçılıq kimi qanunsuz hadisələrə girişmədikdən, kimsənin malında-pulunda gözü olmadıqdan sonra yaxşı insan olduğuna özünü inandırar.

İnsanların çoxunun asanlıqla yalan söyləyə bilmələrinin, dedi-qodu etmələrinin, başqalarına lağ etmələrinin arxasında duran səbəb də budur. Hər hansı mövzuda yalan söyləmək insanın vicdanına tamamilə ziddir. Ancaq bundan bir şey olmayacağına, bunların "günahsız yalanlar" olduğuna dair vicdanını razı etməyə çalışaraq zaman keçdikcə içindəki doğrunu söyləyən səsi boğar. Həm dinin tələb etdiyi ibadətləri və hökmləri yerinə yetirməz, həm dinin sahib olduğu əxlaq qaydalarına əməl etməz, həm də çox yaxşı insan olduğunu iddia edər. Bu, son dərəcə səmimiyyətsiz yanaşmadır.

Halbuki vicdana gərəyi kimi əməl edilmədiyi müddətcə insanın axirətdə yaxşı qarşılıq umması qeyri-mümkündür. İnsanların çoxu sahib olduğu "mənim qəlbim təmizdir" məntiqi ilə insan dünyada, "yaxşı adam" olaraq bilinə bilər, ancaq o adam axirətdə gözləmədiyi qarşılıq görə bilər. Çünki din əxlaqı insanlara yalnız adam öldürməmək, oğurluq etməməyi deyil, daha bir çox gözəl əməllər etməli olduğunu əmr edir. Hamısından əhəmiyyətlisi də, yalnız Allaha ibadət etməyi və onun üçün yaşamağı əmr etməsidir. Allah həqiqi "yaxşı insan" ları Quranda belə təsvir edir:

> *"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır.*
>
> **(Bəqərə surəsi, 177)**

İnsanların bir çoxu, özlərinə peyğəmbərləri və ya yuxarıdakı ayədə təsvir edilən "yaxşı insan" modelini nümunə götürəcəkləri yerdə, "dünya tarixində bu qədər zalım, mərhəmətsiz insan varkən mən onlarla eyni yerə layiq deyiləm" məntiqi ilə özlərini aldadarlar. Ancaq bu, məlumatsızlıqdan, Allahı və axirəti tanımamalarından qaynaqlanır. Çünki Allah cəhənnəmi dərəcə-dərəcə yaratmışdır. Bu səbəbdən hər kəs etdiyinin qarşılığını etdiyi qədəriylə alacaq. Ayrıca cəhənnəmin ən üst təbəqəsinin belə dözülməz iztirab qaynağı olduğu gerçəkdir. Üstəlik bu sonsuza qədər bitməyəcək acı olacaq.

Bu səbəblə "bundan bir şey olmaz" deyənlər cəhənnəmi düşünüb təkrar qərar verməli, vicdanlarının nə dediyini dinləməlidirlər.

## Quranı tətbiq edərkən səmimi davranmamaları:

İnsanların çox böyük hissəsinin sahib olduğu yanılma vardır: Quranda xüsusi olaraq nəzərdə tutulmamış bəzi mövzularda vicdani olaraq doğrunu tətbiq etmək yerinə, "bu necə olsa Quranda qadağan olunmamış, etsəm bir şey olmaz" anlayışına sahibdirlər. Halbuki vicdanı doğru olduğuna inanılan bir şeyin, Quranda bəhsi keçmədiyi üçün tətbiq olunmaması saxtakarlıqdan başqa bir şey deyil. Çünki Quranda insana dinin və Allahın razılığına uyğun rəftarın və əxlaqın bütün təməl nöqtələri ətraflı şəkildə verilir. İnsan da ağıl və vicdan sahibi biridirsə, bu təmələ əsaslanaraq, Quranda verilən nümunələri və hadisələri rəhbər edərək bütün həyatını nizamlayar. Məsələn, Allah Quranda inananlara boş şeylərlə maraqlanmamalarını əmr edir:

> *Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!" – deyirlər.*
>
> **(Qəsas surəsi, 55)**

> *O kəslər ki, sözbazlıqdan qaçırlar,*
>
> **(Muminun surəsi, 3)**

Ancaq Quranda əlbəttə, insanın gündəlik həyatı əsnasında qarşılaşdığı şeylərin hansının boş olduğu bir-bir bildirilmir. Allah, boş şeylərin nələr olduğunun təyin olunmasını səmimi qullarının vicdanlarına və ağıllarına buraxmışdır. Hər insan vicdanı ölçüsündə bu mövzuda həssas olmalıdır. Məsələn, vicdanına üz tutan insan, yanında din mövzusunda məlumatı məhdud biri varkən, Allahın varlığı, böyüklüyü, dinin gözəllikləri kimi o adamın əvvəlcə məlumatlandırılması vacib olan mövzuları buraxıb dünyəvi mövzulara yönəlməz. Vicdanı mütləq o adama axirəti üçün ən xeyirli olacaq söhbəti etməsini təlqin edəcək. Eyni şəkildə müsəlman, özünə axirəti baxımından fayda gətirməyəcəyini əmin olduğu şeyləri də etməz; məsələn, faydasız kitabı oxumaz, məqsədsiz proqramı seyr etməz, boş məsləhətləşmələrə və işlərlə başını qataraq Allahı xatırlamaqdan uzaqlaşmaz.

Əlbəttə yuxarıda bəhs etdiklərimiz, gündəlik həyatda qarşılaşılan yüzlərlə nümunədən yalnız bir neçəsidir. Burada diqqət yetirilməli olan ən əhəmiyyətli nöqtə budur: Quranda əmr edilən hökmlərə bağlı qalmaq şərti ilə, insanların həyatları boyunca qarşılaşdıqları hadisələrdə tətbiq etmələri lazım olan rəftarlarda dəyişiklik göstərə bilər. İnsanın qarşısına gün ərzində tez-tez aralarında seçim etməli olduğu alternativlər çıxa bilər. Məhz alternativli vəziyyətlərdə ən doğru olanın hansı olduğuna insan vicdanı ilə qərar verər. Vicdanına uymayan adam isə, "onsuzda bu etdiyim Quranda qadağan edilməyib" məntiqi ilə hərəkət edərək özünü qazancda olduğunu zənn edə bilər. Amma belə adamlar bilməlidirlər ki, Allahın ən razı olacağı rəftarları vicdanlarını dinləyərək tətbiq etmədikcə, axirətdə böyük peşmanlıq yaşayacaqlar. Ən əhəmiyyətlisi də bu insanlar, hesab günü hesaba çəkilərkən burada sığındıqları bəhanələri səbəb göstərə bilməyəcəklər. Çünki Quranda bildirildiyi kimi o gün hər insana; "Kitabını oxu! Bu gün sənə özün-özünü hesaba çəkməyin yetər." (İsra surəsi, 14) deyiləcəkdir. Bu insanlar

dünyada vicdanlarının göstərdiyi doğrulara gözlərini bağlayaraq həyat sürmüşlər, amma hesab günü hər şeyi etiraf edəcəklər:

> *Onlar deyəcəklər: "Ey Rəbbimiz! Sən bizi iki dəfə öldürüb, iki dəfə diriltdin. Biz öz günahlarımızı etiraf etdik. Oddan çıxmağa bir yol varmı?" Onlara deyiləcək: "Bu ona görədir ki, bir olan Allah çağırıldığı zaman siz inkar edirdiniz. Ona şərik qoşulduqda isə inanırdınız. Artıq hökm Uca və Böyük Allahındır".*
>
> **(Mümin surəsi, 11-12)**

> *Cəhənnəm, qəzəbindən az qala parçalansın. Hər dəfə bir dəstə oraya atılarkən Cəhənnəmin gözətçiləri onlardan soruşacaqlar: "Məgər sizə xəbərdarlıq edən bir peyğəmbər gəlməmişdi?" Onlar deyəcəklər: "Əlbəttə, bizə qorxudan bir peyğəmbər gəlmişdi. Amma biz onu yalançı sayıb: "Allah heç bir şey nazil etməyib, siz də ancaq böyük bir azğınlıq içindəsiniz" – demişdik. Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şöləri saçan od sakinlərinin içində olmazdıq!" Onlar öz günahlarını etiraf edəcəklər. Rədd olsun alovlu od sakinləri!*
>
> **(Mülk surəsi, 8-11)**

## *"İnsanların əksəriyyəti belə edir" məntiqi*

İnsanların içinə düşdüyü ən böyük yanılmalardan biri də "əksəriyyətə uymaq"dır. Demək olar ki, hər insanın şüuraltında çoxluğun etdiyinin doğru olduğuna dair qənaət var və belə insanlar ümumiyyətlə rəftarlarını bu çoxluğa görə nizamlayarlar. Halbuki bəhs edilən son dərəcə səhv davranışdır.

Məsələn, insanın yaşadığı çevrədə çoxluğun çox səthi və yanlış din anlayışı ola bilər. İnsanlar Allahın varlığına və axirətə inandıqlarını söyləyərlər, amma bu mövzuda düşünməzlər. Dini dəyərlərə "öz ağıllarına görə" hörmət edərlər, amma bu hörmətlərini tətbiq etməklə deyil, sözlə ifadə edərlər. Dinin bir çox əmrinin keçmiş dövrlər üçün keçərli olduğunu, bu gün üçün keçərli olmayacağını düşünürlər. Bu anlayışa görə isə yuxarıda da bəhs etdiyimiz kimi, insanın ürəyinin təmiz olması, kimsəyə pislik

etməməsi "dindar" olması üçün kifayətdir. İbadətlərə gəldikdə; qocalanda onsuz da ediləcəkdir.

Bəli, bir adamın ətrafındakı hər kəs belə yanlış anlayışa sahib ola bilər. Bu vəziyyətdə insanın təsvir edilən anlayışa uyması, öz vicdanına üz tutaraq düşünməməsi insanın özünü aldatmasından başqa bir şey deyil. Çünki çoxluğun hər zaman doğru qərar verdiyini, doğru düşüncəyə sahib olduğunu göstərən heç bir dəlil yoxdur. Əksinə, Allah Quranda "çoxluğa tabe olmaq" ilə əlaqədar bunu bildirir:

*Əgər sən yer üzündə olanların əkşəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar.*

**(Ənam surəsi, 116)**

Bu səbəblə, insanın davranışlarında, xüsusilə dini yaşamasında və Quranı tətbiqində ona yol göstərən tək ölçü vicdanı olmalıdır. Vicdanının istiqamətləndirməsi ilə hərəkət edən adam, çoxluğun nə dediyini və ya nə etdiyini qətiyyən göz qarşısında saxlamaz. Tək də qalsa vicdanının səsini dinləyər və Allahın kitabına, yəni Qurana əməl edər.

Bu vəziyyəti hər kəs öz üzərində düşünməlidir. "Çoxluğa uyma" psixologiyası hər insan üçün təhlükə meydana gətirə bilər. Məsələn, biri bu ana qədər oxuduqlarıyla vicdanında bəzi gerçəkləri fərq edərək tətbiq etmək qərarı almış ola bilər. Ancaq ətrafındakıların mövqeyi və baxış bucağı adama heç vaxt təsir etməməlidir. Hər kəs öz vicdanının və Quranın əmr etdiklərini tətbiq etməklə mükəlləfdir. Bu unudulmamalıdır ki, Allah qullarını mütləq sınayar. Vicdanıyla verdiyi doğruqərardan insanı imtina etdirməyə çalışan başqa adam, Allahın özünü sınamaq üçün qarşısına çıxardığı yaxını da ola bilər. Ancaq axirətdə insanlar belə yaxınları ilə əlaqədar olaraq bunları söyləyəcəklər:

*Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı". Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır.*

**(Furqan surəsi, 28-29)**

*"Gələcəkdə edəcəyəm" məntiqi*

İnsanların əksəriyyəti Allaha və Qurana inandıqlarını, ancaq ibadətləri ahıl yaşlarında yerinə yetirəcəklərini söyləyərlər. Həccə getmək, təsəttür, namaz qılmaq kimi ibadətlər demək olar ki, hər kəs tərəfindən yaşlılıq dövrünə təxirə salınır. Bunun şüuraltındakı səbəbi, insanın özünü dinə həsr etməsi ilə birlikdə bütün dünyəvi zövqlərdən məhrum olacağını zənn etməsidir. Halbuki Allah Quranın bir çox ayəsində dünya nemətlərini möminlərə həm dünyada, həm də axirətdə təqdim etdiyini bildirir:

*... İnsanlar arasında: "Ey Rəbbimiz! Bizə verəcəyini elə bu dünyada ver!" – deyənlər vardır. Belə şəxslərin axirətdə heç bir payı yoxdur. Onlardan: "Ey Rəbbimiz! Bizə həm bu dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi Od əzabından qoru!" – deyənləri də vardır. Belələri üçün qazandıqları əməllərə görə bir pay vardır. Allah tez haqq-hesab çəkəndir.*

**(Bəqərə surəsi, 200-202)**

Bundan əlavə başqa ayədə, bütün nemətlərin əslində möminlər üçün olduğu müjdələnir:

*De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında hamıya, Qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə izah edirik.*

**(Əraf surəsi, 32)**

Həmçinin insanın bir nemətdən həqiqi mənada zövq ala bilməsi üçün o insanın ruhən hüzurlu olması lazımdır. Vicdani narahatlıq içində olan insan, hər cür nemət içində olsa da heç bir şeydən zövq ala bilməz. Bu səbəblə dünya həyatını özlərinə görə doyunca yaşaya bilmək üçün vicdanlarına uymayanlar və ya vicdanlarının əmr etdiklərinin vaxtını uzadanlar, böyük səhvə yol verirlər.

Bu yanılma içərisindəki insanlar, doğrunu əslində bilirlər və vicdanlarının əmr etdiklərinə uyduqlarında bütün həyatlarını buna görə tənzimləməli olacağının da fərqindədirlər. Məsələn, namaz qıldıqları zaman vicdanlarının səsi daha da üstələməyə başlayacaq. Etdikləri pisliklər və vicdansızlıqlar diqqətə çarpacaq. Necə ki, ayədə, namazın insanları doğru yola yönəltdiyi belə bildirilir:

> *Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə ibadətlərin ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir.*
>
> **(Ənkəbut surəsi, 45)**

Bəzi insanlar bu həqiqəti anladıqları üçün, ibadətlərin gətirdiyi vicdani məsuliyyətlərdən özlərinə bəhanə taparaq xilas olmağa çalışırlar. Allahın qəti olaraq əmr etdiyi bu hökmləri inkar edə bilməz, amma gələcəkdə hamısını edəcəklərinə dair özlərinə və ətraflarına vəd verərlər.

Təxirə salma yalnız ibadətlər üçün keçərli deyil. Günlük həyatda qarşılaşılan hər hadisədə vicdanın əmr etdiyi doğrular təxirə salınır. İnsanlarda həmişə "hələlik belə edim, sonrakı səfərə düzəldərəm" məntiqi vardır. Halbuki Allah insanın təxirə saldıqlarını da hesab günündə qarşısına çıxaracaq:

> *O gün qayıdış ancaq sənin Rəbbinə olacaqdır. O gün insana əvvəllər etdiyi və sonraya saxladığı əməlləri barədə xəbər veriləcəkdir.*
>
> **(Qiyamət surəsi, 12-13)**

Təxirə salmaq ancaq axirəti və ölümü düşünməyən, özlərinə yaxın buraxmayan insanlara məxsus davranışdır. Hər şeydən əvvəl insan nə zaman, harada və nə şəkildə öləcəyini bilmir. Məsələn, indi bu kitabı oxuyan adam özünü təhlükəsizlikdə hiss edə bilər. Ancaq qəflətən meydana gələ biləcək hadisə və ya bu kitabı oxuduqdan yarım saat sonra minəcək avtomobilin qəza keçirməsi, pilləkənlərdən enərkən təzyiqinin düşməsi və aşağı diyirlənməsi asanlıqla ölümünə səbəb ola bilər.

Yaxşı, ölüm vaxtlarını bilmədikləri halda bəzi insanlar necə vicdanlarının əmr etdiklərini bu qədər asan təxirə sala bilirlər? Halbuki Allah qəti olaraq bildirir ki, ölüm mələyini qarşısında görən hər insan təxirə saldığı şeylərdən ötrü böyük peşmançılıq duyacaq və "kaş ki, hamısını etsəydim" deyəcək. Bu, tərifi mümkün olmayan və əsla dönüşü də olmayan peşmanlıqdır:

> *Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcəkdir: "Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı"..."*
>
> **(Furqan surəsi, 27-29)**

Həmçinin Allahın verəcəyi cəzanın təxirə salınmış olması da insanları yanıldır. Əgər Allah edilən hər vicdansızlığın qarşılığını dərhal versəydi, insanlar bir dəfə cavab aldıqdan sonra bir daha vicdansızlıq etməzdilər. Ancaq cəzanın uzadılmış olması insanların haqqa tabe olmadıqlarının ortaya çıxmasını təmin edir və sınaq mühiti bu cür yaradılır. Allahın əzabı ertələməsi, bunu layiq olanların ən şiddətli əzabla qarşılıq görmələri ilə yanaşı insanlara dünyada ikən tövbə etmə imkanı olması baxımından da əhəmiyyətlidir. Bu, Allahın sonsuz mərhəmətinin təcəllisidir. Bir ayədə belə bildirilir:

> *Əgər Allah insanları etdikləri günahlara görə dərhal cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı. Lakin Allah onlara müəyyən vaxtadək möhlət verir. Vaxtları çatanda isə hər kəsə öz əməlinə görə cəza, yaxud mükafat verəcəkdir. Şübhəsiz ki, Allah Öz qullarını görür.*
>
> **(Fatir surəsi, 45)**

Buna görə Allahın edilən vicdansızlıqlara dərhal cavab verməməsi insanları aldatmamalıdır, çünki hər birinin qarşılığı axirətdə əskiksiz olaraq veriləcək. Allah bu yanlış məntiqdə olanları ayədə belə xəbər verir:

> *... və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir.*
>
> **(Mübarizə surəsi, 8)**

## Hesab günündə heç bir bəhanə keçərli olmayacaq

Bunu unutmamaq lazımdır; insanlar axirəti düşünmədikləri üçün dünyada hər cür bəhanələrlə, yalanlarla vicdanlarını rahatlaşdırmağa çalışa bilərlər. Bu onlara müvəqqəti rahatlıq təmin edə bilər və vicdanlarının əmr etdiyi həqiqətlərdən qısa

müddət də olsa qaçmalarına səbəb ola bilər. Ancaq unutduqları bir şey var ki, o da Quranda belə bildirilir:

> *Bilik və iman nəsib edilmiş kimsələr isə deyəcəklər: "Siz orada Allahın yazısı ilə Dirilmə gününə qədər qaldınız. Bu gün, məhz Dirilmə günüdür, lakin siz bunu bilmirdiniz". Həmin gün zalımlara bəhanələri fayda verməyəcək və onlardan tövbə etmələri tələb olunmayacaqdır.*
>
> **(Rum surəsi, 56-57)**

Vicdanlarını bəhanələrlə susduranların sonu, başqa ayədə belə xəbər verilir:

> *O gün zalımlara üzr diləmələri heç bir fayda verməyəcəkdir. Onları həm lənət, həm də pis yurd gözləyir.*
>
> **(Mömin surəsi, 52)**

FƏSİL 2

# Vicdanlı insanların dünyada yaşadıqları ortam və Cənnət



İnsanların çoxunda din əxlaqını tətbiq etməyin, fədakarlıq etməyin, dürüst olmağın, qısacası vicdana tabe olaraq davranmağın insana bəzi şeyləri itirdəcəyinə dair səhv inanc vardır. Halbuki bu çox böyük yanılmadır. Hər şeydən əvvəl, Allah Quranda, əmrinə tabe olub gözəl davranış göstərənlərə sonsuz cənnət həyatı vəd etmişdir. Bu, qazancların ən böyüyüdür. Ancaq bilinməlidir ki, Allah iman gətirənlərə sonsuza qədər tükənmədən davam edəcək olan bu fövqəladə həyatla yanaşı, dünyada da gözəl həyat yaşayacaqlarını ifadə edir:

> *Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.*
>
> **(Nəhl surəsi, 97)**

> *Müttəqilərə: "Allah nə nazil etmişdir?" – deyildikdə, onlar: "Xeyir nazil etmişdir!" – deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir!*
>
> **(Nəhl surəsi, 30)**

Allah dünyada möminlərə həm maddi, həm mənəvi cəhətdən zənginlik verir. Bu, bir çox adamın gözardı etdiyi, ya da fərqinə belə varmadığı həqiqətdir. Hətta möminlərin dünyada həmişə yoxluq içində yaşadığı kimi səhv anlayış yayılmışdır xalq arasında. Halbuki bir çox Quran ayəsində Allahın tarix boyunca möminlərə verdiyi zənginlik və güc bildirilmişdir. Məsələn, Allah hz. Məhəmməd (s.ə.v)-ə "Yoxsul ikən səni tapıb dövlətli etmədikmi?" (Duha surəsi, 8) ayəsini nazil etdi. Həmçinin Quranda Allahın hz. Süleymana, hz. Davuda, hz. Yusifə, hz. Zülqərneynə və hz. İbrahimə bu dünyada böyük mülk bəxş etdiyindən bəhs edilir, bütün inananlara keçmişdəkilərə verilən imkanların veriləcəyi də müjdələnilir.

Zənginlik, ehtişam, gözəllik, estetika cənnətin xüsusiyyətləridir. Vicdanına uyan kəslərin ən böyük hədəfləri isə Allahın razılığını və cənnətini qazanmaqdır. Allah bu kəslərə, böyük həsrət duyduqları cənnəti xatırlatmaq və cənnətə olan arzularını artırmaq üçün onlara zənginlik və ehtişamı dünyada da yaşadar. Həmçinin Allah vicdan sahibi, seçilmiş və şərəfli insanların dünyada digər şəxslərə qarşı hər istiqamətdən üstün və güclü olmalarını da istəyir.



Ancaq bunu da qeyd etmək lazımdır ki, Allah dünya həyatındakı imtahanın gərəyi olaraq bəzi qullarına burada zənginlik verməyə bilər. Belə vəziyyətdə də möminlər Allahın dilədiyi adama, dilədiyi qədər ruzi verdiyini bilir və olduqları vəziyyətdən razı olurlar. Axirəti düşündükləri üçün qısa dünya həyatındakı heç bir şərt onları çətinliyə salmaz. Hər cür vəziyyətdə Allaha şükür edərək, axirəti istəyərlər. Quranda bu həqiqət belə bildirilir:

> *Allah istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür.*
>
> **(Rad surəsi, 26)**

Dünyadakı maddi zənginlik və rifahla yanaşı Allah bu üstün əxlaqlı kəslərə əsl olaraq mənəvi rifah verir. Bu kəslər vicdanlarından istifadə etmələrinə və Allahın razılığını axtarmalarına cavab olaraq, insan üçün ən əhəmiyyətli xüsusiyyətlərdən biri olan hüzura sahibdirlər. Ruhlarında heç bir sıxıntı və qarışıqlıq olmaz. Dürüstlüyün və səmimiyyətin rahat və etibarlı halını yaşayarlar. Allahdan başqa heç kimdən qorxmadıqları və çəkinmədikləri üçün çətinlik, narahatlıq, qorxu kimi hissləri yaşamazlar. Dünyəvi ehtiraslarının, qısqanclıqlarının, eqoizmlərinin olmaması onların xoşbəxt, rahat və şən olmalarını təmin edər.

Allah bir çox ayəsində o nicat tapanları, yəni qurtuluş və xoşbəxtlik içində olanları belə bildirir:

> *... Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.*
>
> **(Həşr surəsi, 9)**

> *Günahlardan təmizlənən kimsə isə uğur qazanmışdır. O kimsə ki, Rəbbinin adını xatırlayıb namaz qılmışdır.*
>
> **(Əla surəsi, 14-15)**

> *Namaz başa çatdıqdan sonra yer üzünə dağılıb Allahın lütfünü axtarın və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız.*
>
> **(Cümə surəsi, 10)**

Vicdan sahibi kəslər yalnız özləri kimi gözəl xasiyyətli insanların yanında rahatlıq tapa bilər. Çünki insanın başqası ilə dost ola bilməsi üçün onun əxlaqından və xarakterindən xoşlanması lazımdır. Vicdan isə yalnız vicdanlı rəftarlardan zövq alır. Nəfsindəki istək və ehtiraslara uyan kəslərin qərarları, rəftarları, söhbətləri həmişə Allahdan uzaq olar. Allaha yaxınlaşmaq üçün səy göstərən insan isə belə mühitdən uzaq durar, Allahın məmnun olacağı mühitlərdə olmağı istəyər. Belə ki, Allahın əmri də budur:

> *Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!*
>
> **(Kəhf surəsi, 28)**

Əslində vicdanlı insanın meyarı cənnətdir; cənnətə böyük həsrət duyduğuna görə dünyadakı şərtlər üçün də oradakı ortamın bənzərini meydana gətirməyə çalışar. Cənnətdəki insanlarla necə danışılarsa möminlərlə elə danışar, cənnətdəki nemətlərə baxan insanın üz ifadəsi necədirsə, o baxışdan istifadə edər, cənnətdə söyləyə bilməyəcəyi sözü söyləməz, cənnətdə düşünə bilməyəcəyi pisliyi düşünməz. Həmçinin cənnət necə hər istiqamətdən, maddi və mənəvi olaraq qüsursuz təmizliyə sahibdirsə, dünya şərtlərində də mümkün ola biləcək ən çox təmizliyi yaradar; cənnətdə olmayacaq, cəhənnəmə xas bütün xüsusiyyətlərin hamısını dünyada da aradan qaldırmağa çalışar.

Bu səbəbdən vicdanına tabe olmaqla insan özünü cənnətdəki həyatına hazırlayır və cənnətə layiq olmaq üçün təhsil alır deməkdir. Bir ayədə Allah, gözəl davranış göstərənlərin cənnətdəki yerlərini hazırladıqlarını belə bildirir:

> *Kim küfr edərsə, küfrü öz əleyhinə olar. Yaxşı iş görənlər isə özləri üçün Cənnətdə yer hazırlamış olarlar.*
>
> **(Rum surəsi, 44)**

## Vicdanlı insanların gerçək məkanı: Cənnət

Allah, dünyada maddi və mənəvi gözəlliklər verdiyi vicdan sahibi kəsləri, ölümlərindən sonra əsl məkanları olan cənnətlə müjdələyir. Cənnət, dünya tarixi boyunca içlərindəki "doğruya yönəldən səs"ə uymuş, vicdanı ən yüksək olan kəslərin bir yerə gəldikləri məkandır. Cənnətdə vicdana zidd nə bir söhbət, nə bir baxış, nə də bir rəftar olmayacaq. Cənnət ortamına dünyada işlədikləri xeyirlərin qarşılığını ən gözəliylə almış olan kəslərin sevinci və xoşbəxtliyi hakim olacaq və bu mühit sonsuza qədər davam edəcək. Cənnətin gözəlliyi, Yasin surəsində belə izah edilir:

> *Bu gün heç kəsə heç bir haqsızlıq edilməyəcəkdir. Sizə ancaq etdiyiniz əməllərin əvəzi veriləcəkdir. Həqiqətən də Cənnət əhli həmin gün nemətlər içində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər. Orada onlar üçün meyvələr və istədikləri hər şey vardır. Üstəlik Rəhmli Rəbb onlara: "Salam" deyəcək.*
>
> **(Yasin surəsi, 54-58)**

FƏSİL 3

# Vicdanına tabe olmayan kəslərin yaşadıqları ortam və Cəhənnəm



Vicdanlı insanların dünyadakı həyatlarından bəhs edərkən, cəmiyyətin böyük əksəriyyətində vicdana uymanın insanın maraqlarını zədələyəcəyi kimi inancın yayılmış olduğunu ifadə etmişdik. Bu səbəbdən bu yanlış məntiqə sahib kəslər vicdanlarına uymayaraq istək və ehtiraslarını təmin edə biləcəklərini, mənfəətlərini qoruya biləcəklərini və beləcə qazanc əldə edəcəklərini zənn edərlər. Dünya həyatındakı səhvlərinin ən böyüklərindən biri budur və bu azğın inancları səbəbiylə həm dünyanı, həm də axirəti itirərlər.

Dünyanı itirərlər, çünki hər şeydən əvvəl vicdana uymanın verdiyi böyük daxili sıxıntı yaşayarlar. Vicdan Allahın əmrindədir və insanın idarəsindən tamamilə uzaqdır. Bir insan öz içində nə qərar verərsə versin, nəyə meyil göstərərsə göstərsin, vicdanı onu əsla buraxmaz və hər vəziyyətdə doğrunu söyləyər. Bir tərəfdən doğrunun nə olduğunu dinləyib bir tərəfdən də buna tabe olmamaq böyük “vicdan əzabı” doğurar. “Vicdan əzabı” digər çətinliklərin heç birinə bənzəməz. Bu, Allahın insanlara etdiklərinin əvəzi olmaq üzrə və eyni zamanda səhvlərini düzəltmələri üçün fürsət olaraq verdiyi çətinlikdir. Quranda vicdanlarına uymadıqları üçün çətinlik çəkən və bu çətinliyə dözə bilməyərək tövbə edən üç adamdan xüsusilə bəhs edilir:

> *Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir*
>
> **(Tövbə surəsi, 118)**

Quranda, çəkdiyi vicdan əzabı nümunə verilənlərdən biri də Allahın təriflədiyi elçisi olan hz. Yunisdir. Hz. Yunis, qövmü ona qulaq asmadıqda onları tərk etmişdir. Lakin bir müddət sonra qövmünü tərk etməsinin səhv olduğunu başa düşərək böyük peşmançılıq hiss etmiş və Allaha tövbə etmişdir. Allah tövbəsini qəbul edərək onu təkrar peyğəmbər

olaraq qövmə göndərmişdir. Bu qiymətli insanın hiss etdiyi vicdan əzabı Quranda müxtəlif ayələrdə belə təsvir edilir:



*Zün-Nunu da yada sal! Bir zaman o qəzəbli qövmündən ayrılıb getmiş və ona gücümüz çatmayacağını güman etmişdi. Sonra da zülmətlər içində yalvarıb demişdi: "Səndən başqa ibadətə layiq olan heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!" Biz onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Biz möminləri belə xilas edirik!*

**(Ənbiya surəsi, 87-88)**

*Sən öz Rəbbinin hökmünə səbir et və balıq sahibi Yunis kimi olma! O zaman o, qəm-qüssə içində Rəbbinə dua etmişdi. Əgər Rəbbinin mərhəməti ona yetişməsəydi, o, qınanmış halda heç bir bitki bitməyən boş yerə atılacaqdı.*

**(Qələm surəsi, 48-49)**

Yalnız xüsusilə qeyd etmək lazımdır ki, yuxarıda verilən hər iki nümunədə də, vicdan əzabından ötrü tövbə edərək bu vəziyyətlərindən xilas olan möminlər vardır. Bu nümunələrdən aydın olduğu kimi, insanın hüzur tapa bilməsi üçün vicdanına uyması, səhv etdiyində tövbə edərək Allaha yönəlməsi şərtdir. Əks rəftar göstərən şəxslərin həyatları boyunca "içlərinin kədərlə dolu olması", "kədər" içində yaşamaları qaçınılmaz vəziyyətdir.

Ancaq buna baxmayaraq insanların çox böyük qismi duyduqları vicdan əzabına baxmayaraq haqqa qarşı müqavimət göstərən mövqelərini davam etdirər, vicdanlarına tabe olmazlar. Ümumiyyətlə, daha əvvəl bəhs etdiyimiz vicdanı təzyiq altına alma, təxirə salma və bəhanələr irəli sürmə kimi üsullarla içlərindəki səsi boğmağa çalışırlar. Allah vicdanlarına tabe olmayan, ürəyi İslama və dinə qarşı laqeyd olanların daxili sıxıntılarını, yaşadıqları mənəvi boşluq və sahibsizlik hissini Quranda belə bildirir:

... Kim Allaha şərik qoşsa, sanki o, göydən düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar. (Həcc surəsi, 31)

> *Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar.*
>
> **(Ənam surəsi, 125)**

Yaşadıqları bu daxili sıxıntı ilə yanaşı, həm də ruhları heç cür rahatlıq tapa bilmir. Dünya şərtləri içində sahib ola biləcəkləri ən çox mənfəəti əldə etsələr belə bununla məmnun olmazlar. Hər zaman doyumsuzluq və əskiklik hiss edərlər. Çünki Allah insanın ruhunu yalnız vicdanına uymaqla, Allahın razılığını qazanmaqla təmin olacaq şəkildə yaratmışdır. Bir ayədə belə deyilir:

> *Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.*
>
> **(Rad surəsi, 28)**

Yuxarıdakı ayədən də aydın olduğu kimi, ancaq Allaha yönələn, Onu anan və Onun özlərinə yol göstərici olaraq hədiyyə etdiyi vicdana uyan kəslər dünyada rahatlıq tapa bilərlər.

Həmçinin vicdanlı birinin ətrafında necə həmişə vicdanlı kəslər olarsa, vicdanına uymayan kəslər də yenə vicdanına uymayanlarla birlikdə olmağa məhkumdur. Belə şəxslərin ətrafında həmişə "şeytanın ardınca düşmüş", vicdanına uymayan insanlar və bunların meydana gətirdiyi sıxıntı verici mühit meydana gələr. Əslində həqiqəti bildikləri halda tətbiq etməyənlər, fədakarlıq etməyi çirkin görənlər, ədalətsizlik edənlər, qısqanc davrananlar, insanlarda gördükləri əskikliklərə lağ edənlər, təkəbbürlülər və bunlar kimi hər cür pis əxlaqı tətbiq edənlər, eyni rəftarlarla qarşılıq görürlər. Hər şeydən əvvəl, vicdanın deyil, mənfəətlərin meyar olduğu ortam son dərəcə etibarsızdır. Belə mühit hər kəs üzərində böyük narahatlıq yaradır. İnsan kimdən nə görəcəyini bilməz. Həqiqi dost heç vaxt tapa bilməz. Həqiqi vəfa və sədaqəti tapa bilməz. Fədakar rəftar heç bir zaman meydana gəlməz. İnsanlar həmişə özlərinə qarşı

insaniyyətlə və incə düşüncəli davranılmasını istəyərlər. Ancaq belə ortamda, nə özləri başqalarını düşünər, nə də başqaları onları düşünər.

Beləcə dünyada maddi və mənəvi hər istiqamətdən cəhənnəm mühitini yaşayarlar. Üstəlik, içində olduqları çətin vəziyyətin bəzən özləri belə səbəbini anlaya bilməzlər. Allahdan vicdana uymamanın cəzası olaraq, heç cür məmnun olmayan, hüzur verməyən, gözəl tərəfləri olmayan həyatı yaşayarlar. Ancaq bu, yalnız dünyada yaşadıqları əzabdır. Axirətdə qarşılaşacaqları sonsuz əzab əlbəttə dünyadakı ilə müqayisə edilə bilməyəcək dərəcədə qorxunc və dəhşətli olacaq. Dünyada vicdansızlıq edənlərin axirətdə görəcəkləri qarşılıq Quranda belə bildirilir:

> *O gün heç kəs Allahın verdiyi əzab kimi əzab verə bilməz və heç kəs Onun buxovladığı kimi buxovlaya bilməz.*
>
> **(Fəcr surəsi, 25-26)**

Əhəmiyyətlə ifadə edilməli olan nöqtə daha vardır: Vicdanlı insanlar necə cənnətdəki yerlərini hazırlayırlarsa, vicdansızlar da eyni şəkildə cəhənnəmdəki yerlərini hazırlayırlar, amma özləri bunun şüurunda deyildirlər:

> *Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Əgər artıq müəyyən etdiyimiz bir vaxt olmasaydı, əzab onlara gələrdi. O əzab onlara qəflətən, özləri də hiss etmədən gələcəkdir. Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Şübhəsiz ki, Cəhənnəm kafirləri bürüyəcəkdir. O gün əzab onları başlarının üstündən və ayaqlarının altından əhatə edəcəkdir. Allah deyəcəkdir: "Etdiyiniz əməllərin cəzasını dadın!"*
>
> **(Ənkəbut surəsi, 53-55)**

FƏSİL 4

# Qurandan vicdan və vicdansızlıq nümunələri



İnsanlardan soruşduqda bir çoxu özlərini son dərəcə vicdanlı kəslər olaraq adlandırarlar. Kimsə "vicdansız" xüsusiyyətini özünə yaraşdırmaz. Ancaq vicdan mövzusunda da digər bütün mövzularda olduğu kimi tək ölçü Qurandır. Quranda Allah, keçmişdə yaşamış topluluqlardan bir çox hadisələr və söhbətlər çatdırır. Bu hadisələrin hər biri insanlara xüsusilə bildirilir. Çünki bunların hər birində insanlar üçün ibrətlər, nəsihətlər var. Kitabın bu hissəsində, Quranda çatdırılan bu nümunələrə yer veriləcəkdir. Bunun məqsədi, vicdanına tabe olan və olmayan insanlar arasındakı fərqi daha da diqqətə çatdırmaq və həqiqi vicdan sahibi kəsləri daha yaxşı tanıma imkanını təmin etməkdir. Vicdanını tam olaraq istifadə edən insanlara ən gözəl nümunələr Allahın elçilərindədir. Allah Quranda bunu belə bildirir:

> *Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.*
>
> **(Əhzab surəsi, 21)**

Allah başqa ayələrdə isə hz. İbrahim və hz. İsanı nümunə olaraq verir.

> *O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur.*
>
> **(Zuxruf surəsi, 59)**

> *İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır…*
>
> **(Mumtəhənə surəsi, 4)**

Allah, elçilərin qissələrinin insanlara öyüd olduğunu Yusif surəsində də belə bildirir:

> *Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.*
>
> **(Yusif surəsi, 111)**

Bu səbəblə, Quranı oxuyan hər kəs, elçilərlə əlaqədar hadisələri öyrəndiyində, özününküylə onların vicdanlarını, rəftarlarını və Allah üçün etdiklərini müqayisə etməli və onlar kimi əxlaq göstərmək üçün ciddi səy göstərməlidir.

Quranın bir çox ayəsində mübarək Peyğəmbərimiz hz. Məhəmmədin vicdanlı rəftarına və hər cür çətinlik və sıxıntı qarşısında gözəl əxlaqından əsla güzəştə getməməsinə diqqət çəkilir. Peyğəmbərimiz hz. Məhəmmədin qövmünə etdiyi təbliğdə, inkar edənlərə verdiyi cavablarda, özünə atılan böhtanlar qarşısında göstərdiyi rəftarlarda iman edənlər üçün çox gözəl nümunələr vardır. Peyğəmbərimiz (s.ə.v)-in bu vicdanlı və üstün rəftarlardan biri də Tövbə surəsində bildirilir. Hz. Məhəmməd (s.ə.v)-in Məkkədən çıxarıldığı dövrdə, inkarçıların çətin təzyiqləri qarşısında göstərdiyi əxlaq ayədə bu şəkildə bildirilir:

> *Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir.*
>
> **(Tövbə surəsi, 40)**

Ayədə də bildirildiyi kimi hz. Məhəmməd (s.ə.v) yanındakı adama dərhal Allahın varlığını, Allahın onlarla birlikdə olduğunu xatırlatmışdır. Allah bu vicdanlı rəftarının qarşılığı olaraq onu görünməz əsgərlərlə müdafiə etmiş və kafirlərə qarşı zəfər vermişdir.

Quranda vicdanlı və təqva sahibi insanlara elçilərdən başqa bəzi möminlər də nümunə verilmişdir. Hz. Məryəm, Fironun arvadı və Fironun zülmünə baxmayaraq hz. Musaya

itaət edən kəslər, bu saleh insanlara bəzi nümunələrdir. Sonrakı səhifələrdə, bu kəslərin də vicdanlarına uyaraq sərgilədikləri əxlaq gözəlliklərindən bəhs edəcəyik.



Səmimiyyətləri sayəsində Allah Qatında üstün yerləri olan bu insanlarla yanaşı, Quranda, vicdanına uymayan insanların rəftar və danışıqlarından da nümunələr verilir. Bunlardan da bəzi nümunələr verəcəyik. Bu pis nümunələri oxuyarkən diqqət edilməli şey isə, bəhsi keçən danışıqların və ya rəftarların zəmanəmizdə necə ortaya çıxa biləcəyini düşünmək və bunların hər birindən çəkinməkdir.

## Hz. Nuhun dinə dəvəti

Peyğəmbərlərin həyatları boyunca dini böyük səbirlə və səylə izah etmələri, hər cür şərtdə əsla güzəştə getməmələri, onların vicdanlarına uymalarının nəticəsidir. Məsələn, hz. Nuh Quranda, etdiyi təbliğ ilə nümunə verilən peyğəmbərlərdəndir. Quranda hz. Nuhun qövmünü gecə-gündüz Allahın yoluna çağırdığı, onların məsxərələrinə, zülmlərinə baxmayaraq, hər kəsi Allahın əzabı ilə xəbərdar edib qorxutduğu bildirilir:

> *O dedi: "Ey Rəbbim, mən xalqımı gecə də, gündüz də dəvət etdim. Amma dəvətim onların haqdan qaçmalarını daha da artırdı. Sən onları bağışlayasan deyə mən hər dəfə onları imana dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. Sonra mən onları aşkarcasına dəvət etdim. Sonra mən onlara həm uca səslə, həm də gizlicə bildirib dedim: "Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır!*
>
> **(Nuh surəsi, 5-10)**

Yuxarıdakı ayələrdə bildirildiyi kimi hz. Nuhun danışığından da aydın olacağı kimi hz. Nuh, vicdanının ona əmr etdiyi hər şeyi tətbiq etmişdir. Gecə-gündüz qövmünü dinə dəvət etməsi, bunu edərkən də gizli və açıq yolları sınaqdan keçirməsi onun bu mövzudakı ciddi və səmimi səyini göstərir. Qövmünün hz. Nuha verdiyi cavab isə Quranda belə bildirilir:

> *Onlardan əvvəl Nuh qövmü elçiləri yalançı hesab etmişdi. Onlar qulumuzu yalançı sayıb: “O, dəlidir!” – dedilər və ona hədə-qorxu gəldilər.*
>
> **(Qəmər surəsi, 9)**

Qövmünün azğın rəftarına cavab olaraq Allah hz. Nuha belə vəhy etmişdir:

> *... daha əvvəl iman gətirənlər istisna olmaqla artıq heç kəs iman gətirməyəcək. Elə isə onların etdikləri əməllərə görə kədərlənmə. Gözlərimizin önündə və vəhyimiz üzrə gəmini düzəlt. Zalım olanlardan ötrü Mənə müraciət etmə. Şübhəsiz ki, onlar suda batırılacaqlar”.*
>
> **(Hud surəsi, 36-37)**

Allahın köməyi gələnə qədər hz. Nuh qövmünə təbliğ etmişdir. Bu şübhəsiz böyük səbir tələb edir. Hz. Nuhun qarşılaşdığı bütün çətinliklərə baxmayaraq dini təbliğ etməkdən əsla imtina etməməsi onun vicdanının göstəricisidir.

Quranda zikr edilən peyğəmbərlərin hamısı eyni qətiyyət və səbirlə qövmlərini dinə dəvət etmişlər. Allah bu saleh qullarına Öz qatında hikmət, izah etmə qabiliyyəti və elm verərək onları gücləndirmişdir. Hər birinin təbliği möminlərin hidayətinə vəsilə olarkən, inkar edənlərin də saxtakarlıqlarını ortaya çıxarmışdır. Allah, elçiləri vasitəsi ilə haqqı batilin üzərinə ataraq, batilin beynini darmadağın etmişdir. Bu dəyişməz İlahi qanun ayədə belə açıqlanır:

> *Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza!*
>
> **(Ənbiya surəsi, 18)**

## Hz. İbrahim "tək başına ümmət idi"

> *Həqiqətən, İbrahim Allaha müti, hənif bir rəhbər idi. O, müşriklərdən deyildi. O, Allahın nemətlərinə şükür edən idi. Allah onu seçmiş və doğru yola yönəltmişdi. Biz ona dünyada gözəl nemət verdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdəndir. Sonra sənə vəhy etdik: "Hənif İbrahim dininə tabe ol. O, müşriklərdən deyildi".*
>
> **(Nəhl surəsi, 120-123)**

Daha əvvəlki səhifələrdə hz. İbrahimin inkar edənlərlə olan mübarizəsindən bəhs edilmişdi. Hz. İbrahim inkar edənlərlə mübarizə apararkən yuxarıdakı ayələrdə də bildirildiyi kimi tək başınaydı. Ətrafında ona köməkçi ola biləcək, onu maddi və mənəvi istiqamətdən dəstəkləyəcək heç kim yox idi. Əlbəttə ki, insanın tək başına, ətrafındakı ən azğın insanları qarşısına alaraq, ölüm təhdidlərinə belə məhəl qoymadan Allahın dinini izah etməsi, o adamın vicdanının nə qədər güclü olduğunun göstəricisidir. Belə ki, qövmü hz. İbrahimi atəşə ataraq yandırmaq istəmiş, ancaq Allah hz. İbrahimə kömək etmiş, onu qorumuşdur:

> *Onlar dedilər: "Əgər ondan əvəz çıxmaq istəyirsinizsə, onu yandırın ki, məbudlarınıza kömək edəsiniz". Biz: "Ey od! İbrahim üçün sərin və zərərsiz ol!" – dedik. Onlar İbrahimə qəsd etmək fikrinə düşdülər, lakin Biz onları daha şiddətli cəzaya məruz qoyduq.*
>
> **(Ənbiya surəsi, 68-70)**

Hz. İbrahim elçilərin Allaha bağlılıqlarına, Allah yolundakı qətiyyətlərinə, vicdanlı rəftarlarına nümunədir. Necə ki, Allah onu "...Həqiqətən, İbrahim Allaha çox yalvaran həlim bir kimsə idi." (Tövbə surəsi, 114) deyərək təsvir edər ki, bu hz. İbrahimin son dərəcə incə düşüncəli, vicdanlı insan olduğunu ifadə edər. Həmçinin hz. İbrahimin qissəsində Allahın yüksək vicdan sahibi qullarına qəti olaraq kömək edəcəyi də görülür.

Allahın elçilərinin hamısı eyni əxlaq üzərində davranmışlar. Hz. Yəhya üçün Quranda "Üstəlik Öz tərəfimizdən şəfqət və paklıq da bəxş etdik. O, müttəqi idi. Həm də ata-anasına qarşı qayğıkeş idi; lovğa və asi deyildi." (Məryəm surəsi, 13-14) deyilir. Bu sifətlər, hz. Yəhyanın Allaha qarşı heç bir günaha yanaşmayan yüksək vicdanının ifadəsidir.

## Hz. Məryəm

Hz. İsanı Allahın “Ol” əmri ilə atasız olaraq dünyaya gətirən hz. Məryəm, Quranda aləmlərin qadınlarına nümunə olaraq verilən saleh mömindir. Hz. Məryəm böyük diqqətlə, ayənin ifadəsi ilə “gözəl bitki kimi” yetişdirilmişdir. (Ali İmran surəsi, 37) Dövrümüzdə geniş yayılan “qadın” xarakterindən tamamilə fərqli xarakterə, əxlaq və vicdan üstünlüyünə sahibdir. Quranda Allah hz. Məryəmin aləmlərin qadınlarına üstün qılındığını belə bildirir:

> *Bir zaman mələklər dedilər: “Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi. Ey Məryəm! Rəbbinə itaət et, səcdə qıl və rükuya gedənlərlə birlikdə rükuya get!”*
>
> **(Ali İmran surəsi, 42-43)**

Hz. Məryəmin Quranda ən diqqət çəkən cəhətlərindən biri isə, iffətinə olan həssaslığıdır. Hz. Məryəm iffətinə; cəmiyyət qaydaları, adət, ənənə olaraq deyil, Allaha olan bağlılığı və Onun hökmlərinə olan diqqəti səbəbiylə düşkün idi.

Quranda hz. Məryəmin hz. İsaya hamilə qalması və onu dünyaya gətirməsi ətraflı olaraq izah edilir. Bildirildiyinə görə, Cəbrayıl əleyhissalam hz. Məryəmə atası olmayan, Allahın ruhundan üflədiyi oğlan uşağının müjdəsiylə gəlmişdi. Bu, Allahdan özünə çox böyük müjdəydi, çünki bu uşaq bütün aləmlərə göndəriləcək olan peyğəmbər idi. Mövzuyla əlaqədar ayə belədir:

> *Mələk dedi: “Mən sənə ancaq pak bir oğlan bəxş etmək üçün Rəbbinin elçisiyəm”.*
>
> **(Məryəm surəsi, 19)**

Allahın köməyi və qoruması altında doğumunu tək başına reallaşdıran hz. Məryəm tayfasının yanına qayıdarkən güclü xarakter göstərərək yenə aləmlərə nümunə oldu. Hz. Məryəm və ailəsi öz yaşadıqları şəhərdə dindar, iffətli və inanclı insanlar olaraq tanınırdılar. Lakin hz. Məryəm aradan uzun müddət keçdikdən sonra, qövmünə yanında bir uşaqla qayıtdıqda bütün qövmünü özünə qarşı olduğunu gördü. Hz. İsanın Allahın hz. Məryəmə verdiyi müjdə olduğuna inanmayanlar, ona böhtan atanlar, günahlandıranlar, hətta zərər verməyə çalışanlar da oldu.

Lakin hz. Məryəm insanların razılığına görə deyil, yalnız Allahın məmnuniyyətinə görə hərəkət etdiyi üçün bu vəziyyət ona heç təsir etmədi. Halbuki cahil cəmiyyətlərdə, sırf insanlardan görəcəyi reaksiyalardan ötrü vicdanlarından uzaqlaşan, namazını, ibadətlərini yerinə yetirməyən hətta haramları halalı belə göz ardı edən bir çox insan vardır.

Allah hz. Məryəmə, qövmünün ittihamlarıyla təmasda olmaması üçün heç kimlə danışmamasını və sual soruşanlara da susma orucu tutduğunu bildirməsini vəhy etmişdir. Və bunun ardından da atılan bütün böhtanları insanlara geri aldıracaq möcüzə yaratmışdır; beşikdə olan hz. İsa "susma orucu" tutan hz. Məryəmin yerinə açıqlama verməyə başlamışdır:

> *Məryəm ona işarə etdi. Onlar dedilər: "Beşikdə olan körpə ilə necə danışaq?" Körpə dil açıb dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də məni anama qarşı qayğıkeş etdi; məni lovğa və bədbəxt etmədi. Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!"*
>
> **(Məryəm surəsi, 29-33)**

Beləcə hz. Məryəm qövmünə qarşı Allahın verdiyi möcüzə ilə ən gözəl şəkildə dəstəklənmişdir. Quranda hz. Məryəmlə əlaqədar olaraq izah edilən bu hekayə, müsəlman qadının sahib olacağı güclü, cəsarətli, Allaha könüldən bağlı, tək başına mübarizə apara bilən və son dərəcə iffətli rəftarı göstərir.

Burada diqqət edilməli lazım olan mövzulardan biri də budur: Quranda kişi və ya qadın fərqi yoxdur. Bütün elçilər və Allahın nümunə göstərdiyi bütün təqvalı insanlar eyni üstün xüsusiyyətlərə sahibdirlər. Bu insanların ortaq xüsusiyyəti isə vicdanlarının özlərinə əmr etdiklərini qeyd-şərtsiz tətbiq etmələridir. Bunun nəticəsində isə aləmlərə nümunə olaraq verilən rəftar və əxlaq gözəllikləri ortaya çıxır. Quranda, vicdanına uyması ilə insanlara verilən digər nümunə də Fironun arvadıdır.

## Fironun arvadı

Fironun arvadı, hz. Musa dövründə Misirdə İsrail oğullarının rəhbərliyini əlində saxlayan Fironun həyat yoldaşıdır. Tarixə, dünyanın gəlib-keçmiş ən zalım

insanlarından biri olaraq düşən Fironun evli olduğu bu saleh qadın, nikahında olduğu adamın tam əksinə, Quranda tarixin ən qiymətli və ən üstün müsəlmanlarından biri olaraq xatırlanmaq şərəfinə sahib olmuşdur. Fironun arvadının xarakteri və əxlaqı Quranda, iman edənlərə nümunə verilmişdir.

> *Allah iman gətirənlərə isə Fironun zövcəsini misal çəkdi ...*
>
> **(Təhrim surəsi, 11)**

Bunun səbəbi, Fironun arvadının Fironun sarayında, onun küfri təzyiqi altında yaşayarkən, bu çətin şərtlərə baxmayaraq iman etmiş olması və yenə insanların çoxunun əksinə, dünyada bəlkə də çox az kimsənin sahib olduğu mülkdən təsirlənməyərək güclü xarakter göstərmiş olmasıdır.

Bu mübarək insan təhlükəli mühitdə, son dərəcə zalım adamla evli ikən Allaha iman etmişdir. Onun rəftarının üstünlüyünü daha yaxşı anlaya bilmək üçün o dövrün şərtlərini Qurana əsaslanaraq düşünmək lazımdır. Əvvəlcə Fironun şəxsiyyətinə diqqət edilməlidir:

> *Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi.*
>
> **(Yunis surəsi, 83)**

Fironun arvadı, bu zülmkar insanla və onun yaxın ətrafıyla eyni evdə yaşayırdı. Allaha iman etdiyini söyləyən insanlara Fironun əsgərləri necə zülm etdiyini də bilirdi. Məhz Fironun arvadı iman etməyin belə çətin olduğu mühitdə, hz. Musanın izah etdiyi haqq dinə tabe oldu, vicdanına üz tutaraq Allahın varlığını və o günə qədər Misirə hakim olan inancların hamısının batil olduğunu görə bildi. Şübhəsiz bu, dünyada çox az insanın gözə ala biləcəyi, ancaq Allaha könüldən və qatqısız bağlılıq ilə mümkün ola biləcək qətiyyətdir və üstün vicdan nümunəsidir.

Həmçinin Fironun arvadının, eyni zamanda bu günə qədər çox nadir insanın sahib olduğu sərvətin və mülkün sahibi olduğunu da unutmamaq lazımdır. Amma bütün bunlardan üz çevirib Allahın dininə tabe olmuşdur. Bu gün bəlkə də onun sahib olduğu

imkanlarla müqayisə belə edilə bilməyəcək qədər az mülkə sahib olan insanların azğınlığı və bu səbəbdən qapıldıqları qürur, özlərini müstağni görərək Allaha ibadətə yanaşmamaları, bu saleh qadının dəyərini anlamaq baxımından gözəl müqayisə imkanı yaradır.

Fironun arvadının Allahın Quranda bildirdiyi duası onun səmimiyyətinin ifadəsidir. Sahib olduğu sərvətə heç əhəmiyyət verməyərək, Allahdan cənnətini belə istəmişdir:

> *Allah iman gətirənlərə isə Fironun zövcəsini misal çəkdi. O zaman o: “Ey Rəbbim! Mənə Öz yanında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən xilas et. Məni zalım adamlardan qurtar!” – demişdi.*
>
> **(Təhrim surəsi, 11)**

5
FƏSİL

# Vicdansızlıqları ilə tarixə düşmüş insanlar



## FİRON

Firon, hz. Musanın göndərildiyi dövrdə yaşamış olan və Quranda ondan ən çox bəhs edilən inkarçıdır. Fironun istər hz. Musaya və onunla birlikdə olanlara, istərsə də öz xalqına qarşı göstərdiyi əxlaq ətraflı olaraq araşdırıldığında, vicdanına uymayan, yalnız nəfsindəki ehtiraslar və dünya həyatı üçün yaşayan insanların ümumi xarakteri ortaya çıxar. Bu inkarçıların ən qabaqcıllarından olan və xalqının arasında zalımlığı ilə tanınan Fironun ruh halını, məntiqini, ehtiraslarını, gözləntilərini, narahatlıqlarını və gözlənilməz hadisələr qarşısındakı mövqeyini Quran ayələrinə baxaraq analiz etmək və vicdansız insanın sahib ola biləcəyi xüsusiyyətləri görmək mümkündür. Buna görə burada bəhs edilən insanla əlaqədar Quranda bildirilən bütün təfərrüatlar araşdırılacaq və vicdansızlığın bütün tərəfləri gözlər önünə səriləcək.

Ancaq Fironun xüsusiyyətlərini oxuyarkən unudulmamalı olan çox əhəmiyyətli nöqtə budur: Fironun sahib olduğu xüsusiyyətlər, bu gün cəmiyyətdə çox geniş şəkildə yaşanan xüsusiyyətlərdir. Səmimi olaraq düşünən insan, bu əxlaqın gətirdiyi nəticələri asanlıqla görə biləcəkdir. Ən səmimi rəftar isə, insanın bu xüsusiyyətləri digər insanlarda axtarmazdan əvvəl öz nəfsində -az və ya çox- axtarması və bu vicdana zidd rəftarları düzəltməsi olacaq.

### Fironun zalımlığı:

Fironun Quranda izah edilən təməl xüsusiyyətlərindən biri zalımlığıdır. Quranın bildirdiyinə görə Firon, hakim olduğu insanların bir hissəsi (xüsusilə İsrail oğulları) üzərində böyük təzyiq tətbiq edir, hətta onların uşaqlarını belə öldürürdü:

> *Həqiqətən, Firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölmüşdü. Firon onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi.*
>
> **(Qəsas surəsi, 4)**

Sadəcə öz nüfuzunu qorumaq və gələcəkdə özünə qarşı birləşəcək bütün qarşı hərəkətlərin qarşısını almaq məqsədində olan Firon, yalnız oğlan uşaqlarını deyil, oğlan olan körpələri də öldürür və öz əleyhinə yarana biləcək mümkün təhlükəni –öz ağlına görə- başlamadan qarşısını alırdı.

Fironun zalımlıq üzərinə qurduğu nizam, zəmanəmizdə də vərdiş etdiyimiz rəftarın tarixdəki nümunəsindən başqa bir şey deyil. İnkara və sərhəd tanımazlığa əsaslanan bütün zehniyyətlər öz vəziyyətlərini mühafizə etmək üçün lazım gəldikdə qadınları, uşaqları öldürür, müharibələr aparır, günahsız insanlar üzərinə bir dəfədə yüz minlərlə insanı öldürə biləcək bombalar yağdırırlar. Buradakı məqsəd isə yalnız öz mənfəətlərini və güclərini nə yolla olursa olsun qorumaqdır.

İnsan etdiyi hərəkətin Allah qatındakı hökmünə baxmadan yaşasa mütləq zalımlıq sərhədlərinə girə bilər, bəzilərinə zərər vermiş ola bilər, bəlkə tək qərarı bir çoxlarının həyatına səbəb ola bilər. Məhz Firon nümunəsi, zalımlığın ən son nöqtəsinin görüldüyü, ancaq zəmanəmizdə də fərqli metodlarla da olsa yaşadılan nümunədir.

## Fironun təkəbbürlənib azması:

Firon, əlindəki güc və ehtişamdan ötrü təkəbbürlənmiş, Allahın sərhədlərinin tamamilə xaricinə çıxdığı kimi, ən son öz ilahlığını elan edəcək qədər azğınlığın son həddinə gəlib çıxmışdı. Təzyiq altına aldığı xalqını da dözülməz çətinliklərə məruz qoyurdu. Əlindəki gücü qorumaq üçün nə edəcəyini bilməyən halda hər cür təzyiq üsuluna üz tuturdu. Məhz Allah bu nöqtədə elçisi hz. Musaya "Fironun yanına get, çünki o, həddini aşmışdır" (Taha surəsi, 24) əmrini vəhy etmiş və onu xəbərdar edən və qorxudan olaraq Firona göndərmişdir.

Fironun bütün insanlığa ibrət olan təkəbbürü və bunun nəticəsi olan azğınlığı, ayələrdə belə izah edilir:

> *Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!" Onlar dedilər: "Ey Rəbbimiz! Biz, onun bizə şiddətli cəza verməsindən və ya həddini aşmasından qorxuruq". Allah buyurdu: "Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!*
>
> **(Taha surəsi, 43-46)**

Beləcə Firon şəxsən Allahın elçisi tərəfindən doğru yola dəvət edilmişdir. Ancaq bu onu islah etmək yerinə, ehtirasını və azğınlığını artırmışdı. Bu ehtirasın arxasında duran ən əhəmiyyətli amil, sahib olduğu siyasi və hərbi güc üzündən təkəbbürlənməsi və mövqeyini itirməkdən qorxmasıdır. Quranda Fironun sərt üslubu və özünə olan heyranlığı belə izah edilir:

> *Firon qövmünü çağırıb dedi: "Ey xalqım! Məgər Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi? Məgər görmürsünüzmü? Ya da mən bu aciz və az qala sözünü belə aydın başa sala bilməyən adamdan daha üstün deyiləmmi?*
>
> **(Zuxruf surəsi, 51-52)**

Ayənin əvvəlində Fironun qışqıraraq qövmünə səslənməsi diqqət çəkir. Onlara alçaldıcı və hökm edici ifadəylə səslənməsinin altında əhəmiyyətli psixoloji taktika vardır. Əvvəlcə xalqına öz gücünü və siyasi mövqeyini təsdiq etdirəcək bəzi suallar yönəldər. "Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi? Məgər görmürsünüzmü?" ifadəsi özünü üstün görmə kimi axmaq düşüncəsinin başlıca səbəbinin sahib olduğu mülk olduğunu göstərir. Ayənin qalan hissəsində isə Firon, Allahın elçisi olan hz. Musadan "bu" deyə bəhs edər və onu "aşağı sinifdən yazıq" olaraq adlandırar. Burada diqqət çəkilməli olan çox əhəmiyyətli nöqtə, Fironun, özünün hz. Musadan daha xeyirli olduğunu ifadə edərkən, şeytanın Allaha üsyan etdiyi anda istifadə etdiyi ifadənin eynisini istifadə etməsidir. Yalnız bəzi zahiri ölçülərə -mülk, soy və məqama- əsaslanaraq hz. Musanı alçaltmış və ona tabe olmağı rədd etmişdir.

Şeytan da hz. Adəmə səcdə əmrini aldıqda, Firon kimi özünü üstün görərək hz. Adəmə tabe olmağı rədd etmiş və Allahın əmrinə üsyan etmişdir. Bu vəziyyət ayədə belə xəbər verilir:



*Allah dedi: "Mən sənə əmr etdikdə sənə səcdə etməyə nə mane oldu?" İblis dedi: "Mən ondan daha üstünəm. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan!"*

**(Əraf surəsi, 12)**

Burada yenə əhəmiyyətli nöqtə var. O da təkəbbürün şüuru tamamilə örtməsidir. Belə ki, Allahla şəxsən təmasda olan, Onun varlığını və birliyini bilən şeytan, bütün bu bildiklərinə baxmayaraq hz. Adəmə səcdə əmrinə qarşı gəlmişdir. Məhz Fironun sərhəd tanımaz azğınlığının səbəbi də budur; Allahın özünə verdiyi mülk və digər nemətlərdən ötrü təkəbbürlənmək və bu fiziki imkanlara əsaslanaraq özünü üstün görmək. Firon hz. Musaya qarşı bu üsyankar rəftarından sonra, tarix boyunca, demək olar ki, bütün elçilər üçün yönəldilmiş olan sualı, xalqına səslənərək soruşmuşdur:

*Nə üçün ona qızıl bilərziklər taxılmayıb və onunla birlikdə bir-birinin ardınca mələklər gəlməyib?"*

**(Zuxruf surəsi, 53)**

Bu sual da çox əhəmiyyətli nöqtəni göstərir. İnkar edənlər normal insanın elçi olaraq vəzifələndirilməsini qəbul etməzlər. İnkar edənlərin ölçüləri vicdanları olmadığı üçün, elçidə görmək istədikləri də, təqva, Allaha yaxınlıq, səmimiyyət, ağıl və Allaha təslimiyyətdə öndərlik deyil. İnkar edənlər iman etmək üçün elçidən fövqəladə maddi zənginlik və ya fövqəltəbii hadisələr gözləyərlər. Məhz bu düşüncə inkarçıların hidayətə çatmamalarının ən böyük səbəblərindəndir. Çünki içlərindəki qürur, özləri kimi insana tabe olmalarına, o insana itaət etmələrinə mane olur. Vicdanlarına uymaq yerinə, nəfslərinin əmr etdiklərinə uyaraq qürurlarını qorumağı üstün tutarlar.

## Fironun axmaq və məntiqsiz suallar soruşaraq küfrdə dirənməsi:

Allahdan gələn vəhy üzərinə hz. Musa qardaşı hz. Harun ilə birlikdə Fironun yanına getmiş və ona əmr edildiyi üzrə ona təbliğ etməyə başlamışdır.

Bunun üzərinə Firon, özlərinə Allahın yolu ilə təbliğ edilən inkar edənlərin tez-tez tətbiq etdiyi taktikaya yönəlmişdir. Hz. Musa və qardaşı hz. Harunu məcbur edəcəyini ümid etdiyi məntiqsiz və şeytani suallarını ard-arda yönəltmişdir. Bu sualların ortaq nöqtəsi imana yönəlmə məqsədi ilə deyil, səhv axtarmaq və lağ etmək məqsədiylə soruşulmuş olmalarıdır. Əslində bu sualların hər birinin cavabını özü də vicdanı ilə bilir. Məsələn, Fironun özünə Allahın dinini təbliğ etməyə gələn hz. Musa və hz. Haruna soruşduğu ilk sual belədir: “Rəbbiniz kimdir, ey Musa?” (Taha surəsi, 49)

Bu sual tam mənasıyla təkəbbür nümayişidir. Allahın elçisinə yönəltdiyi bu suala necə cavab verəcəklərini maraqla gözləyən Firona qarşı hz. Musanın cavabı olduqca dəqiq və hikmətli olmuşdur.

> *Dedi ki “Bizim Rəbbimiz hər şeyə Öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir.”*
>
> **(Taha surəsi, 50)**

Bu son dərəcə ağıllı və səmimi cavab qarşısında Firon heç bir müdafiə tapa bilməmişdir. Fironun soruşduğu və heç bir məntiqli tərəfi olmayan digər sual isə budur:

> *Firon dedi: “Bəs əvvəlki nəsillərin halı necə olacaq?”*
>
> **(Taha surəsi, 51)**

Bu sualın arxasında duran niyyət, səmimi maraq deyil. Firon inkarını və saxtakarlığını örtmək, mövzunu ötürmək məqsədilə, diqqəti öz üzərindən kənarlaşdırıb öz ağlına görə baş qarışdırmağa çalışmaqdır.

Buna bənzər “mövzu yayındırıcı” suallara başqa inkar edənlər də üz tutarlar. Halbuki özlərini xəbərdar edənlərə qarşı yönəltdikləri bu cür qaçış sualları, inkarçıları sonsuz olan cəhənnəm əzabından xilas etməyəcəkdir. Çünki bu xəbərdarlıqlar onlara yaşamaqda olduqları anda edilir. Yəni bu insanlardan, özlərindən əvvəl yaşamış və “yox olmuş” olan qövmləri vəziyyətinin nə olacağını araşdırmalarını istəmir. O qövmlərin

vəziyyəti, kimi hansı mövzuda məsul tutub kimi tutmayacağı, əlbəttə heç bir şeyi unutmayan, sonsuz ədalət və sonsuz vicdan sahibi, aləmlərin Rəbbi olan Allahın biləcəyi mövzudur. Necə ki, hz. Musanın da vermiş olduğu cavab, bu həqiqəti olduqca açıq şəkildə gözlər önünə sərir:

> *Musa dedi: "Onlar haqqındakı bilgi Rəbbimin yanında olan bir Kitabdadır. Rəbbim nə xəta edir, nə də unudur!"*
>
> **(Taha surəsi, 52)**

Ardından hz. Musa Firona, Allahın insanlara verdiyi nemətləri xatırladaraq, Onun varlığının dəlillərini sıralamışdır:

> *"O, yer üzünü sizin üçün beşik etmiş, orada sizin üçün yollar salmış və göydən su endirmişdir. Biz onunla cürbəcür bitkilərdən cüt-cüt yetişdirdik.*
>
> **(Taha surəsi, 53)**

Ancaq vicdanının səsini qətiyyən dinləməyə yanaşmayan, məqsədi öz qürurunu və ölkəsindəki mövqeyini qorumaq və bu səbəblə səhv axtaran Firon, bu yolla bir şey əldə edə bilməyəcəyini başa düşdükdə, mövzunu tamamilə başqa şəklə salmışdır. Artıq Allahın varlığı haqqında suallar soruşmayıb, hz. Musanı siyasi bəzi ittihamlarla günahlandırmağa başlamışdır.

Fironun şüuraltındakı həqiqi narahatlıq bu nöqtədə, yəni ancaq küncə sıxışdırıldığında və hz. Musaya cavab verə bilmədiyində ortaya çıxmışdır. Hz. Musadan soruşduğu hər suala son dərəcə ağıllı, əsaslı cavablar alan Firon, bu həqiqəti vicdanında fərq etməsi səbəbindən böyük narahatlığa qapılmışdır. Fironun narahatlığı, ən böyük bütü olan səltənətini, mülkünü və torpaqlarını itirməkdir. Bu narahatlıqla da başqa mənfəətli yol tapa bilməyərək hz. Musanı sehr etməklə və siyasi hədəflərin arxasınca qaçmaqda günahlandırmışdır:

> *Biz dəlillərimizin hamısını Firona göstərdik. O isə bu dəlilləri yalan sayıb qəbul etmədi. Firon dedi: "Sən öz sehrinlə bizi öz torpağımızdan qovub çıxartmağamı gəlmisən, ey Musa?*
>
> **(Taha surəsi, 56-57)**

Dövrümüzdə də Allahın sonsuz gücünü qavraya bilmək üçün vicdanlarına üz tutmayan, Firon xarakteri göstərərək təkəbbürlənən çox sayda insan mövcuddur. Bu insanların Firon kimi mütləq ölkənin başında olmaları, diktator tipli rəhbərlik etmələri lazım deyil. Bu bölüm boyunca verdiyimiz nümunələr, insanların Allahın gücünü və birliyini inkar edə bilmək üçün soruşduqları səmimiyyətsiz sualların bir qismi idi. Ətrafımıza baxdığımızda gördüyümüz isə, bu tərz sualların fərqli sözlərlə belə olsa dilə gətirilməsidir. Qısacası, hər dövrdə eyni inkarçı fəlsəfə, vicdansızlığı tətbiq etməkdə dirənir. Ancaq unudulmamalıdır ki, Allah Fironun sonunu, onu və ardındakı bütün gücünü suda boğub yox edərək bütün insanlara ibrət etmişdir. Firon xarakterini davam etdirən və bunda təkid edən, inadla müqavimət göstərənlər, bu nəticəni də nəzərə almalıdırlar.

## Allahın varlığı ilə əlaqədar yanlış düşüncələri olması:

Qurandan öyrəndiyimiz qədəriylə Firon tam mənasıyla ateist düşüncə quruluşuna sahib deyildi. Özünün ilahlıq iddiası yalnız hökm etdiyi qövmə yönəlmişdi və bu iddia qövmün torpaqları üzərində, özünə itaət edilməsi və qeyd-şərtsiz təslim olunması mənasını daşıyırdı.

Bir başqa ifadəylə, bir çox inkar edən kimi o da Allahın varlığını bilir, lakin Allahı gərəyi kimi təqdir edə bilmirdi. Olduğu dünyəvi mövqeyinin verdiyi sərxoşluq içində Allahı yer üzündə deyil -haşa-, yalnız göylərdə hökm edən ilah olaraq düşünmüş və özünü hökmran olduğu Misirin "Rəbbi" olaraq görmüşdü. Fironun bu klassik inkarçı anlayışını, məsxərəçi üslubla dilə gətirdiyi və ayədə ibrət olaraq nəql edilən aşağıdakı sözlərindən anlayırıq:

> *Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram. Ey Haman! Mənim üçün palçığın üzərində od qala və bir qüllə düzəlt ki, Musanın məbudunun yanına qalxım. Mən, həqiqətən də, onu yalançılardan hesab edirəm."*
>
> **(Qəsas surəsi, 38)**

Fironun bu səhv məntiqinə də zəmanəmizin insanlarında rast gəlmək mümkündür. Bəlkə Firon kimi "göyə nərdivan dayama" fikri irəli sürülmür, amma bənzər fəlsəfə ilə insanlar, Allahın bütün kainatı, içindəki canlılarla birlikdə yaradıb tərk etdiyi fikrini daşıyırlar. Belə ki, bu gün bir çox insan Allahı (haşa) səmada oturan, dünya işlərinə qarışmayan varlıq olaraq düşünürlər. Şübhəsiz bu axmaq inanc, insanın vicdanını dövrə xarici buraxaraq özünə sonsuz nemətlər verən Rəbbimizin inkar etməsinin nümunələrindəndir. Çünki Allah sonsuz qüdrət sahibidir; göyləri və yeri varlığıyla əhatə etmişdir, onların və ikisi arasında olan hər şeyin Rəbbidir.

## Fironun ikiüzlülüyü və etibarsızlığı:

Firon və ətrafı, küfrləri səbəbiylə illərlə davam edən müxtəlif əzablara düçar olmuşlar. Bunlara dözə bilməyəcəklərini başa düşdükləri zaman, hər nə qədər qürur və təkəbbürləri çox olmasına baxmayaraq, hz. Musaya üz tutdular. Ona, özlərindən bu əzabı uzaqlaşdırdığı halda iman edəcəklərinə dair söz verdilər:

> *Əzab onları bürüdükdə dedilər: "Ey Musa! Bizim üçün Rəbbinə sənə verdiyi əhd ilə dua et! Əgər əzabı bizdən sovuşdursan, biz hökmən sənə iman gətirəcək və İsrail oğullarını mütləq səninlə birlikdə göndərəcəyik".*
>
> **(Əraf surəsi, 134)**

Allah hz. Musanın duasını qəbul etdi və sözlərində durmaları üçün bir müddət əzabı onlardan uzaq etdi. Halbuki Firon və ətrafı, hər dikbaş inkar edənin sahib olduğu dönük və etibarsız xarakter sərgilədilər və əzab üzərlərindən qaldırılıb rahatlayınca vicdanlarına arxa çevirərək verdikləri sözə xəyanət etdilər.

Nəhayət bütün bu olanların ardından Allah bu insanlardan, ayələrini yalan hesab etmələri və onlardan xəbərsizmiş kimi davranmalarından ötrü intiqam aldı, "Muntəkim" (intiqam alan) sifətini təcəlli etdirdi. Ayələrdə belə buyurulur:

> *Biz çatacaqları müəyyən vaxta qədər əzabı onlardan sovuşdurduqda isə, dərhal əhdi pozdular. Ayələrimizi inkar edib onlardan qafil olduqlarına görə Biz o tayfadan intiqam alaraq onları dənizdə qərq etdik.*
>
> **(Əraf surəsi, 135-136)**

Əslində Fironun bütün inkarına və azğınlığına baxmayaraq Allahın gücünü vicdanən bildiyi bu hadisə ilə də görülür, çünki Firon və ətrafı bu fəlakətlərin üzərlərindən qalxması üçün hz. Musanın Allahdan kömək diləməsini istəmişlər. Ancaq qürurları o qədər güclüdür ki, vicdanları doğrunu bilməsinə baxmayaraq təkəbbürlərinə görə hz. Musaya yenə tabe olmamışlar.

## Fironun möminlərə qarşı etdiyi zülm və əziyyətlərə qarşılıq güclü vicdan nümayişi:

Firon, hz. Musanı məğlub edə bilmək üçün hər cür yollar sınadı. Bunlardan biri, hz. Musanı ən güvəndiyi sehrbazları ilə qarşı-qarşıya gətirmək üçün təşkil etdiyi qarşılaşma idi. Öz ağlına görə ədalətli və demokratik bəzəyi verilmiş hiyləli oyunla hz. Musanı hörmətdən salacağını, beləliklə qurulan sistemini qoruya biləcəyini və hətta möhkəmləndirəcəyini düşünürdü.

Təyin olunan gün gəldiyində hz. Musa və sehrbazlar xalqın toplandığı meydanda qarşı-qarşıya gəldilər. Sehrbazlar güclərini göstərmək üçün əsalarını atdılar. Etdikləri sehrin təsirilə, əsalar qaçırmış kimi göründü. Ancaq hz. Musa əsasını atdıqda, Allahın izni ilə əsa sehrbazların qurduğu tələni uddu. Bunun üzərinə hz. Musanın həqiqəti söylədiyini, onun Allahın elçisi olduğunu və Allahdan başqa ilah və güc olmadığını anlayan sehrbazlar Allaha iman etdilər. Bu, Firon üçün böyük məğlubiyyət, qurduğu tələnin başına keçməsi anlamına gəlirdi. Buna görə sehrbazlar Allaha iman etdiklərində, Fironun reaksiyası çox sərt olmuşdur. Çünki həm xalqının gözü qarşısında alçalmış, həm əhəmiyyətli siyasi gücü itirmiş, həm də öz sisteminə qarşı böyük təhlükə olaraq gördüyü hz. Musa əhəmiyyətli qalibiyyət əldə etmişdi. Nəticə olaraq Firon iman edən sehrbazların çox ağır cəzayla cəzalandırılmalarına qərar verdi. Hər sehrbazın qollarından biri və o qolunun digər tərəfindəki ayağı kəsiləcək və ya sehrbazlar xurma budaqlarında edam ediləcəklərdi. (Əraf surəsi, 120-124)

Əgər bu cəzalar bir az araşdırılsa, Fironun zalımlığı daha yaxşı aydın ola bilər. Çarpaz qol və ayaqların kəsilməsi, sağ əl ilə sol ayağın və ya sol əl ilə sağ ayağın kəsilməsi

deməkidi. Belə cəzaya məhkum insan ömrünün sonuna qədər təsviri mümkün olmayan çətinliklər çəkər. Bundan əlavə, o günkü texnologiya və tibbi imkanlar düşünüldüyündə, bu insanların qarşılaşdığı əzab daha yaxşı aydın olar. Belə cəzanın, bu cəzaya layiq olmaq üçün heç bir cinayət törətməmiş, əksinə Allaha iman etmək kimi ən böyük fəziləti göstərmiş insanlara tətbiq olunması, əlbəttə çox böyük zülm və vicdansızlıqdır.

Fironun bu son dərəcə vicdansız və zalım rəftarlarına qarşılıq sehrbazların vicdanlarının gücü isə böyük təzaddır. Doğrunu görən sehrbazlar Fironun zülmünə və təhdidlərinə baxmayaraq vicdanlarına tabe olmaqda israr etmişlər. Onların bu rəftarı Quranda bütün müsəlmanlara nümunə olaraq çatdırılır. Firon işgəncə əmrini verdikdən sonra, sehrbazlar ona bu cavabı vermişlər:

> *... Onlar dedilər: "Biz heç vaxt səni bizə gələn bu aydın dəlillərdən və bizi yaradandan üstün tutmayacağıq. İndi nə hökm verəcəksənsə, ver. Sən ancaq bu dünyada hökm verə bilərsən!*
>
> **(Taha surəsi, 72)**

Fironlar bundan minlərlə il əvvəl yaşamış hökmdarlardır. Ancaq Quranda izah edilən Firon, eyni zamanda özündən əvvəl və sonra gələn yüzlərlə liderin xarakterini təmsil edir. Bu liderlərin hamısının ortaq nöqtəsi, "oda çağıran rəhbərlər" olmalarıdır. Bu liderlərin lideri də şeytandır. Haqqında bəhs etdiyimiz kəslər vicdanlarına uymayaraq, hətta vicdanları ilə savaşaraq, dünya ehtirası ilə şeytanın əmr etdiklərinə uymuşdular.

Ancaq Fironun bənzərləri mütləq hökmdarlardan çıxmaz. Firon xarakteri, onun kimi Allaha üsyan edən bütün inkarçılarda asanlıqla müşahidə edilə bilər. İman etməmələri, inkarlarındakı qəti israrları, kiçik də olsa mövqe ehtiraslarıyla minlərlə və milyonlarla Firon yer üzündə həmişə var olacaq. Axirətdə düşəcəkləri yer isə eynidir: Əbədi alçaldılmanın və atəş əzabının yeri olan cəhənnəm.

## Bağ sahibi və yoldaşı

Allah, Quranın Kəhf surəsində insanlara iki insanın nümunəsini izah edir: Bu iki adamdan biri, Allahın varlığını bilməsinə baxmayaraq Onu təqdir edə bilməyən, axirətə şübhə duyan və sahib olduğu bütün zənginliklə öyünən vicdanına uymayan kəsdir. Yoldaşı isə Allahı təqdir edə bilən və vicdanı gördüyü doğruları söyləməkdən

çəkinməyən səmimi müsəlmandır. Bu iki insanın arasındakı söhbətlər Quranda belə bildirilir:

> *Onlara iki kişinin əhvalatını misal çək. Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq. Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq. Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!" – dedi. O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm. O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!"*
>
> **(Kəhf surəsi, 32-36)**

Bu bağ sahibinin danışıqları zəmanəmizdə tez-tez rast gəlinən insan modelinin inancını əks etdirir. Bu azğın inancın səbəbi budur: İnsanlar vicdanları ilə Allahın və axirətin varlığını fərq edərlər. Ancaq vicdanlarına tabe olmağın gətirdiyi məsuliyyətlərdən qaçmaq üçün xüsusilə axirətin varlığını heç düşünməzlər və bu səbəbdən zehinlərində ümumiyyətlə ölümlə birlikdə yox olmaq var. Ancaq bu yox olma da onlar üçün qorxu verici bir şeydir. Bu səbəblə özlərini təsəlli edən "xoşbəxt o biri dünya" inancına sahibdirlər. Həm qiyamətə inanmaqdan, həm də ehtimal olsa belə buradakından daha yaxşı həyat yaşayacaqlarına dair özlərini aldadırlar.

Dünya həyatında əldə etdikləri qazanc da onları bu şəkildə aldadır. Allahın ayədə də diqqət çəkdiyi kimi, bağ sahibi bağına demək olar ki, sonsuzluq ətf etmiş və heç bir gücün onu yox edə bilməyəcəyini düşündüyünü də açıq şəkildə ifadə etmişdir.

Yuxarıdakı ayələrdə də göründüyü kimi, insanın vicdanına uymaması onun həqiqətləri görməsinə mane olur. Üstəlik burada görülə bilməyən çox əhəmiyyətli həqiqət var; insanın sonsuz həyatını harada və necə yaşayacağından bəhs edilir. Bağ sahibi, özünə Allah qatında sınaq olaraq verilən mallarla malına qürrələnib, sonsuz həyatını əzab içində keçirməyi nəzərə almışdır.

Bu adamın vicdana uymayan danışıqlarına qarşılıq vicdanlı olan yoldaşı həqiqətləri ona xatırladaraq belə cavab vermişdir:

> *... "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış Rəbbinə küfrmü edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman: "Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!" – deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa, ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, sənin bağına isə göydən bir bəla göndərsin və o, hamar bir yerə dönsün. Yaxud suyu çəkilib getsin və bir də onu axtarıb tapa bilməyəsən!"*
>
> **(Kəhf surəsi, 37-41)**

Vicdanlı insan hər vəziyyətdə vicdanının əmr etdiklərini tətbiq edər və söyləyər. Burada diqqət yetirilməli olan nöqtə də, bu adamın vicdanı ilə doğru gördüklərini bütün açıqlığı ilə yoldaşına söyləməsidir. Buradakı səmimi və açıq üslubu yoldaşının axirətini düşündüyü üçündür. Ona bunları xatırlatmasa, onun cəhənnəmə getməsinə göz yummuş olur. Öyüd verərək xatırlatmaq, Allahın əzabı ilə xəbərdar etmək və heç kimsədən çəkinməmək, vicdanlı möminin xüsusiyyətləridir.

Amma bütün bu xatırlatmalara baxmayaraq öyüd almayan insanlar da olacaq. Necə ki, Allah öyünərək axirəti inkar edən, Allahın gücünü təqdir edə bilməyən insanın sonunu belə bildirir:

> *Beləcə, onun bağının məhsulu bir anda məhv edildi. O, bağını belə görüb ora qoyduğu xərcə görə peşmançılıq çəkməyə və əllərini bir-birinə vurmağa başladı. Bağın talvarları belə darmadağın olub yerə yıxılmışdı. O dedi: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!" Allahdan başqa ona yardım edə biləcək dostlar yox idi və o da öz-özünə kömək edə bilməzdi. Belə hallarda kömək etmək ancaq Haqq olan Allaha məxsusdur. Ən yaxşı mükafat verən və ən gözəl aqibət nəsib edən Odur.*
>
> **(Kəhf surəsi, 42-44)**

6
FƏSİL

# Nəticə



Ölüm heç kimsəyə uzaq deyil; bəlkə insanın təxmin etdiyindən də yaxın, bəlkə bir addım kənarındadır... Bu dünya həyatını Allahın boş məqsəd uğrunda yaratmadığı və ölümün son olmadığı isə şübhə doğurmaz həqiqətdir. Hər kəsin həyatını bu böyük həqiqətə görə tənzimləməsi lazımdır. Çünki hər insan ölümün ardından dünyada yaşadığı həyatla qiymətləndirilib, ya cənnətdə qarşılanacaq, ya da cəhənnəmə atılacaqdır. Bir insanın bu həqiqətə tam qənaəti gəlməsə, şübhə içində belə olsa, dəyişən bir şey olmaz. Elə ki, insan ölümün yox olma olmadığına, cənnətin və cəhənnəmin var olduğuna yarı-yarıya ehtimal versə belə, belə bir şeyi əsla riskə atmamalı və var gücü ilə ölümdən sonrakı həyatı üçün cəhd etməlidir.

Bunun üçün isə tək həll yolu vicdanı dinləyərək Allahın əmrlərini yerinə yetirməkdir. Əks təqdirdə, yəni insan vicdanına tabe olmursa və ya onu yüz faiz istifadə etmirsə, ölüm mələyi ilə qarşılaşdığı an, sonsuza qədər qurtula bilməyəcəyi peşmanlıq və ümidsizliyə düşəcək.

Məsələn, hal-hazırda bu kitabda vicdanı ilə düşünən insanın hansı həqiqətləri görəcəyi və bu həqiqətləri necə tətbiq edəcəyi təsvir edildi. İnsanın bunları düşünüb anlamaq və ya heç düşünmədən unutmaq kimi iki alternativi var. Və o adam də şübhəsiz bunlardan birini seçəcək. Səhv ehtimal olaraq ikinci alternativi seçdiyini düşünək. Vicdanına tabe olmadı və həyatına qaldığı yerdən davam etdi... Aradan on il keçdikdə bəlkə bu kitabın adını belə xatırlamayacaq. Ancaq unudulmamalı olan çox əhəmiyyətli mövzu var: Allah qatında bunların hər biri yazılır. Hər an insanın vicdanına tabe olub olmadığı, sağında və solunda oturan və ömür boyu onu tərk etməyən iki yazıçı mələk tərəfindən yazılır. Bu, Quranda belə bildirilmişdir:

> *Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır. Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın.*
>
> **(Qaf surəsi, 17-18)**

Hesab günündə isə bu mələklərin hər yazdıqları həssas tərazilərə yerləşdiriləcək. Bir tərəfdə vicdanlı rəftarlar və digər tərəfdə vicdansızlıqlar olacaq. İnsan bəlkə bu kitabı oxuduğunu, vicdana uymağın nə qədər əhəmiyyətli olduğunun özünə xatırladıldığını unutmuş olacaq, amma Allah burada oxuduğu tək bir sözü belə qarşısına çıxaracaq.

Əslində insanlar hələ dünyadaykən bu həqiqətlərin fərqindədirlər. Vicdanlarına üz tutduqlarından nəyin doğru, nəyin səhv olduğunu demək olar ki, qavraya bilərlər. Amma kitab boyunca bəhs etdiyimiz kimi, dünyəvi mənfəətləri uğruna həqiqətlərə arxalarını çevirərlər, dönüb qaçarlar, görməzlikdən gələrlər. Necə ki, Quranda hz. İbrahim ilə əlaqədar izah edilən hekayədə insanların vicdanlarına üz tutduqlarında doğrunu dərhal görə bildikləri, ancaq nəfsani maraqları daha üstün olduqları üçün arxa çevirdikləri belə izah edilir:

> *Onlar öz-özlərinə müraciətlə: "Həqiqətən də, siz zalımlarsınız" – dedilər. Sonra yenə öz bildikləri batil əqidələrinə qayıtdılar...*
>
> **(Ənbiya surəsi, 64-65)**

Çox əhəmiyyətli həqiqət daha var: Bir insan nə edirsə etsin vicdanı onu ölənə qədər tərk etməyəcək. Çünki vicdan, insanın tamamilə öz iradəsinin xaricində gücdür; Allahın səsidir. Hər kəs ölənə qədər bu səsi eşidəcək, ancaq bu səsə əməl etməyənlər öldükdən sonra bunun şiddətli peşmanlığını dadacaqlar. Necə ki, Quranda, axirətdəki söhbətlərdən çox nümunələr verilir və bu söhbətlərin hamısında cəhənnəm əhli açıq olaraq nələri etmədikləri üçün cəhənnəmdə olduqlarını etiraf edirlər. Bu səbəbdən hər kəs nəyi etməsi, nəyi etməməsi lazım olduğunu əslində çox yaxşı bilir və vicdanından qaçışı ona fayda vermir. Cəhənnəm xalqının bu vəziyyətləri Quranda belə izah edilir:

> *Sizi Səqərə salan nədir? Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik.Kasıbı da yedizdirməzdik. Batil sözlər danışanlarla birlikdə biz də danışardıq, və Haqq-hesab gününü yalan hesab edərdik –ölüm yəqinliyi bizə gələnə qədər". Odur ki, şəfaət edənlərin şəfaəti onlara fayda verməz. Onlara nə olub ki, nəsihətdən üz döndərirlər? Sanki ürküdülmüş vəhşi uzunqulaqlardır ki, ovçulardan (yaxud aslandan) qaçırlar. Əksinə, onlardan hər biri vəhy olunmuş səhifələrin məhz ona verilməsini istəyir. Xeyr! Əksinə, onlar Axirətdən qorxmurlar. Xeyr! Bu Quran bir nəsihətdir. İstəyən onu xatırlayar.*
>
> **(Müddəssir surəsi, 42-55)**

Bu kitabı oxuyan insan, yuxarıda yazılan vəziyyətə düşmək istəmirsə bilməlidir ki, etməli olduğu şey vicdanını dinləmək, onun göstərdiyi doğrulara arxa çevirməmək, onun səsini boğmağa çalışmamaqdır.

7
FƏSİL

# Təkamül yalanı



Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin

qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin

təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.



Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

## - Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)



## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil,

yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. (J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)

Təkamülçülər "ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və

homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda

qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi

görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını

başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!*
>
> **(Bəqərə surəsi, 6-7)**

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər.*
>
> **(Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün

uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.*
>
> **(Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

> *Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər.*
>
> **(Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

KİTAB HAQQINDA

**Vicdan kəlməsini hər kəs çox yaxşı bilir və çox tez-tez istifadə edir. Lakin əsl mənasının nə demək olduğu, bu anlayışın din baxımından əhəmiyyəti ümumiyyətlə bilinmir.**

Bəzi cəmiyyətlərdə geniş yayılmış anlayışa görə, yerə zibil atmayanlar, dilənçiyə pul verənlər, küçə heyvanlarını qoruyub bəsləyənlər vicdanlı insanlara nümunədir. Bunlar əlbəttə ki, gözəl davranışlardır ancaq vicdanın bunlardan çox uzaq mənası və əhəmiyyəti vardır. Bu kitabın məqsədi, Quranda nümunələri verilən əsl vicdanı tanıtmaq və vicdanlı insanın necə düşündüyünə, vicdanı ilə necə ağıla və anlayışa sahib olduğuna və vicdanın insanların ölümdən sonrakı həyatları üçün daşıdığı əhəmiyyətə diqqət çəkməkdir.

> *Bu kitab, vicdanınızın səsini tanımaq və onu, düşüncələrinizdəki digər səs və təlqinlərdən ayıra bilməyinizə köməkçi olacaq.*

— HARUN YƏHYA —